Bu bir xalq qəzetidi
ƏDALƏT

## Mustafa Şentop: “Ermənistan region üçün təhdiddir”



**Ermənistan region üçün bir təhdiddir.**

**Adalet.az-ın məlumatına görə, bunu Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop deyib.**

**Onun sözlərinə görə, Türkiyə Ermənistanın istər Azərbaycana qarşı, istərsə də regional olaraq bir təhdid olduğu qənaətindədir:**

**”Ermənistan risk yaradan, məsuliyyətsiz hərəkət edən bir dövlətdir. Türkiyə olaraq, hər kəsin təhlükəsizliyi üçün çalışmaq, bütün insanlığı sülh və sabitlik içində yaşatmaq üçün mücadiləyə davam etməkdə qərarlıyıq. Bölgəmizdəki və dünyadakı ixtilafların həll edilməsi üçün təşəbbüs göstərməkdən də çəkinmirik”.**

## ABŞ səfiri: "Baydenin "soyqırım"la bağlı çıxışının hüquqi əsası yoxdur"



**ABŞ Prezidenti Co Baydenin "erməni soyqırımı" ilə bağlı səsləndirdiyi fikirlərin hüquqi əsası yoxdur.**

Azvision.az erməni KİV-lərinə istinadən xəbər verir ki, bu barədə ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi qondarma soyqırımın "tanınması" barədə açıqlamasında deyib. Diplomat bildirib ki, soyqırım cinayətləri konvensiyası 1951-ci ildə qəbul edilib: "Bu hadisə isə 1915-ci ildə baş verib. Və konvensiyanın hüquqi baxımdan geriyə qüvvəsi yoxdur". ABŞ-la Türkiyə arasındakı münasibətlərə gəlincə, səfir qeyd edib ki, Ankara NATO-da Birləşmiş Ştatların vacib müttəfiqidir.

Xatırladaq ki, C.Bayden 1915-ci il hadisələri ilə bağlı çıxışında "soyqırım" sözündən istifadə edib.

## Ağdamda 3 min hektardan çox sahə minalardan təmizlənib

**Ağdam rayonunun işğaldan azad edilən 3037 hektar əkin sahəsi mina və partlamamış sursatlardan təmizlənib. Bu barədə Adalet.az-a Ağdam rayon İcra Hakimiyyətindən məlumat verilib.**

Məlumatda qeyd edilir ki, ərazilərin minalardan təmizlənməsi prosesi davam etdirilir: ”Hələlik rayonun işğaldan azad edilən əkin sahələri təmizlənir. Təmizlənmiş sahələrin 2200 hektarına buğda əkilib”.

## BNA sədri həftə sonları avtobusların işləməməsindən danışdı



**Pandemiya dövründə şənbə və bazar günləri ictimai nəqliyyatın işləməməsi onun fəaliyyətinə ciddi təsir göstərir. Lakin Operativ Qərargaha təklif vermə hüququ bizdə deyil. Ona görə bu haqda bir söz deyə bilmərik. Adalet.az-ın məlumatına görə, bunu Bakı Nəqliyyat Agentliyinin İdarə Heyətinin sədri Vüsal Kərimli deyib.**

**V.Kərimli avtobusların həftəsonu məhdud qrafiklə işləməsi barədə təkliflərə də münasibət bildirib:**

**”Məsələn, şənbə və bazar günləri ictimai nəqliyyat 20:00-a qədər işləyərsə, o zaman 18:00-20:00 aralığında əhalinin sıxlığı yarana bilər.**

**Ya ictimai nəqliyyat həftəsonu işləməlidir, əhalidə rahatlıq olmalıdır, ya da işləməməlidir. Bizim yanaşma belədir”.**

*Rahmi Turan*

## Amerika Vətən xainlərinə nə edir?

Bax:səh-3

## Mina xəritələri niyə verilmir?

*Ruslar Qarabağdakı insidentə hiddətlənir*



**Qarabağda rusiyalı sülhməramlıların minaya düşməsi və iki nəfərin yaralanması barədə məlumat sosial şəbəkələrdə rusiyalı istifadəçilər tərəfindən hiddətlə qarşılanıb.**

Trend-in məlumatına görə, ”Facebook” sosial şəbəkəsində yazan istifadiçələr Qarabağda minalanmış ərazilərin xəritəsinin verilməsini tələb edib.

İstifadəçilərdən biri yazıb: ”Minaları kim yerləşdiribsə, onları önə buraxmaq lazımdır. Ondan sonra bizim uşaqlar getsin. Mina xəritələri mütləq verilməlidir!”

Digər istifadəçi isə yazıb ki, Ermənistan öz məsələsini özü həll etməlidir: ”Niyə bizim uşaqlar kimlərəsə görə ölməlidir? Mina xəritələri niyə verilmir?”

**Qeyd edək ki, bir neçə gün əvvəl rusiyalı sülhməramlıların olduğu yük maşınının minaya düşməsi barədə məlumatlar yayılmışdı. İki hərbçinin yaralandığı deyilirdi.**

## BİZİMKİLƏR BİR SÜRÜ ERMƏNİNİ GERİ QAYTARDI



*Bilirsiniz də, sülhməramlıların yengəliyi ilə ermənilər qədim Alban kilsəsi Dədəvəngi su yoluna döndəriblər. Bəlkə də heç əvvəllər Dədəvəngin yolunu tanımazdılar. İndi bizə acıq vermək üçün sürü-sürü tökülüb gəlirlər "ziyarətə".*

*Srağagün də yengələrinin müşayiəti ilə bir sürü tökülüb gəliblər. Amma bizim şanlı əsgərlərimiz geri qaytarıblar ki, maskasız gəlmisiniz. Onlar da "Astvaz"a and içiblər ki, bizim millət elə anadan maskalı doğulub.*

*Nə isə... İndi tumanlarını başlarına keçirib dünyaya car çəkirlər ki, Azərbaycan əsgərləri bizi geri qaytarıb.*

*Rüstəm Muradov bizə də yengəlik eləsəydi gedib Malıbəyli bulağında bir dəstəmaz alardıq.*

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 46 (5878) 29 aprel 2021-ci il | Qiyməti 30 qəpik

# Prezident: “Erməni təxribatçıları yerindəcə məhv ediləcək”



Bax:səh-2

## Ömer Çelik: "Bir daha iki dövlət və bir millət olduğumuzu hiss etdik"



**”Qardaş Azərbaycana və ölkədəki 48 partiyaya təşəkkürümüzü bildirik”.**

”HaberGlobal”ın məlumatına görə, bu barədə AK Parti sözcüsü Ömer Çelik ABŞ Prezidenti Co Baydenin erməni ”soyqırımı” ifadəsinə münasibət bildirərkən deyib. O, ”soyqırımı” ifadəsini əsla qəbul etmədiyini bəyan edib.

”Bu ifadədən istifadə edənləri şiddətli şəkildə qınayırıq. Bu məsuliyyətsiz, heç bir hüquqi təməli və tarixi əsası olmayan yanaşmadır”, - deyə sözçü əlavə edib.

Ömer Çelik Bakının sərgilədiyi münasibətə də münasibətini bildirib.

”Bu məsələdə bizim yanımızda oldular. Bir daha iki dövlət və bir millət olduğumuzu hiss etdik”, - deyə o qeyd edib.

## ERMƏNİSTAN OLMASA RUSİYA BATAR

**Dünyanın özündənrazı dövlətləri demək olar ki, Rusiyanı təkləyiblər, küncə sıxışdırıblar. İndi də tappaturup Amerikadan tutmuş Avropa ölkələrinə qədər diplomatlarını ”non-qrat” elan edib ölkədən çıxarırlar, özü də qom-qom.**

Deyirəm nə yaxşı ki, Rusiyanın Ermənistan kimi qüdrətli bir dostu var. Durub Rusiyanın arxasında, yəqin ki, qovulan diplomatların hamısını Ermənistan səfirliyi qəbul edəcək, bir-ikisini də sülhməramlı adıyla Xankəndinə göndərəcək.

## BİZ DÜNYADA TAYI-BƏRABƏRİ OLMAYAN ÖLKƏYİK EY...



**10 milyon və daha neçə min əhalisi olan Azərbaycanda səhiyyəni üç yerə bölüblər: Səhiyyə Nazirliyi, Tibbi Sosial Sığorta nə bilim nəyi və TƏBİB. Təklif edirik ki, üstündə Səhiyyə Nazirliyi ilə TƏBİB-in dava apardığı Təcili Tibbi Yardım (hələ böyrünə bir söz də qoşublar - Təcili və Təxirəsalınmaz) İdarəsi də ayrılsın və ayrıca nazirlik olsun.**

**Hərçənd ki, dövlət əhəmiyyətli böyük-böyük nazirlikləri və komitələri bir holdinqdə birləşdiriblər.**

***Polşada Sovet əsgərlərinə qoyulmuş 500 abidədən 400-ünü söküblər. Söküntü işləri davam edir, dünən 401-cini də sökdülər.***



***Bosna və Hersoqovinanın ilk prezidenti Aliya İzzetbegoviç: ”İstədiyiniz qədər dağlara xaç qoyun, onsuz göy üzünə hər baxanda hilalı görəcəksiniz!”***

## DÖVLƏT ALİMPAŞA MƏMMƏDOVU SAHİBSİZ BURAXMAZ



**Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov həbs olundu. Hələ ki, mətbuatda onun həbs olunması ilə bağlı videoları görmürük. Amma cənab Prezidentin sərəncamı ilə işdən götürülüb.**

Yəni, bu sərəncamdan sonra Alimpaşa Məmmədov daha Şəmkir Rayon İcra Hakimiyyətinin başçısının nə maaşını ala biləcək, nə də katibəsi ona kofe gətirə biləcək.

Amma dövlətimiz onu həm Vergilər Nazirliyindəki xidmətini, həm də icra hakimiyyəti başçısı kimi xidmətini nəzərə alaraq maaş almasa da, gündə üç dəfə onu pulsuz yeməklə təmin edəcək.

Kim pulsuz yemək istəyirsə, Alimpaşanın yolun getsin!

## Yol polisinin sürücünü zor tətbiq edərək saxlaması iddiası ilə bağlı açıqlama

*Yasamal rayonunda yol polisi ilə sürücü arasında yaranan mübahisə ilə bağlı sosial şəbəkələrdə yayılan məlumatlar ziddiyyətlidir, qərəzlidir.*

*Bakı şəhər BPİ Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis polkovniki Vaqif Əsədov Adalet.az-a bildirib ki, aprelin 25-də paytaxtın "şamaxinka" kimi tanınan ərazisində "Mersedes" markalı 90-RN-261 dövlət qeydiyyat nişanlı avtomobil davamlı olaraq yol hərəkəti qaydalarını kobud şəkildə pozduğuna görə yol polisi tərəfindən "Saxla" işarəsi verilib. Polisin qanunu tələblərinə məhəl qoymayan 51 yaşlı Miradəm Nağıyevin idarə etdiyi avtomobil əraziyə çağırılan əlavə naryad qrupu tərəfindən yaradılan süni tıxacla dayandırılıb. Avtomobili tərk edərək qaçmağa cəhd göstərən sürücü saxlanılaraq Yasamal RPİ 29-cu Polis şöbəsinə təhvil verilib.*

*Əlavə edim ki, sürücü qanunsuz əməlindən polisi yayındırmaq üçün bədən xəsarəti alması ilə bağlı təcili yardıma zəng vurub. Qeyd edilən iddiaların təfərrütlarının araşdırılması ilə bağlı ekspertiza təyin edilib. Hazırda polis şöbəsində təhqiqat araşdırmaları davam etdirilir.*

*İlqar Rəsul*

## Adam cani ilə əlləşir



*DİQQƏT!*

*Dostlar, məsləhət vermək olmasın. Amma məncə nə paylaşdığımızın fərqinə varsaq yaxşı olar. Paylaşım etməzdən əvvəl diqqət yetirməliyik (məsuliyyəti bir yana), bəlkə heç etik deyil tirajlamağa hazırlaşdığımız mətn, görüntü və s.*

*Xalq artisti Arif Quliyevin xəstəxanadan videogörüntüsünü paylaşırlar. Deyirsən niyə belə, deyir, mən çəkməmişəm, sosial şəbəkədən götürmüşəm.*

*Adam cani ilə əlləşir, əyni-başı da qaydasında deyil, bunlar bəs edir ki, tirajlamayasan də. Burada çətin anlaşılan nə var ki? Əgər bu və ya digər kriteriyalardan anlamırıqsa, onda başqa və daha primitiv üsüldan istifadə etmək olar. Bir adamın görüntüsünü paylamaşmazdan əvvəl düşünmək olar ki, mən öz yaxınlarımdan kiminsə belə görüntüsünü tirajlayardım, ya yox? Cavab "yox"dursa, demək paylaşmırıq.*

## Necat İşlerdən günün statusu



**Dinimiz..inancımız donuz əti yeməyə icazə vermir yeyə bilmərəm deyənlər sıra qul haqqı yeməyə gələndə ”qazanın” dibini sıyırırlar.**

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## TƏRBİYƏSİZLİK



**İki gündür sosial şəbəkələrdə Xalq artisti Arif Quliyevin xəstəxanada çəkilmiş videosunu paylaşıblar, sosial şəbəkələr partlayır.**

**Arif müəllim işgəncə içində. Bir tibb bacısı dəsmalla yelləyir və deyir:**

**- Arif müəllim, yenə yelləyim?**

**Ağıllı həkim də soruşur:**

**- Arif müəllim, özünü necə hiss edirsən?**

**Aktyor isə Əzrayılla əlləşir. Adama elə gəlir ki, tibb personalı Arif müəllimlə məzələnir. Korsunuz, görmürsünüz ki, bu işgəncə içindədi? Başqa bir tibb bacısı da bunu videoya çəkir və sosial şəbəkədə paylaşır.**

**Bax: səh.2**

## GÜNÜN LƏTİFƏSİ

Dəlixanada iki dəli eyni otaqda qalırlar. Səhəri gün dəlilərdən biri gözətçiyə deyir:

**- Mənim yanımda qalan dəli məni yatmağa qoymur.**

- Niyə?

**- Başına vedrə keçirib əlini divardakı deşiyə soxub deyir ki, mən lampayam.**



- Burda problem nədir ki?

**- Elə eləyəndə yata bilmirəm, gözümə işıq düşür axı...**

## Prezident: “Ermәni tәxribatçıları yerindәcә mәhv edilәcәk”



**Ancaq әfsuslar olsun ki, Ermәnistanda baş qaldıran revanşist qüvvәlәr yenә dә bizә qarşı ittihamlarla çıxış edәrәk, bizә qarşı әrazi iddiası irәli sürürlәr. Onlara, bax, buradan xәbәrdarlıq etmәk istәyirәm ki, bu çirkin әmәllәrdәn әl çәksinlәr, yoxsa onların axırı pis olacaq. Biz Vәtәn müharibәsi dövründә kimin kim olduğunu göstәrdik. Dәmir yumruq düşmәnin başını әzdi.**

Adalet.az xәbәr verir ki, bunu Prezident İlham Әliyev Dövlәt Sәrhәd Xidmәtinin hәrbi qulluqçuları ilә görüşü zamanı deyib. ”Bu yaxınlarda Azәrbaycan-Ermәnistan sәrhәdinin Zәngilan istiqamәtindә bizim sәrhәdçilәrimizә qarşı edilәn hәrbi tәxribat sonuncu belә cәhd olmalıdır. Biz tәmkinlik göstәrәrәk bu tәxribata cavab vermәdik. Amma bu, sonuncu xәbәrdarlıqdır.

Әgәr bir daha buna oxşar cәhd göstәrilәrsә, düşmәn yerindәcә mәhv edilәcәk. Biz öz sәrhәdimizi qoruyuruq vә bundan sonra da qoruyacağıq. Hәr bir ölkәnin sәrhәdi onun dövlәt rәmzlәrindәn biridir. Azәrbaycan öz sәrhәdlәrini, әrazi bütövlüyünü tam bәrpa edib. Bizim Silahlı Qüvvәlәrimiz rәşadәt, qәhrәmanlıq göstәrәrәk Vәtәn müharibәsindә Zәfәr çaldılar. Sәrhәdçilәrin ümumi zәfәrimizdә rolu çox böyükdür. Mәn bunu qiymәtlәndirirәm. Tәsadüfi deyil ki, bir çox hәrbçilәr dövlәtimizin yüksәk orden vә medalları ilә tәltif edilmişlәr”-deyә, dövlәt başçısı qeyd edib.

## İlham Әliyev: “Böyük qayıdış” bu gün başlayır

**Çox şadam ki, birinci layihәdә Türkiyә şirkәti iştirak edir. Bu, tәbiidir. Çünki qardaş ölkә olan Türkiyә bizim bütün bәrpa işlәrindә fәal iştirak edәcәk.**

Adalet.az xәbәr verir ki, bu fikri Prezident İlham Әliyev Zәngilan rayonunun Ağalı kәndindә birinci ”Ağıllı kәnd” pilot layihәsinin icrasında iştirak edәcәk Türkiyә şirkәtinin әmәkdaşı ilә videoformatda söhbәt edәrkәn söylәyib. Artıq bir neçә Türkiyә şirkәtinin bәrpa işlәrindә, infrastruktur layihәlәrindә iştirak etdiyini bildirәn dövlәtimizin başçısı deyib: ”Şadam ki, biz burada da - yaşıl enerji sahәsindә dә Türkiyә şirkәtinin fәaliyyәtini görürük. Әslindә bu, azad edilmiş torpaqlarda inşa edilәn birinci kәnddir. Әlbәttә ki, bu kәndin çox böyük önәmi var. Çünki ”Böyük qayıdış” bu gün başlayır. Әmin olduğumu bildirmәk istәyirәm ki, siz gәlәcәk layihәlәrdә dә iştirak edәcәksiniz”.

Qeyd edәk ki, ermәnilәrin işğalçılıq siyasәti nәticәsindә dağıdılmış kәndlәrimizin әn müasir texnologiyalara әsaslanan quruculuq konsepsiyası әsasında bәrpasına başlanılıb. Birinci ”Ağıllı kәnd” pilot layihәsi Zәngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kәndlәrini әhatә edir. Layihәnin icrası, әsasәn, 5 komponent üzrә aparılacaq. Onlar yaşayış, istehsal, sosial xidmәtlәr, ”ağıllı kәnd tәsәrrüfatı” vә alternativ enerji sahәlәridir. Әrazidә ilk olaraq tam izolyasiya olunmuş vә innovativ tikinti materiallarından istifadә olunmaqla 200 fәrdi evin tikintisi nәzәrdә tutulur.

## “Azәrbaycan-İran sәrhәdi dostluq sәrhәdidir”

**Vәtәn müharibәsi dövründә Azәrbaycan-İran sәrhәdi tam bәrpa edilib, işğal altında olmuş 132 kilometr sәrhәd bәrpa edilib. Müharibәdәn dәrhal sonra sәrhәd boyunca bütün lazımi istehkam, mühafizә işlәri görülmәyә başlayıb. Bu hәrbi hissәnin fәaliyyәtә başlaması bunun bariz nümunәsidir. Bütün sәrhәd boyunca - hәm Azәrbaycan-İran, hәm Azәrbaycan-Ermәnistan sәrhәdlәri boyunca lazımi işlәr aparılır.**

Adalet.az xәbәr verir ki, bu barәdә Prezident İlham Әliyev Cәbrayıl rayonuna sәfәri zamanı Azәrbaycan-İran sәrhәdindә Dövlәt Sәrhәd Xidmәtinin yeni hәrbi hissәsinin açılışından sonra sәrhәdçilәrlә görüşündә bildirib. ”Azәrbaycan-İran sәrhәdi dostluq sәrhәdidir. Bu sәrhәdin qorunması Azәrbaycan-İran әlaqәlәrinin inkişafı üçün dә çox böyük önәm daşıyır. Bizim İran İslam Respublikası ilә digәr istiqamәtlәrdә sәrhәdimiz var vә bu, sözün әsl mәnasında, dostluq, әmәkdaşlıq sәrhәdidir. Hәr iki ölkәnin sәrhәddәn keçәn vәtәndaşları bundan faydalanırlar. Eyni zamanda, ildәn-ilә artan yüklәrin hәcmi Azәrbaycan-İran әlaqәlәrinin inkişafından xәbәr verir”, - deyә dövlәtimizin başçısı diqqәtә çatdırıb. Xudafәrin körpüsünü Azәrbaycan-İran dostluğunun rәmzi adlandıran Prezident bu әrazinin düşmәndәn azad edilmәsindә sәrhәdçilәrin xüsusi rol oynadığını bildirib. Qeyd olunub ki, mәhz bu istiqamәtdәn başlamış azadlıq mübarizәmiz 44 gündәn sonra Ordumuzun qәlәbәsi ilә nәticәlәnib. Bu әrazidә şiddәtli döyüşlәr getdiyini, hәr gün irәlilәdiyimizi vurğulayan Prezident deyib: ”44 günlük müharibә dövründә bir gün belә geriyә addım atmamışıq. 44 gün әrzindә hәr bir gün Zәfәr günü idi. 44 gün әrzindә Ermәnistanın bütün cәhdlәrinә baxmayaraq, bir dәnә dә uğurlu әmәliyyat keçirә bilmәmişlәr. Bax, bu istiqamәtdә onlar әks-hücum әmәliyyatı planlaşdırmışdılar vә bunu hәyata keçirmәyә başlamışdılar. Amma bu, onların sonunun başlanğıcı olmuşdur. Çünki hәmin әks-hücum әmәliyyatı Azәrbaycan Silahlı Qüvvәlәri tәrәfindәn tamamilә darmadağın edilmişdir, düşmәn böyük sayda itki vermişdir vә düşmәnin onlarla texnikası mәhv edilmişdir. Biz mәhz bu istiqamәtdәn - Füzuli-Cәbrayıl istiqamәtindәn bir çox müdafiә xәtlәrini keçәrәk azadlığa yol açmışdıq”.

# İlham Әliyev: "Azәrbaycan pandemiyaya qarşı sәfәrbәrdir"

## “Biz tarixi әdalәti bәrpa etdik”

**2021-ci il 26 aprel tarixindә BMT-nin Asiya vә Sakit okean üçün İqtisadi vә Sosial Komissiyasının onlayn formatda 77-ci sessiyası keçirilib. Sessiyada çıxış edәn Azәrbaycan Respublikasının Prezidenti İlham Әliyev Azәrbaycanda pandemiyaya qarşı qlobal fәaliyyәtin sәfәrbәr edildiyini vә sәylәrinin önündә getdiyini bildirib.**

COVID-19 pandemiyası ilә mübarizәdә dövlәtin bütün potensialının sәfәrbәr olduğunu qeyd edәn Prezident İlham Әliyev, COVID-19 pandemiyası dünya ölkәlәrini yeni çağırışlarla üz-üzә qoyduğunu bildirib. ***”Azәrbaycan hökumәti ilk günlәrdәn pandemiya ilә mübarizә istiqamәtindә zәruri addımlar atmışdır. Koronavirusun iqtisadiyyata tәsirinin azaldılması, özәl sektorun dәstәklәnmәsi, makroiqtisadi vә maliyyә dayanıqlığının tәmin olunması mәqsәdilә geniş sosial-iqtisadi paket tәqdim edilmişdir. Әhalinin vaksinasiyası davamlı şәkildә tәşkil olunur. Azәrbaycanda vaksinasiya yanvar ayından etibarәn başlanıb. Bu günәdәk 1,4 milyon vaksin istifadә olunmuşdur ki, bu da әhalinin 14 faizini tәşkil edir”.***

Azәrbaycanın Qoşulmama Hәrәkatının sәdri qismindә 2020-ci ilin may ayında Qoşulmama Hәrәkatının koronavirusla mübarizәyә hәsr edilmiş Zirvә toplantısının tәşәbbüskarı olduğunu vә onun uğurla hәyata keçirildiyini vurğulayan Preziden, ölkәmizin tәşәbbüsülә ötәn ilin dekabr ayında BMT Baş Assambleyasının dövlәt vә hökumәt başçıları sәviyyәsindә xüsusi sessiyasının keçirildiyini bildirib. Vaksinlәrin ölkәlәr arasında әdalәtsiz bölgüsünü bir daha sessiya iştirakçılarının nәzәrinә çatdıraraq, bunun qlobal tәhdid yaradan tendensiya olduğunu bildirib: ***”Vaksin millәtçiliyi”, vaksinlәrin inkişaf etmiş vә inkişaf etmәkdә olan ölkәlәr arasında әdalәtsiz bölgüsü bizi dәrindәn narahat edir. Dünyada mövcud vaksinlәrin 53 faizi 30-dan çox zәngin dövlәt tәrәfindәn sifariş edilib. Pandemiya ilә qlobal mübarizәdә Azәrbaycan fәal mövqe nümayiş etdirir. Yalnız milli sәviyyәdә hәyata keçirilәn sәylәr dünyada pandemiyanın aradan qaldırılması üçün kifayәt etmir.Azәrbaycan hәm Qoşulmama Hәrәkatının sәdri kimi, hәm dә milli sәviyyәdә dünyada vaksinlәrin әdalәtli bölgüsü vә vaksinlәrin inkişaf etmәkdә olan vә әn az inkişaf etmiş ölkәlәr üçün әlçatanlığının tәmin edilmәsi istiqamәtindә mübarizәsini davam etdirәcәkdir.Azәrbaycan koronavirusla bağlı әksәriyyәtinin әn az inkişaf etmiş olduğu 30-dan artıq ölkәyә humanitar vә maliyyә yardımı göstәrmişdir”.***

Çıxışında BMT-nin 4 Qәtnamәsinә mәhәl qoymayan, bütün beynәlxalq qanunları saya salmayaraq Azәrbaycanın 20 faizәdәk torpağını 30 ilә yaxın bir müddәtdә işğal altında saxlayan Ermәnistanın işğalçı silahlı birlәşmәlәrinin Müzәffәr Ordumuz tәrәfindәn mәhv edildiyini vә әrazi bütövlüyümüzün bәrpa edilmәsi mәsәlәsinә toxunan Prezident İlham Әliyev, Azәrbaycan xalqının tarixi әdalәti özünün bәrpa etdiyini bildirdi:



*”Sentyabrın 27-dә Ermәnistan Silahlı Qüvvәlәrimizi vә dinc sakinlәrimizi ağır artilleriya atәşinә tutaraq Azәrbaycana qarşı irimiqyaslı hәrbi tәcavüzә başlamışdır. Azәrbaycan öz vәtәndaşlarını qorumaq üçün әks-hücum әmәliyyatına başlamaq mәcburiyyәtindә qaldı. Azәrbaycan özü BMT Tәhlükәsizlik Şurasının qәtnamәlәrini vә beynәlxalq hüququn norma vә prinsiplәrini icra etmiş, tarixi әdalәti vә әrazi bütövlüyünü bәrpa etmişdir.*

*Bәzi ölkәlәrә qarşı tәtbiq olunan ”ikili standartlar” siyasәti dünyanın dayanaqlı inkişafı üçün tәhdidlәr yaradır.*

*Azәrbaycan ikili standartlara yol verilmәmәsi üçün tәrәfdaş ölkәlәri BMT Tәhlükәsizlik Şurasının qәtnamәlәrinin icra mexanizmlәrinin tәklif edilmәsi vә hazırlanması sәylәrinә qoşulmağa dәvәt edir. Tәhlükәsizlik Şurasının bәzi qәtnamәlәrinin bir neçә gün әrzindә icra edildiyinindәfәlәrlә şahidi olmuşuq. Azәrbaycana gәldikdә isә hәmin qәtnamәlәr 27 il әrzindә yerinә yetirilmәmiş qaldı. Ötәn il Azәrbaycan әrazisinin 20 faizinin 30 ilә yaxın Ermәnistan tәrәfindәn işğalına son qoymuşdur. İşğal nәticәsindә bir milyondan çox azәrbaycanlı doğma torpaqlarından didәrgin salınmışdır. Ermәnistan 1992-ci ildә Xocalı soyqırımını törәdәrәk, qadınlar vә uşaqlar da daxil olmaqla 613 nәfәr günahsız dinc sakini qәtlә yetirmişdir. Xocalı soyqırımı 13 ölkә tәrәfindәn tanınmışdır.44 günlük Vәtәn müharibәsi zamanı Ermәnistan silahlı qüvvәlәri tamamilә darmadağın olunmuşdur. Ermәnistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa mәcbur edilmişdir. Belәliklә, Ermәnistan-Azәrbaycan münaqişәsi sona çatmışdır. Münaqişә tarixdә qalmışdır”.*

İşğaldan azad olunmuş әrazilәrә sәfәr edәn xarici ölkәlәrin ölkәmizdә tәmsil olunan diplomatları, xarici qonaqlar vә din xadimlәri, xarici ölkәlәrin jurnalistlәri, öz gözlәri ilә 30 ilә yaxın işğal altında saxladıqları torpaqlarda ermәnilәrin törәtdiklәri vandalizmin şahidi oldublar. *”İşğal dövründә Azәrbaycanın bütün şәhәr vә kәndlәri yerlә-yeksan edilmişdir. Xarici mütәxәssislәr Ağdam şәhәrini ”Qafqazın Hirosiması” adlandırırlar. Ermәnistan qәsdәn mәdәni vә dini abidәlәrimzi vandalizmә mәruz qoymuş, tәhqir vә qarәt etmişdir. 60-dan artıq mәscid Ermәnistan tәrәfindәn dağıdılmışdır. Mәscidlәr inәk vә donuzların saxlanılması yerlәrinә çevrilmişdir”* - deyә Prezident İlham Әliyev çıxışında bildirib.

Azәrbaycanın inkişafı bütün regionun inkişafı üçün әsaslı zәmin yaradacağını vurğulayan Prezident, milli prioritetlәrin ölkәnin dayanıqlı inkişafını tәmin edәcәyini qeyd edib. **”Növbәti on il üçün sosial-iqtisadi inkişafla bağlı müәyyәn olunmuş milli prioritetlәrә rәqabәtli insan kapitalı vә müasir innovasiyalar mәkanı, işğaldan azad olunmuş әrazilәrә böyük qayıdış, tәmiz әtraf mühit vә ”yaşıl artım” da daxildir. Azәrbaycan regionda dayanıqlı sülh vә tәhlükәsizliyi tәmin etmәk arzusundadır. Azәrbaycan Şәrq-Qәrb, Şimal-Cәnub, Şimal-Qәrb nәqliyyat dәhlizlәri kimi regional bağlantı layihәlәrinin icrasına mühüm töhfә vermişdir. Hazırda biz Azәrbaycan әrazisindәn Asiyanı Avropa ilә birlәşdirәn Şәrq-Qәrb dәhlizinin tәrkib hissәsi olacaq ”Zәngәzur nәqliyyat dәhlizi” üzәrindә çalışırıq. Bu dәhliz Azәrbaycana Avrasiyanın nәqliyyat vә logistika mәrkәzi kimi mövqeyini güclәndirmәyә imkan verәcәk. Hazırda qarşımızda işğaldan azad olunmuş әrazilәrdә tamamilә dağıdılmış şәhәr vә kәndlәrin, bütün mәdәni vә dini abidәlәrin bәrpası kimi nәhәng vәzifә dayanır. Yenidәnqurma prosesi çәrçivәsindә ”ağıllı şәhәr”, ”ağıllı kәnd” vә ”yaşıl enerji” konsepsiyalarından istifadә olunacaq”-** deyә Prezident sessiyadakı çıxışına yekun vurub.

**Hazırladı:**
**Rüstәm Hacıyev**

# "Jurnalist"in böhtan şousu davam edir

**Әvvәl dә yazdığımız kimi bәzi "jurnalistlәr" onlara tәmin olunan azadlığı, azad fikrin ifadәsini ağıllarına vә ağızlarına nә gәldi söylәmәklә qarışıq salır, nәticәdә hәmin sәrbәstlikdәn sui-istifadә etmәklә qabartmaq istәdiklәri mövzudan başqa bütün mәsәlәlәrә toxunur, yalan, qәrәzli mәlumatlar yayır, dövlәtin sәlahiyyәtli nümayәndәlәri haqqında әsası olmayan fikirlәr sәslәndirir, tәhqiramiz ifadәlәr işlәtmәkdәn belә çәkinmirlәr. Bu materialları hazırlayan "jurnalistlәrin" mәqsәdi vәtәndaşın problemini işıqlandırmaqdan çox, sensasiya yaratmaq, diqqәt çәkmәk, qısa zamanda qalmaqalla da olsa mәşhurlaşmaqdır.**

Bunlardan biri haqqında әvvәl dә bәhs etdiyimiz, gündә bir "youtube" kanalı yaxud "facebook" sәhifәsi açıb canlı yayımlar edәrәk adını jurnalist qoymuş, ağzı köpüklәnә-köpüklәnә tәhqiramiz ifadәlәr işlәdәn Salmanzadә Xәyyam Surxay oğludur. Bağırmaqdan başqa bir danışıq tәrzi olmayan bu "jurnalistin" kimliyi vә mәnliyi barәdә bir azdan söhbәt açacağıq.

İndi isә Xәyyam Salmanzadәnin rayonumuzun Sarvanlar kәndindә yaşayan Vәtәn müharibәsindә yaralanmış Süleymanov Şiraslan Tapdıq oğlunun yaşadığı evdәn "Kanal13.TV" adlı facebook sәhifәsindәki canlı yayımı vә hәmin yaralının özü barәdә danışaq.

Yuxarı Qiyamәddinli kәnd sakini olan Süleymanov Şiraslan Tapdıq oğlu 2020-ci ilin sentyabrın 21-dә Sәfәrbәrlik vә Hәrbi Xidmәtә Çağırış üzrә Dövlәt Xidmәti tәrәfindәn hәrbi toplanışa çağırılıb, daha sonra 27 sentyabrdan başlanan Vәtәn müharibәsinin iştirakçısı olub. Oktyabrın 3-dә Füzuli rayon istiqamәtindә gedәn döyüşlәrdә yaralanıb vә bir müddәt müalicә alıb.

Ş.Süleymanov müharibәdә olduğu vaxt vә sonrakı dövrdә onun evinә 3 dәfә rayon İcra Hakimiyyәti tәrәfindәn öz imkanları daxilindә digәr müharibә iştirakçıları vә yaralılara olunduğu kimi әrzaq yardımları göndәrilib. Bundan başqa, ötәn ay rayon İcra Hakimiyyәti tәrәfindәn Novruz bayramı ilә bağlı bütün yaralılara göndәrilәn әrzaq payından da hәmin sakinә dә çatdırılıb. Hәmçinin, dövlәt tәrәfindәn 550 azn siğorta haqqı alıb vә "YAŞAT" Fondu tәrәfindәn onun hesabına 2500 azn vәsait köçürülüb.

Rayon İcra Hakimiyyәtindәn redaksiyamıza verilәn mәlumata görә Ş.Süleymanov 19 aprel 2021-ci il tarixdә rayon İcra Hakimiyyәtinә gәlib, icra başçısı xidmәti işlә bağlı inzibati binada olmadığı üçün rayon İcra Hakimiyyәti başçısı aparatının Vәtәn müharibәsi iştirakçıları vә şәhid ailәlәri ilә işin tәşkili şöbәsinin müdiri Şöhrәt Orucov tәrәfindәn qәbul edilib vә dinlәnilib. 22 aprel 2021-ci il tarixdә isә poçt vasitәsilә rayon İcra Hakimiyyәtinә yazılı müraciәti daxil olub. Qәbul zamanı, elәcә dә yazılı müraciәtindә yalnız müalicәsi ilә bağlı kömәklik göstәrilmәsini xahiş edib, hәyәtyani torpaq sahәsi ilә bağlı mәsәlә qaldırmayıb. Şöbә müdiri isә qaziyә rayon Mәrkәzi Xәstәxanasında müayinә vә müalicәsinә lazım olan hәr cür kömәkliyin göstәrilә bilәcәyini qeyd edәrәk, vәtәndaşın öz yanında "YAŞAT" Fondunun nümayәndәsi ilә danışaraq ixtisaslaşmış xәstәxanalarda onun müalicәsinә kömәklik göstәrilmәsi ilә bağlı müraciәtinin qeydә alınması mәsәlәsini qaldırıb.

Rayon İcra Hakimiyyәtindәn bildirilib ki, Ağcabәdi rayonunda Vәtәn müharibәsindә yaralanan 301 nәfәr qazinin vә hәlak olan 43 nәfәr şәhidin ailәsi daim rayon rәhbәrliyinin diqqәt mәrkәzindәdir.

Müharibә dövründә rayondakı 101 nәfәr qazi Ağcabәdi Rayon İcra Hakimiyyәti başçısı cәnab Rafil Hüseynov tәrәfindәn evlәrindә ziyarәt olunub, hәmin günlәrdә evdә olmayan bütün yaralıların ailәlәrinә isә yardımlar göndәrilib.

Rayon İcra Hakimiyyәti bundan sonra da hәmin şәxslәrin vә ailәlәrin, elәcә dә Vәtәn torpaqlarının azadlığı uğrunda yaralanan Ş.Süleymanovun müraciәtlәrinin rayon İcra Hakimiyyәtinin sәlahiyyәtlәri vә imkanları daxilindә daim diqqәt mәrkәzindә saxlanılacağını bildirib.

Videoda sәslәndirilәn Yuxarı Qiyamәddinli bәlәdiyyәsi tәrәfindәn Ş.Süleymanova hәyәtyani torpaq sahәsinin verilmәmәsi ilә bağlı isә bәlәdiyyә sәdri vәtәndaşın heç bir yazılı müraciәtinin olmadığını, yalnız bir dәfә telefonla әlaqә saxlayaraq hәyәtyani torpaq sahәsi istәdiyini, qarşılığında isә bunun üçün yazılı müraciәt etmәli olduğu vә qanunvericiliyin tәlәblәrinin ona izah edildiyini bildirib. Bәlәdiyyә sәdri vәtәndaşa qanunamüvafiq qaydada lazımi kömәklik göstәrilәcәyini dә söylәyib.

Biz dә öz növbәmizdә qazimizә tezliklә Allahdan şәfa dilәyirik.

İndi isә Vәtәn müharibәsi iştirakçısını dövlәt qurumlarına qarşı dolduran vә düzgün yönlәndirmәyәn, dövlәt qurumlarının sәlahiyyәtlәrindәn xәbәrsiz, hәr hansı mәlumatı dövlәt orqanları ilә dәqiqlәşmә aparmadan fakt kimi ortaya qoymağa çalışan, özünü fәdakar kimi göstәrәn "jurnalist" barәdә qısa bir informasiyamız var…

Xәyyam adlı bu şәxs neçә illәrdir ki, әrazidә olan şәxslәri onların imkansızlığından, bәzilәrinin çәtinliyindәn istifadә edәrәk dövlәtin әleyhinә qaldırmaqla vә yerli strukturların fәaliyyәtinә kölgә salmaqla mәşğuldur.

Amma bu şәxs özünü fәdakar göstәrmәyinә baxmayaraq ailәsini atmış, mәhkәmә qәrarı ilә ailәsinә ödәmәli olduğu alimenti belә ödәmәkdәn boyun qaçırmış biridir. Öz ailәsinin qayğısına qalmayan bu şәxs camaatın qayğısına necә qala bilәr?! Mәnәviyyatı bu qәdәr aşılanmış şәxs öz uşağına, ailәsinә baxmır, amma başqasının guya dәrdinә qalır. Bunun adı yalançı tәәssübkeşlikdir, başqa bir şey deyil. Belә "jurnalistlәr" ancaq dövlәt әleyhinә iş aparmaqla mәşğuldurlar.

Bundan әvvәl dә Xәyyam adlı bu "jurnalist" Ağcabәdi rayonun Cәfәrbәyli kәnd sakini, qazi olmayan, müharibә zamanı yaxınlarını Ağdam rayonundan çıxararkәn yaralanmış mülki şәxsi müharibә qazisi kimi tәqdim etmәyә çalışaraq dövlәt orqanlarının üzәrinә şәr vә böhtan atmış, yalan mәlumatlar yayaraq ictimaiyyәti çaşdırmağa cәhd etmişdi. Yalnız bu cür şәr vә böhtanla mәşğul olan şәxsin işi mәhkәmә olduğu üçün indi dә bu cür videolarla mәhkәmәyә vә yerli sturkturlara tәsir göstәrmәyә çalışır.

**Belәliklә, "YALANÇININ…" başlıqlı rubrikamızın yenidәn "qonağı" olan Xәyyam Salmanzadә adlı bu şәxs barәdә başqa kәlmәyә ehtiyac yoxdur…**

*Aqil ABBAS*

# TӘRBİYӘSİZLİK

**İki gündür sosial şәbәkәlәrdә Xalq artisti Arif Quliyevin xәstәxanada çәkilmiş videosunu paylaşıblar, sosial şәbәkәlәr partlayır.**

**Arif müәllim işgәncә içindә. Bir tibb bacısı dәsmalla yellәyir vә deyir:**

**- Arif müәllim, yenә yellәyim?**

**Ağıllı hәkim dә soruşur:**

**- Arif müәllim, özünü necә hiss edirsәn?**

**Aktyor isә Әzrayılla әllәşir. Adama elә gәlir ki, tibb personalı Arif müәllimlә mәzәlәnir. Korsunuz, görmürsünüz ki, bu işgәncә içindәdi? Başqa bir tibb bacısı da bunu videoya çәkir vә sosial şәbәkәdә paylaşır.**



**Özü dә hadisә harda baş verir? Cәmi üç-dörd gün bundan әvvәl baş hәkimi hәbs olunmuş klinikada. Sonra da belә bir mәnasız açıqlama verirlәr ki, videonu çәkәn cәzalanıb. Bәs, kadrda sәslәri eşidilәn hәkim vә tibb bacısı haqqında nә tәdbir görülüb? Onlara mükafat veriblәr?**

**Nә isә...**

**Vә sosial şәbәkә iştirakçıları da, müәyyәn saytlar da reytinq xatirinә vurhavur bunu paylaşırlar. Vә fikirlәşmirlәr ki, söyüşü söyәnlә çatdıran yarı-yarıyadı.**

**Bu, birinci hal deyil. Başqa klinikalarda da COVİD-19-dan yatan vә Әzrayılla әllәşәn xәstәlәrlә bağlı da (xüsusilә mәşhur insanlarla bağlı) belә videolar vә şәkillәr paylaşılır. Mәsәlәn, Bәhram Bağırzadә ilә bağlı da şәkillәr saytları vә sosial şәbәkәlәri bәzәyirdi. Çox şükür ki, Bәhram müәllim qurtula bildi.**

**Hәlә dostumuz Hacı Nuran klinikada yatanda yanına bir eşşәk dә aparmışdılar. Videosunu, şәkillәrini çәkib vurhavur paylaşırdılar. Deyәsәn, sonra eşşәk dә әsnәyib palatanı batırmışdı.**

**Elәcә dә Xalq artisti Rәmişin dә ağır vәziyyәtdә, can çәkdiyi bir zamanda şәkillәrini, hәtta videosunu belә paylaşırdılar.**

**Belә misalları çox çәkmәk olar. Buna niyә icazә verirlәr? Karona ilә mübarizә aparan klinikalara belә şәxslәr necә buraxılırlar?! Hәkimlәr öz hәyatlarını riskә qoyub bütün güclәri ilә COVİD-19-a tutulmuş xәstәlәri Әzrayılın әlindәn almağa çalışırlar vә әksәriyyәtindә dә hәkimlәr qalib gәlir. Nә qәdәr hәkim dә bu xәstәliklә mübarizәdә canından olub. Amma yuxarıda qeyd olunan hәkim kimilәri bütün tibb personalının üzәrinә kölgә salır.**

**Sosial şәbәkәlәrdә bir bәla da var. Qәribә adamlar var ey, әzizlәri ölüb, Allah rәhmәt elәsin, meyiti qucaqlayıb öpüb şәkil çәkdirirlәr. Xatirә üçün çәkdir, ailәn üçün çәkdir, nәslin üçün çәkdir, buna kim nә deyә bilәr? Amma bunu әzizini urvatsız edәrәk sosial şәbәkәdә niyә adamların gözünә soxursan?**

**Arif Quliyevlә bağlı videonu çox ağrı-acı ilә izlәdim, o işgәncәni mәn dә yaşadım. Yәqin ki, kim videonu izlәyibsә, o da mәnim keçirtdiyim hisslәri yaşayıb.**

**Onsuz da pandemiya hamını psixoz vәziyyәtә salıb. Bir tәrәfdәn dә belә videolar vә belә şәkillәr insanlara çox ağır tәsir göstәrir. Gülmәşәkәrlәr deyә bilәrlәr ki, kimin xoşu gәlmir, baxmasın. Elә deyil axı. Sәn nәsә axtarırsan, bu şәkillәr, bu videolar gözünә girir.**

**Әziz oxucular, bu yazının davamı olaraq bir mәsәlәyә dә toxunacam. Amma yaxın nömrәlәrimizdә. Mәn bir dәfә 93-cü ildә azıb gedib çıxmışdım ABŞ-a. Çox gözәl yol qeydlәrim vardı. Fikirlәşirdim ki, bir maraqlı әsәr yazacam, amma yaza bilmәdim. Niyә?**

**Mirmehdi adlı bir әziz dostum xәrçәngdәn Hyustonda yatırdı. Çox müsibәtlә axtarıb onu tapdım, hәtta bu mәnә bir az baha-başa gәldi, pul mәnasında yox. Vә elә ümumiyyәtlә, baha-başa gәldi, mәnәvi cәhәtcә. Qayıdandan sonra bircә yazı yaza bildim: ”Mirmehdi ilә Amerikada bir gün”. Hәmin yazını da tapıb çap edәcәm. Vә niyә yol qeydlәrimi yazmadım, bunu da açıqlayacam.**

**Yeri gәlmişkәn, çox çәtinliklә Mirmehdini mәnә tapan Az.TV-nin әmәkdaşı Sakit müәllimә (gәrәk ki, familiyası Mәmmәdov olsun) bir tәşәkkür borcum var.**

**Tanrı qoysa, sağ qalsaq, çox yaxın günlәrdә oxuyacaqsınız vә bu ”Tәrbiyәsizlik”lә bağlı yazıya da aydınlıq gәtirәcәm.**

**Vә onda billәcәksiniz ki, mәn niyә Rәmiş xәstә olarkәn yanına getmәdim vә yalnız telefonla danışdım.**

*İlqar Әlfioğlu*

## Danlana-danlana Cәnubi Azәrbaycan deyirdik



***Şәrqi Zәngәzur ifadәsinә tam vәtәndaşlıq vermәk lazımdır. Daim işlәdin, çünki, şәrqi olanın, qәrbi dә var vә demәk, bütöv torpaq bölünüb. Bu, qonşuya torpaq iddiası deyil, faktın konstatasiyasıdır. İşlәtsәk, tәhtәlşüura yerlәşәcәk.***

***Bir hadisә yadıma düşdu. Universitetdәn sonra, tәyinatla radiomuzun Xarici verilişlәr şöbәsindә işlәmәyә başladım, Aqşin Babayevin yanında. Cәnubi Azәrbaycan redaksiyasında. O vaxtlar Moskva Cәnubi Azәrbaycan ifadәsini işlәtmәyi yasaq etmisdi ki, İrana torpaq iddiasıdır. Biz isә, danlana-danlana Cәnubi Azәrbaycan deyirdik. O ifadә belәcә dilimizә düşdü vә vәtәndaşlıq qazandı...***

***O zamanlar bir veriliş açmışdım, adı "Çeşmә" idi. Bütün Cәnublu şairlәr verilişә mәktublar yazır, şeirlәrini göndәrirdilәr. Piruz Dilәnçi, Әlirza Oxtay, adlarını unutduğum digәrlәrini İran "Çeşmә" verilişindәn tanıdı...***

***Odur ki, siz dә, Şәrqi Zәngәzur ifadәsini işlәdin, bir dә görәcәksiniz ki, günlәrin birindә bütun dünya işlәtdi...***



*Rahmi Turan*

# Amerika Vətən xainlərinə nə edir?

***ABŞ heç bir ölkənin dostu deyil. Eqoist, kinli və öz mənfəətlərini düşünən dövlətdir.***

***Bu baxımdan Türkiyəyə dinlərini qıcamasına təəccüblənməmək gərəkdir!***

***Ona etiraz edə bilməyəcək qədər iqtisadi problemlər içində olduğumuzu gördü və "1915 hadisələri soyqırımdır" deyərək uzun illərdir deyə bilmədiyini ağzından çıxartdı.***

***ABŞ-ın nə qədər mənfəətpərəst olduğunu, öz çıxarları üçün dünyanı qana bulamaqdan çəkinmədiyini hamı bilir.***

***Ölkələrdən, insanlardan istifadı edir, işi bitən kimi fırladıb qırağa tullayır.***

***II Dünya Müharibəsindən bu yana 76 il içində dünyadakı bütün müharibələrin, işğalların və çevrilişlərin arxasında ABŞ durur.***

***ABŞ Vyetnamda, İraqda, Əfqanıstan və Afrikada ölən milyonlarla məsum insanın qatilidir. Ancaq heç kimin gücü bu cinayətlərin hesabını soruşmağa çatmır.***

***

***Amerikanın çirkin ikili standartını şəxsən Henri Kissincer açıqladı.***

***Bugün 98 yaşı olan Kissincer amerikalı diplomat və siyasət adamıdır.***

***1973-1977 illər arası ABŞ-ın Xarici İşlər Naziri vəzifəsində çalışıb.***

***70 ildir amerikan imperializminin fikir atalığını edir.***

***Nyu Yorkda Rokfeller Vəqfindəki bir toplantıda Kissincerdən Amerikanın gerçək gücünü soruşurlar. Gülür və deyir ki:***

***- Amerika dünyanın ən güclü ölkəsidir. Bütün dünyaya istiqamət verdiyimiz şübhəsizdir. Bəs ABŞ olaraq niyə bu qədər güclüyük, bilirsinizmi? Biz içimizdəki Vətən xainlərini öldürürük!***

***Bu mövzuda heç mərhəmətli deyilik. Bir də digər ölkələrdəki Vətən xainləri var. Tam əksinə, o xainləri bəsləyirik. Hamısını bir qəhrəmana, vacib adama çeviririk və öz mənfəətlərimizə uyğun işlədirik. Bax, Amerika olaraq gücümüzün əsl sirri bundadır! Silah gücümüz də çox vacibdir, amma əsas gücümüzdən sonra.***

***

***Henri Kissincerin etirafında olduğu kimi Amerika öz içindəki xainlərə əsla aman vermir, qanuni ya da qeyri-qanuni əməliyyatlarla onları öldürür. Başqa ölkələrdəki Vətən xainlərini isə bəsləyərək Amerikanın çıxarları üçün istifadə edir!***

***Dilimizə uyğunlaşdıran: Eminquey***

# Qələbənin işığında yollar açıqdır

**Hər bir insan ömrünün pillələri var ki, vətənpərvərlikdən güc-qüvvət, ilham, ruh alaraq, öz istəyinə, məqsədinə doğru can atır. Daxili zənginliyə nail olmadan əsl vətənpərvər olmaq çətindir. O adamlar el-obanın sevimlisi olurlar ki, daxili zənginliyə nail olmaqla ailəsini, yurdunu, Vətənini sevir. Xalq üçün, Vətən üçün yaşanan ömrə, aylara, illərə kamilliyin, ucalığın yol göstərəni də deyirlər. Yaşanın ömrün dəyərinə, mənasına ömrün azlığına, çoxluğuna görə yox, mənalı olmasına görə qiymət verilir. Vətən üçün yaşanan ömür payı ən mənalı, yaddaqalandır, insanı zirvəyə qaldırır, xalqın istədiyi bəndəyə çevirir.**

Azərbaycan Ordusunun tarixi qələbə qazanmasında əsgər zəhməti olan igidlərdən biri də Vətənə sonsuz sevgi ilə xidmət edən, qeyrətli, cəsarətli, qorxmaz və yorulmaz Mirsalam Qurban oğlu Quluzadədir. Qələbənin işığında yol gedən Qurban Quluzadə cənub mirvarisi sayılan Lənkəran şəhərində təvəllüd tapmışdır. 2020-ci ilin 26 oktyabrında onun ad günü idi.

Ertəsi gün Milli Ordu sıralarına getdi. Əsgər həyatına öyrəşməyi çox çəkmədi. O, fəhmlə yəqin etdi ki, əsgərlik kişilik, mərdlik, vətənpərvərlik məktəbidir. Bu məktəbdən keçmədən bərk-boşun nə olduğunu bilmək olmaz. Sentyabrın sonuna çox qalmamışdı.

### Cəbhə bölgəsində

***bir canlanma, narahatlıq, savaşa hazırlıq hiss olunurdu. Aprel döyüşlərindən sonra hərbi hissələrdə də hazırlıq görülürdü. Bundan əvvəl isə Azərbaycan Prezidenti dünyaya bəyan etmişdi ki, Ermənistan bizə qarşı müharibəyə hazırlaşır. Lakin beynəlxalq qurumlar deyilənlərə əhəmiyyət vermədilər. Beləliklə də, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri təxribat törədərək, ön xəttdə yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini intensiv atəşə tutdu.***

Müxtəlif istiqamətdə hücuma keçən düşmən ordusunun qarşısı Ordumuz tərəfindən alındı və bütün cəbhə boyu sürəkli əks-hücum əməliyyatına əmr verildi. Çətin coğrafi relyef şəraitində aparılan müharibədə qəhrəman hərbçilərimiz bütün varlıqları ilə döyüşə atıldı və Azərbaycan xalqının otuz illik həsrətinə 44 gündə son qoydu.

Qeyd etmək lazımdır ki, düşmənin səhvi onda idi ki, bizim hərbi gücümüzü, müasir və mobil ordumuzu, hərbi-vətənpərvərlik ruhumuzu, Ordu-Xalq-Dövlət birliyini görə bilmirdi. Elə zənn edirdi ki, Ohanyan səddi keçilməzdir. Halbuki bu sədd mifini Müzəffər Ordumuz qısa bir vaxtda yerlə-yeksan etdi, ermənilərin torpaqlarımızda qurduqları möhkəm və labirintə oxşar istehkamları, səngər və sığınacaqları Qarabağda erməni əsgəri üçün məzara döndü.

Motoatıcı briqadanın döyüşçüsü, baş əsgər Mirsalam Quluzadə döyüşə girəndə doqquz ayın əsgəri idi. Onun daxil olduğu tağım Mu-



rov istiqamətində, Buzluq kəndi həndəvərində yerləşirdi. Onlar verilən əmrləri, tapşırıqları tez və operativ yerinə yetirirdilər. Oktyabrın 15-dən sonra Horadiz istiqamətində döyüş tapşırıqlarını yerinə yetirdilər. Ayın 14-dən 15-nə keçən gecə şiddətli hücum başlandı. Döyüşlər ağlagəlməz dərəcədə vahiməli idi. Silahlar bir an da susmurdu. Səhərə yaxın Cəbrayıl düşmən işğalından azad edildi, çoxillik həsrətə son qoyuldu. Cəbrayıl şəhəri və onun kəndləri yerlə-yeksan edilmişdi, düşmənin törətdiyi vəhşiliklər ürək ağrıdırdı. Mirsalam və döyüşçü yoldaşları Qubadlının və Zəngilanın alınmasında böyük fədakarlıq göstərdilər. Laçının bir neçə kəndini azad etdilər.

**Müddətdən artıq hərbi qulluqçu, tağım komandiri Vüsal Rüstəmov** Mirsalam Quluzadənin cəsur və qorxmaz əsgər olduğunu diqqətə çatdıraraq dedi:

***- Mirsalam Quluzadə kimi hərbçilər Vətən müharibəsində Vətən və dövlət qarşısında şərəf borcunu uğurla yerinə yetirdilər. Mən ona çox güvənirdim, onun nəyə qadir olduğunu yaxşı bilirdim. Bir dəfə ona dedim: - Mirsalam, ehtiyatlı ol. Bizim əsas vəzifəmiz işğala məruz qalmış torpaqları tezliklə azad etməkdir. Unutma ki, güllə, mərmi qəlpəsi heç nəyə baxmır. Biz həm döyüşməli, həm də düşmən gülləsinə hədəf olmaqdan yayınmalı, salamat qalmalıyıq. Biz Vətən qarşısında borcumuzu hələ tam yerinə yetirməmişik. Vətənin gözü bizdədir...***

Mirsalam silahını möhkəm sıxaraq belə cavab verdi:

***- Mən sizi çox yaxşı başa düşürəm, komandir. Bizə görə narahat olmayın, Vətənə bir can borcumuz var. Nə olacaqsa, bilmək çətindir. Artıq həlledici anlar gəlib çatıb. Düşmənin ayaqları altında əzilən torpaq da sanki dilə gəlib deyir: "Yolunuzu gözləyirdik. Düşməni əzin, bizi xilas edin, bir olaq, yurda sahib olaq. Tanrı köməyimiz olsun"...***

Vüsal Rüstəmovun Mirsalamdan belə cavab gözləməsi təbii idi. Necə də olsa, bir komandir kimi tabeliyindəki əsgərdir, onun həyatına cavabdehdir. Lakin Vətən naminə edilən hər nə varsa, əvəzolunmazdır...

### Vətən müharibəsində

qazandığımız şanlı Zəfərimiz sübut etdi ki, tariximizə söykənən, keçmişimizə bağlı olan, gələcəyə inamlı addımlar atan, milli-mənəvi dəyərlərimizi dünya bəyənən bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman dəyişsə də heç kim Vətən sevgimizi nə azalda, nə də bundan məhrum edə bilər.

Bizim qanımız, ruhumuz Vətən eşqindən yoğrulub. Bizim haqq savaşında inamımızın, gümanımızın, ümidimizin, cəsarətimizin zirvəsini fəth edib qələbə qazandıq. Vətən müharibəsində əsgərlərimizin rəşadəti, cəsarəti düşməni qorxuya saldı. Ona görə də sona kimi müdafiə oluna bilmədi.

Dünya da gördü ki, biz haqq yolundayıq, heç bir ölkə iradəmizə təsir edə bilməz. Biz düşməni məhv edərək torpaqlarımızı geri aldıq, ərazi bütövlüyümüzü bərpa etdik. Bir sözlə, Mirsalam Quluzadə kimi cəsarətli əsgərlərimizin sayəsində qalib gəldik.

Mirsalam Quluzadə "Qubadlının azad edilməsinə görə" və "Cəbrayılın azad edilməsinə görə" medallarına layiq görülmüşdür.

Mirsalam Quluzadə bu gün də Ordu sıralarında Vətənə canla-başla xidmət edir. Əsl vətənpərvərlik Vətənə borcunu verməkdir, - deyir o.

**Beləliklə, biz tarixin son yüz ilinə Qələbənin işığında daxil olduq.**

**Azərbaycan əsgəri düşmənə tarixi bir dərs verdi.**

**Biz bundan sonra da bu Qələbənin işığında yol gedəcəyik.**

**Eşq olsun qüdrətli Azərbaycan əsgərinə!**

**İdris Şükürlü,**
**yazıçı-jurnalist**

# 24 aprel hadisəsinin "ermənilərin öldürülməsi" ilə heç bir əlaqəsi yoxdur



***Ədalət Muradov, Professor, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, YAP İdarə Heyətinin üzvü***

***1915-ci ilin hadisələri siyasətçilər tərəfindən deyil, tarixçilər tərəfindən araşdırılmalıdır. Türkiyə dövləti dəfələrlə arxivlərin açılması, tarixi hadisələrə düzgün qiymət verilməsi məsələsini ortalığı qoysa da, rəsmi Ermənistan bu məsələdən qaçıb. ABŞ prezidenti Co Baydenin "erməni soyqırımı" ifadəsini işlətməsi təcavüzkar Ermənistanın faşist niyyətlərinin hansı qaynaqlardan qidalanmasını bir daha göstərir. Bayden "soyqırım" ifadəsini 1981-ci ildəki açıqlamasında işlədən Ronald Reyqandan sonra ilk ABŞ prezidenti oldu. Bu gün ermənipərəst qüvvələrin 106 il bundan əvvəlki saxta "erməni soyqırımı"na qiymət vermələrinə baxmayaraq, 28-30 il bundan əvvəl ermənilər tərəfindən dinc Azərbaycan əhalisinin Qarabağda soyqırıma məruz qalması haqda bir kəlmə də olsun danışmırlar. Bu yüz il ərzində bir milyondan artıq günahsız, əliyalın Azərbaycan türkünün qanına susamış ermənilərə söz deyən yoxdur.***

***1905-1906-cı illərdə ermənilər Bakı, Gəncə, Qarabağ, İrəvan, Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Tiflis, Zəngəzur, İğdır-Sürməli, Qazax və digər yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış, dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan yüzlərlə yaşayış məntəqəsini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər. Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirmişlər. Yuxarıda qısa şəkildə sadalananlar gələcəkdə daha böyük faciələrə aparan yolun başlanğıcı idi.***

***Türkiyə məsələsi isə tamamilə fərqlidir. Bu hadisələr Birinci Dünya müharibəsi zamanı baş verib. Belə ki, 1914-cü il noyabrın 1-də çar Rusiyasına məxsus ordu Osmanlı dövlətinin sərhədlərini keçir. Qoşunların tərkibində 160 mindən artıq silahlı, təlim görmüş erməni Şərqi Anadolu ərazisində fürsətdən bəhrələnərək qətliama başlayır. Sağ qalan türklər ev-eşiyindən didərgin düşür. Boşaldılan torpaqlarda Şərqi Anadoluda yaşayan azsaylı ermənilər və ruslara arxalanaraq, onlarla birlikdə əli silahlı gələnlər heç bir günahı olmayan yerli türk əhaliyə qarşı misli görünməmiş azğınlıqlar edirlər. "Daşnaksütyun" bütün könüllü erməniləri xəbərdar edərək bildirir ki, ruslardan alınmış silahları qətiyyən geri qaytarmaq olmaz. Əks təqdirdə rus hökumətinə qarşı döyüşmək lazım olacaqdır.***

***Rus qoşunları 18 may 1915-ci ildə Vanı, 1916-cı il fevralın 16-da Ərzurumu, 05 mart Bitlisi, 6 martda Rizeni, 15 martda Tərcanı işğal edirlər. Ruslarla birlikdə hərəkət edən ermənilər 1918-ci ilin əvvəllərinədək bu ərazidə 2 milyondan artıq günahsız türkü qətlə yetirir, yüzlərlə yaşayış məskənini yerlə yeksan edirlər. Erməni cəlladları körpə uşaqları süngülərə keçirib gedəcəkləri yolun sağına və soluna düzüb, onların arasından keçərək, bundan zövq alırdılar. 1918-ci ilin əvvəllərində Şərqi Anadoludan geri dönən ermənilərə bildirilir ki, Türkiyə ərazisi Rusiya torpaqları deyil. Köçün Cənubi Qafqaza, Şərqi Anadoluda törətdiyiniz əməlləri həyata keçirin, ərazini təmizləyin, sizə burada dövlət quraq. 1917-1921-ci illərdə bu qətliamlar Cənubi Qafqazda-Azərbaycan torpaqlarında davam etdirilir.***

***Dünyanın bir çox aparıcı dövlətlərinin başçıları bu hadisələri həmişə biganəliklə müşayiət ediblər. Sanki, belə olmalı imiş. İkili standartlar həmişə olub, bu gün də var.***

***Birinci Dünya müharibəsi illərində Osmanlının təbəəsi olan erməni döyüşçüləri xəyanətə əl atır, silahı türklərə qarşı yönəldir, kütləvi şəkildə Rusiyaya tərəf keçirlər. Arxada isə erməni silahlıları dinc türkləri, müsəlmanları qırıb, hökumət orqanlarına hücum edib, ölkəyə, rəsmi hakimiyyətə qarşı qiyam qaldırırlar. Vəziyyəti nizama salmaq üçün 1915-ci il aprelin 24-də Osmanlı İmperatorluğunun Daxili İşlər Nazirliyi "Təhcir haqqında" (Köç haqqında) qanun qəbul etməyə məcbur olur.***

***Aprelin 26-da baş komandanlığın yeni əmri çıxır. Bu əmrlə 2345 erməni terrorçusu ölkənin müxtəlif yerlərində həbs edilir. Bunların bir çoxu kəndlərə hücum edərək silahsız əhalini qıran cinayətkarlar idi.***

***27 may 1915-ci ildə "Söbh və isqan haqqında" ("Köç") qanun qüvvəyə minir. Bu qanun Şərqi Anadolu ərazisində daim problem yaradan, xarici qüvvələrlə işbirliyinə girən və əsgəri baxımdan böyük təhlükə törədən əhalinin öz təhlükəsizlikləri üçün daha etibarlı və idarəçilik baxımından da rahat olan ərazilərə köçürülməsindən bəhs edirdi. Göründüyü kimi, qanunda "erməni" kəlməsi işlədilməyib. Bu qanun silahlı üsyan törədənləri, düşmənlə əməkdaşlığa girərək casusluq və xainlik edənləri hərbi anlayışlarla müharibə ərazisindən uzaqlaşdırmaq üçün qəbul edilib. Türkiyənin başlıca məqsədi özünə qarşı arxadan vurulan zərbənin qarşısını almaq olub.***

***Osmanlı arxiv sənədlərində köçürmə zamanı ölənlərin sayı barədə məlumat verilir. Belə ki, köçürülən 478.758 ermənidən 382.148 nəfəri köçürülən bölgələrə gəlib çatmışdır. Müharibə şəraitinin çətinlikləri, ağır yol həyatı, xəstəliklər və bu kimi səbəblərdən ölən ermənilərin sayı isə 200 min nəfərə yaxın olmuşdur. Ölən ermənilərin sayının 1.200.000-dək şişirdilib. Hətta ölənlərin sayı ildən-ilə artırılır. Utanmadan bu rəqəmi indi 3 milyona çatdıran erməni saxtakarları da vardır.***

***Köçürmə dövlətin hesabına həyata keçirilirdi. Ermənilər köçürülərkən onların təhlükəsizliyini və sağlamlıqlarını qorumaq üçün jandarm qüvvələri və həkim dəstəsi ayrılmışdı. Ermənilər Suriya və Livan ərazisinə köçürülmüşdülər.***

***1916-cı il oktyabr ayında olan başqa bir məlumata görə, təxminən 702 min 900 nəfər erməni köçürülmüşdü. Hökumət bu prosesə təxminən 86 milyon lirə xərcləmişdi. Deməli, 24 aprelin soyqırımı kimi qondarma hadisənin "ermənilərin öldürülməsi" ilə heç bir əlaqəsi yoxdur. Həmin gün erməni terrorçularının həbsi günüdür. Bu gün isə ermənilər heç bir həqiqətə söykənməyən, 1 milyon 500 min nəfər ermənininin qırıldığından yazırlar.***

# Dünyanın faktlarla təsdiq edə bilmədiyi, amma qəbul etdiyi uydurma erməni soyqırımı

**Rusiya tərəfindən Mesapotomiya, İran, Türkiyə çöllərindən toplanaraq, kütləvi şəkildə Qafqaza yerləşdirilmiş və burda əsli-nəcabəti, tarixi kökü olmasa belə, həyasızlıqları sayəsində topluma dönüşən, dövlət quran ermənilər irticaçı əməllərini bu günki günə qədər davam etdirirlər. Erməni ideoloqları öz iyrənc yalanları, iblisanə hiyləgərlikləri ilə dünyanı türk topluma qarşı nifrətlə doldurmaqda davam edir və üstəlik türklər tərəfindən "soyqırımı"na məruz qaldıqları iddiası ilə hər il 24 apreli matəm günü kimi qeyd edirlər. Baxmayaraq ki, o vaxtdan indiyə qədər milyonlarla türkün qanını axıdıblar, amma qisasçılıq hissindən əl çəkməyiblər. Bədxahlar bu azmış kimi dünya ölkələrinin parlamentlərində bu mövzunu gündəmə gətirməyə çalışırlar və çox vaxt da nail olurlar.**

### Ayaq tutub "yeri (dilən) yən" yalan...

"Qaregen Njdenin təlimi"nin ilk cümləsi belədir: sonuncu türk kar, kor, lal olsa da, öldürülməlidir".

Yəni türkə olan nifrət ideoloji vasitədir, silahdır. Dünyaya səpələnmiş ermənilər yeganə xalqlardan biridir ki, yalançı göz yaşları ilə inandırmağı bacarır və onun sayəsində dəstək alır.

Əslində, elə dünya da insani keyfiyyətlərdə onlardan yüksəkdə durmağı bacaran türklərə nifrət etməyə bir bəhanə axtarırdı və ermənilərin sayəsində o "qondarma soyqırım" ı fürsəti əllərinə kecib. İndi isə o fürsətdən faydalanır, yeri gəldi - gəlmədi içlərinə yığılmış nifrəti-ədavəti zəhər kimi addımbaşı tökməkdən çəkinmirlər.

Bax, elə buna görə də, ermənilərin saxta iddialarına "inanan" ölkələrin sayı artır.

İsveç parlamenti 12 mart 2010-cu ildə, Uruquay 1965, 2004, 2005-ci illər olmaq üzrə üç dəfə, Yunan Kipri 1982-ci ildə, Amerika Birləşmiş Ştatları - ABŞ-ın 40-dan çox ştatında, Argentina 1985-ci ildə, Rusiya 1995-ci və 2005-ci ildə, Kanada 1996, 2000 və 2004-cü illərdə, Yunanıstan 1996-cı ildə, Livan 1997-ci və 2000-ci ildə, Belçika və Fransa 1998-ci ildə, (Fransada sözdə "erməni soyqırımı"nı rədd etmək cinayət sayılır), İtaliya və Vatikan 2000-ci ildə, İsveçrə 2003-cü ildə, Slovakiya və Hollandiya - 2004-cü ildə, Polşa, Almaniya, Venesuela, Litva - 2005-ci ildə, Çili 2007-ci ildə, Birləşmiş Krallığa daxil olan Uels, Şotlandiya və Şimal İrlandiya 1915-ci il hadisələrini "soyqırımı" olaraq qəbul ediblər. Almaniya 2-ci dəfə -2016-cı il iyunun 2-də saxta iddianı "soyqırımı olaraq tanıyıb.

### 1915-ci ilin aprel günlərində axı nə baş verdi?

***Əslində aprelin 24-də Osmanlı dövləti ərazisində bir erməni belə qətlə yetirilməyib. Sadəcə olaraq, ölkədə cinayətkar fəaliyyətinə görə "Daşnak" və "Hnçak" partiyalarının rəhbərləri həbs olunub. Tarixi faktlar, arxiv materialları da dediyimizə sübutdur. Qondarma "erməni soyqırımı" məsələsinin mahiyyəti belədir: Osmanlı İmperiyasını parçalamaq istəyən dövlətlər XIX əsrin əvvəllərindən etibarən ona qarşı müxtəlif planlar cızırdılar. "Şərq məsələsi" adlanan ideya da məhz həmin planların rellaşdırılması məqsədilə ortaya atılmışdı. Osmanlı dövlətinin daxili işlərinə müdaxilə etmək üçün Türkiyədə yaşayan xristian azlıqların mənafeyinin "qorunmaması" məsələsi bəhanə ola bilərdi. Osmanlı İmperiyası ərazisində aysorlar, yunanlar, xristian ərəblər yaşasalar da, erməni azlığı daha çox diqqəti çəkirdi. Bu, onların xarakterindən - xəyanətkar olmalarından, satqınlığından, şəraitə uyğun olaraq dinlərini və məzhəblərini dəyişmək xislətindən irəli gəlirdi. 1890-cı ildən etibarən başlayan üsyanlar 1915-ci ildə Osmanlı hakimiyyətini radikal qərarlar almağa məcbur etdi və sözügedən soyqırımı iddiası da bu dövrdən etibarən ortaya çıxdı.***

Güclənən erməni millətçiliyi Anadolunun şərqində və Kilikya adlanan cənub bölgələrində kütləvi şəkildə yaşayan ermənilərdə separatçı meyli gücləndirdikcə üsyanlar da təbii hal almağa başladı. İlk üsyan 1890-cı ildə Ərzurumda gerçəkləşdi, daha sonra Van, Sason, Adana üsyanları ard-arda baş verdi. Bu hadisədən sonra 1905-ci ildə Sultana sui-qəsd cəhdi olsa da uğursuzluqla nəticələndi. Bölgədə təşkilatlanan erməni komitələri mülki şəxslərə qarşı da xüsusi amansızlıq nümayiş etdirdilər.

Gerçəkləşdirilən üsyanlar və Birinci Dünya müharibəsi ərəfəsində ruslara qoşulan ermənilərin türklərə qarşı savaşması nəticəsində Osmanlı dövləti 27 may 1915-ci ildə "Köç" qərarı çıxartdı. Bu qərar öncəsində isə bu gün ermənilərin soyqırımı günü kimi qəbul etdikləri 24 aprel günü 2345 erməni lider həbs edildi. Onların böyük əksəriyyəti kəndlərə hücum edərək silahsız əhalini qıran cinayətkarlar idi.

Köç qərarı Anadoluda yaşayan ermənilərin Osmanlının digər bölgələrinə səpələnməsini nəzərdə tutsa da, praktikada hər şey fərqli cərəyan etdi. Köç karvanlarına edilən hücumlarda ölən ermənilər bir kənara, həm də yollarda aclıqdan və xəstəlikdən ölənlər kifayət qədər idi. Yola çıxanların yalnız bir qismi lazımi məntəqələrə yerləşdirilə bildi.Göründüyü kimi hec bir qətliam və yaxud "soyqırımı"ndan söhbət gedə bilməz. Sadəcə, ermənilər aprelin 24-nü ona görə "soyqırımı günü" kimi qeyd edirlər ki, köç haqqında qərardan sonra onların dövlət yaratmaq istədikləri 6 vilayətdə onsuz da azlıq təşkil edən ermənilərin sayı minimuma endirildi.

Yəni onların Türkiyə ərazisində dövlət yaratmaq xülyaları boşa çıxdı..

### Faktlar nə deyir?

***Ermənilər iddia edirlər ki, guya 1915-ci ildə türklər 1,5 milyon ermənini qırıblar. Türk Tarix Qurumunun keçmiş başqanı Yusif Halacoğlu Osmanlı arxivlərinə istinadən belə nəticəyə gəlibdir ki, ermənilərin köçürülməsi zamanı yollarda hücumlara məruz qalaraq öldürülən ermənilərin sayı təqribən 8,5 min nəfər olub.***

***Qalan ermənilər döyüş cəbhələrində əllərində silah türklərə qarşı vuruşarkən öldürülüblər.1919-cu ilin yayında Paris sülh konfransının gedişində ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları ərazilərdə və Cənubi Qafqazda vəziyyəti öyrənmək məqsədi ilə prezident Vudro Vilson ABŞ ordusunun Fransadakı baş qərargahının rəisi general Ceyms Harbordun başçılığı altında regiona xüsusi missiya göndərib. Regionu incələyən Harbordun Ərzurumdakı dialoqu həmin günlərdə çox sayda şahidlərin də gündəliklərinə düşmüşdü. O, türklərdən soruşur:***

**- Daha öncədən Ərzurumda erməni çoxluğu varmıdı?**

Bu soruyu alan Ərzurum Bələdiyyə Başqanı Zakir Gürbüz bəy Amerikalı generalı pəncərə önünə çağıraraq açıq görünən Gez və Kavak məzarlıqlarını göstərib deyir: "Bunlar gördüyünüz kimi, müsəlman-türk məzarlarıdır. Şəhərin ötəki yerlərində də bunların on qatı türk məzarlığı daha vardır. İndi yaxşı baxın, çevrəsi divarlarla hörülü o kiçik məzarlığı da görürsüzmü? Bax o da ermənilərin məzarlığıdır.

Özünüz deyin, ermənilərmi, ya türklərmi çoxluqda? Ermənilər ölülərini yemədilər ki! Ərzurumun ölüsü də Türk, dirisi də Türk!" deyə tarixi cavab vermişdir."

General Ceyms 16 oktyabr 1919-cu ildə ABŞ Senatına təqdim etdiyi raportunda yazırdı ki, Qara dənizdən İran sərhəddinədək uzanan ərazını gəzdik, lakin ermənilərin iddialarını doğruldacaq heç bir fakta rast gəlmədik. General Harbordun bu məruzəsi ermənilərin Şərqi Anadoluda heç zaman çoxluq təşkil etmədiklərini və soyqırıma məruz qoyulmadıqlarını təsdiqləyirdi.

Harbord yazırdı ki, missiyanın keçdiyi yollarda tez-tez ermənilərin zülmündən qaçan türklərlə rastlaşırlarmış. Həmçinin məşhur amerikalı siyasətçi Bryus Feinin, ABŞ-ın ali komissarı, admiral Mark Bristo-




lun, britaniyalı siyasətçi və admiral Kolbi Çesterin, dünyanın nüfuzlu alimlərindən Stenford Şounun, Castin Makkartın, Prinston Universitetinin professoru Hitom Lourin, britaniyalı tarixçi, professor Norman Stoun, amerikalı professor Günter Levin, türkiyəli alim Mehmet Perincək tarixi faktlara istinad edərək "erməni soyqırımı"nın əslində cəfəngiyatdan başqa bir şey olmadığını sübut ediblər.

### Məsələn…

***Amerika Birləşmiş Ştatları Loisville Universitetinin müəllimi, tarixçi yazar Prof. Dr. Castin Makkartın: "Erməni soyqırımı" deyilən bir şeyin olması mümkün deyil. O dövrdə yaşayan 1,5 milyon erməni yox idi. Bu rəqəmin cəmi erməni əhalisindən daha çoxdur. Bu tamamilə səhv. Bu "soyqırım"ın həqiqət olması vəziyyətində hər bir ermənınin iki dəfə ölmüş olması lazımdır. 1912 - 1921 illər arasında 3 milyon müsəlman və 100 min erməni ölüb. Aclıqdan, susuzluqdan və ya xəstəlikdən ölənlər də oldu. Bütün ölənlərin türklər tərəfindən öldürüldüyü deyilir, amma bu xəstəlik ayrı-seçkilik etmədən hər kəsi öldürdü….Tarixçilərin araşdırmalarını sərbəst şəkildə etmələri, mübahisələrin, tapıntıların müqayisə edilməsi lazımdır. Ancaq bu şəkildə tarixi məlumatın doğruluğuna əmin ola bilərik."***

ABŞ eks-prezidenti Ronald Reyqanın hüquq müşaviri Bruce Fein başqanlığında yaradılmış qrupun 1981-ci ildə hazırlayıb təqdim etdiyi raportdan: "Ağ Saray araşdırma etdi, ermənilərin 2 milyon müsəlman Osmanlını qətl etdiyi ortaya çıxdı. Ermənilər, öz arxivlərini açmır, çünki bu gerçəyin ortaya çıxmasını istəmir, ermənilərin bu iddiaları son dərəcə əsassız... Osmanlı İmperatorluğunun azlıqlara qarşı müdhiş sayıla biləcək bir diqqət göstərdiyi həqiqətini unutmamaq lazımdır. Azlıqlar, öz dini azadlıqlarını və həyatlarını son dərəcə rahat bir şəkildə davam etdirirdi. Erməni terror dəstələri I Dünya savaşı əsnasında Fransa və Rusiya ilə birlikdə Osmanlıları öldürdü. Bu rəqəmin 2 milyon ətrafında olduğu bir gerçək.

***Erməni itkinlərinin isə 500 min ətrafında olduğu araşdırmalarla sübut edildi. Burada əsl əhəmiyyətli mövzu, ermənilərin xəyanətidir. Osmanlı da özünü müdafiə etdi. Xüsusilə ABŞ-da yaşayan ermənilər, soyqırım yalanı ilə böyük gəlirlər təmin edir. ABŞ rəhbərliyi də büdcəsinə böyük pullar döndüyü üçün ermənilərin qarşısına almaq istəmir. Ermənilər israrla öz arxivlərini açmır. Çünki illərdir soyqırım yalanı ilə gələn gəlirləri itirmək istəmirlər. Arxivlər açıldığı anda gerçək ortaya çıxacaq."***

### "Qazanc" naminə murdar planlar…

Buna baxmayaraq, ermənilər 1965-ci ildən etibarən hər il aprelin 24-nü "soyqırım günü" kimi qeyd edirlər. Faktları ustalıqla şişirdən ermənilərin və erməni lobbisinin hədəfi "4 T" adlanan tələblərinin yerinə yetirilməsidir: **1.** "Soyqırımı"nın dünyada tanınması; **2.** Türkiyənin "soyqırımı" tanıması; **3.** Türkiyənin "soyqırımı"na uğramış adamların varislərinə təzminat ödəməsi; Türkiyəli mütəxəssislər isə hesab edirlər ki, dünya ölkələrinin "soyqırım" qərarlarını qəbul etməsində 5 amil rol oynayır:

Həmin ölkələrdəki erməni fəallığının təsiri, Türkiyəyə düşmən münasibət, Türkiyəni Avropa Birliyində görməmək istəyi, Özünün törətdiyi soyqırıma suç ortağı axtarmaq cəhdi və nəhayət din amili...

**Ermənipərəst dünya nə qədər dirəşsə də, nə qədər erməni yalanları ilə həmrəy olsa da, Türkiyə baş verməyən bir cinayəti heç vaxt öz üzərinə götürməyəcəyi bəllidir. Bu yolda canqardaşlarımıza təmkin və əzm arzu edirik. Yeri gəlmişkən, dünya dövlətlərindən, ümumilikdə səlibçilərdən ədalət gözləməyi, nə vaxtsa daşı ətəyindən töküb haqqı deməyi ummuruq. Çünki 106 yox, cəmi 29 il əvvəl bir gecənin içində milliyyətinə və dininə görə məhv edilən xocalıları görən dünya hələ də susur və bəzən qatilin başını sığallayır, onu müdafiə edir. Görkəmli şairimiz Məmməd Araz demiş: mən belə dünyanın nəyindən küsüm?**

**Əntiqə Rəşid**

### *Türkiyə bu iki ölkə ilə əlaqələri bərpa edir*



**Yaxın zamanda Türkiyənin Misir və Səudiyyə Ərəbistanı ilə əlaqələri yoluna qoyulacaq. Bu sözləri Yaxın Şərq regionu üzrə ekspert Həsən Həsən deyib. O bildirib ki, ölkələr arasında artıq ilkin razılaşmalar əldə edilməkdədir: "Türkiyənin Misir və Səudiyyə ilə əlaqələri bərpa ediləcək. Yaxın günlərdə rəsmilər bununla bağlı açıqlama verəcəklər. Ramazan ayında, yaxud dərhal sonra qarşılıqlı səfərlər başlayacaq".**

**MEHRİBAN**

## Gəncə şəhər İcra Hakimiyyətinin başçısından Aqil Abbasın müraciətinə cavab

*Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı cənab Aqil Abbasa*

**Hörmətli Aqil müəllim,**

Gəncə şəhəri, Əziz Əliyev küçəsi, dalan 2, ev 9 ünvanında yaşayan Əliyeva Vüsalə Rza qızının Sizə ünvanlanmış müraciətinə Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Aparatında baxılmışdır.

Müraciətində Vüsalə Əliyeva 04 oktyabr 2020-ci il tarixdə Ermənistan Respublikası silahlı qüvvələri tərəfindən Gəncə şəhərinə atılmış raket zərbəsi nəticəsində evinin dağıldığını, evində fərdi sahibkarlıqla məşğul olduğunu bildirərək, evinə dəymiş zərərin yaradılmış komissiya tərəfindən düzgün qiymətləndirilməsinə, həmçinin hadisə zamanı aldığı xəsarət ilə bağlı müalicəsi üçün köməklik göstərilməsini xahiş etmişdir.

Müəyyən edilmişdir ki, "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərizəsinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrasturktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr tarixli 2292 nömrəli Sərəncamının icrasının təmin edilməsi ilə bağlı" "Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2020-ci il 11 noyabr tarixli 612s nömrəli Sərəncamı ilə yaradılmış işçi qrupu tərəfindən Gəncə şəhərində mülki əhaliyə dəymiş ziyanın qiymətləndirilməsi sahəsində işlər aparmış, yaşayış evlərinə ziyan dəymiş mülki əhalinin siyahısı hazırlanmışdır. Müraciət müəllifinin ərinə məxsus yaşayış evi qismən ziyan çəkmiş evlərin siyahısına salınmış və ona "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 dekabr 2020-ci il tarixli, 2343 nömrəli Sərəncamına əsasən məişət əşyalarına dəymiş ziyanla bağlı ərinin adına açılmış bank kartına 1000 (bir min) manat məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir. Əlavə olaraq bildiririk ki, vətəndaşın müraciəti nəzərə alınaraq qeyd olunan ünvana işçi qrupu tərəfindən yenidən baxış keçirilmişdir.

Məlumat üçün bildiririk ki, hadisə ilə əlaqədar V.Əliyevanın ailəsinə Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən 2020-ci ilin oktyabr ayından başlayaraq hal-hazıradək 250 manat məbləğində kirayə haqqı verilir. Əvvəlki müraciəti əsasında V.Əliyeva və əri T.Abdullayev Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən qəbul edilmiş, bütün ailə üzvlərinin Gəncə Beynəlxalq Xəstəxanasında ödənişsiz qaydada müayinələri təşkil edilmişdir.

**Müraciətlə bağlı V.Əliyevaya dövlət tibb müəssisələrində müalicə olunması təklif edilsə də o, bu təklifdən imtina edərək müalicəsi üçün 20000 (iyirmi min) manat məbləğində pul vəsaitinin verilməsini tələb etmişdir.**

**Nəzərə almağınızı Sizdən xahiş edirəm.**

**Hörmətlə:**
**Niyazi Bayramov**

# ATMOSFERƏ ZƏRƏRLİ QAZLAR ATILIRSA...

## Bu, çoxlu sayda insanların müxtəlif xəstəliklərə düçar olmasına gətirib çıxarır

**Biz elə düşünürük ki, göy üzünü nə qədər çirkləndirsək də, göy üzü o zərərli maddələri saxlayacaq. Burda yadımıza böyük Ramiz Rövşənin "Göy üzü daş saxlamaz" şeiri düşür. Deməli, heç də hər şey biz düşündüyümüz kimi deyil. Və atmosferə atılan normadan artıq zərərli qazlar yenidən yağış, qar və digər bir formada bizə qayıdır, insanları müxtəlif xəstəliklərə düçar eləyir.**



Ona görə də atmosferin çirkləndirilməsinin qarşısının alınması həmişə ölkəmizdə başlıca vəzifələrdən sayılıb. Bu məqsədlə dövlət proqramları həyata keçirilib. Hər il Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə Daxili İşlər Nazirliyi birgə "Təmiz hava" aylığı keçirilib. Təbii ki, bu tədbirlərin gerçəkləşdirilməsi qabaqlayıcı tədbirlərdən sayılır və eyni zamanda, atmosferə normadan artıq zərərli qazların atılmasının qarşısını alır.

### *Heç kimə sirr deyil ki,*

***hər il ölkəmizdə və Bakı şəhərində atmosferə normadan artıq yüz tonlarla zərərli qazlar tullanır. Bu isə bayaq dediyimiz kimi, havanı çirkləndirməklə yanaşı, müxtəlif xəstəliklərə münbit şərait yaradır. Artıq aprel ayından başlayaraq daxili işlər nazirinin əmri ilə kobud qayda pozuntularına qarşı və eləcə də atmosferin çirkləndirilməsini mühafizə etmək məqsədilə mübarizə daha da gücləndirilib. Başqa sözlə demiş olsaq, Baş Dövlət Yol Polisi İdarəsi bu sahədə çox ciddi addımlar atmağa başlayıb.***

Təbii ki, atmosferi ən çox çirkləndirən müxtəlif istehsalat sahələrindən, tikintilərdən və eləcə də ayrı-ayrı nəqliyyat hadisələrindən havaya atılan normadan artıq zərərli qazlardı. Baş Dövlət Yol Polisi İdarəsinin Avtotexniki Müfəttiş şöbəsinin əməkdaşları da onların qarşısında duran vəzifələrin yerinə yetirilməsində çox diqqətlidilər. Yəni aprel ayından başlayan tədbirlərin ilk günündən şöbənin özünün atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün mühüm planları var. Bu da ondan ibarətdir ki, şöbə əməkdaşları həm Bakı şəhərində, həm də regionlarda atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün keçirilən reyd və yoxlamalarda yaxından iştirak edir.

Aydındır ki, qanun pozuntularının qarşısı, xüsusən də yol hərəkəti qaydalarına əməl edilməməsi iki vasitə ilə alınır; inzibati tənbeh və maarifləndirmə! Əlbəttə, bu iki metoddan mütəmadi olaraq istifadə edilməsi istər-istəməz həyata keçirilən tədbirlərə müsbət təsirini göstərir. Məhz avtotexniki müfəttişlik şöbəsinin əməkdaşları da qanunu pozan sürücüləri daha çox maarifləndirmə yolu ilə islah edirlər. Bu həm də özünü dəfələrlə doğrultmuş metodlardan biridi. Belə ki, şöbənin əməkdaşları müxtəlif vaxtlarda müəssisə və təşkilatlarda olur, nəqliyyat vasitələrinin sahibləri və sürücülərlə maarifləndirici söhbətlər aparır. Bir daha onların nəzərinə çatdırılır ki, hər hansı nəqliyyat vasitəsi texniki cəhətdən saz olanda ondan atmosferə normadan artıq zərərli qazlar atılmır. Məhz bu cür maarifləndirici söhbətlərlə nəqliyyat vasitələrində yaranmış texniki qüsurlar vaxtında aradan qaldırılacaq. Bir də onu qeyd etməliyik ki, yol polisi ilə sürücülər və hərəkət iştirakçıları arasında bu cür anlaşıqlı münasibətlərin olması ümumi işə müsbət təsir göstərir.

### *Bayaq qeyd etdiyimiz kimi,*

***artıq avtotexniki müvəttişlik şöbəsinin əməkdaşları Bakı ilə yanaşı, Sumqayıt, Şirvan, Mingəçevir, Gəncə, Lənkəran və digər şəhərlərdə də atmosferin çirkləndirilməsinin qarşısının alınması üçün keçirilən reydlərdə fəal iştirak edirlər. Bu reydlər zamanı bir daha aydın olur ki, Sovet və Rusiya istehsalı olan "VAZ" markalı avtomobillərdən atmosferə daha çox zərərli qazlar atılır. Bu cür zərərli qazların atmosferə normadan artıq atılması ayrı-ayrı sürücülərin məsuliyyətini bir daha yüksəltməlidi. Eyni zamanda, ağır yük maşınlarından olan və texniki cəhətdən nasaz sayılan "KAMAZ" və "KRAZ" markalı bir çox maşınlardan da havaya normadan artıq zərərli qazlar atılır.***



Nəqliyyat vasitəsinin sürücüsü atmosferə normadan artıq zərərli qaz atırsa, bu, 50 manat məbləğində cərimə deməkdi. Hansı ki, bununla bağlı yol polisi keçirdiyi bütün reydlərdə sürücülərə məlumat verir, onları maarifləndirir, bu sahədə diqqətli olmalarını tövsiyə edir. Təəssüf ki, buna baxmayaraq, bəzi sürücülər yenə texniki cəhətdən nasaz avtomobillərin sükanı arxasında əyləşirlər.

Avtotexniki müfəttişlik şöbəsinin rəisi, polis polkovnik- leytenantı Xalid Əzimov bizimlə söhbətində bildirdi ki, cənab nazirin əmri ilə həyata keçirilən bu tədbirlər demək olar ki, artıq günbəgün öz müsbət nəticəsini göstərir. Təbii ki, böyük tədbirlər planının tərkib hissəsi olan atmosferin çirkləndirlməsinin qarşısının alınması bizim ən mühüm vəzifələrimizdən biridir. Və həmişə də çalışmışıq ki, müxtəlif idarə, müəssisələrə məxsus olan nəqliyyat vasitələrinin sahibləri, eləcə də sürücülərlə maarifləndirici söhbətlər aparaq. Yəni öncə onları inandıraq ki, təmiz havanı qorumaq hamımızın borcudur. Təmiz havanı qorumaq isə istehsalat müəssisələrindən, tikinti meydançalarından və eləcə də müxtəlif nəqliyyat vasitələrindən atmosferə normadan artıq zərərli qazların atılmamasıdır. Aydındır ki, biz qarşıya qoyduğumuz məqsədə həm maarifləndirmə, həm də inzibati məsuliyyətə cəlb etməklə nail oluruq. Amma sadəcə olaraq, biz istəmirik ki, bu tədbirlərdə sürücüləri cərimə edək. Təəssüf ki, bəzi məsuliyyətsiz sürücülər dəfələrlə aparılan maarifləndirmə işlərinə və xəbərdarlıqlara baxmayaraq, təkrarən texniki cəhətdən nasaz avtomobilin sükanı arxasında əyləşir və onu idarə edir. Bax, belə bir vəziyyətdə yol polisinin başqa çıxış yolu qalmır. Məcbur olur ki, inzibati tənbeh metodundan istifadə etsin. Bir daha fürsətdən istifadə edib ayrı-ayrı nəqliyyat vasitələrinin sahiblərindən və sürücülərdən xahiş edirik ki, texniki cəhətdən nasaz avtomobilləri xəttə buraxmasınlar və ondan istifadə etməsinlər.

**Göründüyü kimi, aprel ayından başlayan tədbir kampaniya xarakteri daşımır və bu, sonrakı aylarda da davam edəcək. Ona görə də hər bir sahibkar, istehsalat müəssisəsinin rəhbəri və avtomobilləri idarə edən sürücülər qanunlara riayət etməli, texniki cəhətdən nasaz avtomobillərlə sürücülərin xəttə çıxmasına icazə verməməli və nəqliyyat vasitələrində mövcud texniki qüsurları vaxtında aradan qaldırmalıdı. Əgər belə olarsa, atmosferə normadan artıq zərərli qazlar atılmaz və insanlar da müxtəlif xəstəliklərə düçar olmazlar.**

**Faiq QİSMƏTOĞLU**

# QİYAMÇI RUHLARIN AHƏSTƏ SƏDASI



***Aydın CAN***

*.. Kiminin bəxtinə güldü bu şəhər,*
*Kiminin bəxtinə küldü bu şəhər.*
*Mənim gözlərimdə öldü bu şəhər,*
*Gedək bu şəhərdən, mənim ürəyim,*
*Mənim bu şəhərdə nə ölümüm var.*

**- rəhmətlik Elçin Səlcuq bu bəndini tez-tez deyərdi Vəlinin...**

**Sağlığında qiymət verin, - deyirdi Cabir Novruz, - adamlara! Adam adamlardan biri də Vəli Xramçaylıdı, bu gün də Mübariz Məsimoğlu "qanan-yanan" qrafasında hamısını yığıb "qəbrimi butulkavari qazdırın, yeyin-için, sonra sevdirin gedin" deyən arkadaşlarla "dütt" deyincə vurublar.**

Araqdan vurub, səhər tezdən xaşdan başlayıb axşama farellə bitirən, digər ləziz təamlarla gün keçirən onlar, yazını yazan mən! Günümə bax də!!! Eynən Puşkinə heykəl qoyulan kimi! A bala, "Mumu"nu mən yazmışam e, heykəli aparıf Vəliyə qoyufsunuz, bağışlayın, arağı Ayazla içifsiniz turşulu aş, həftəbecər, cırda... əlqərəz! Di, indi əziyyətə qatlaşın, oxuyun... lütfən!

QİYAMÇI RUHLARIN AHƏSTƏ SƏDASI.

Vəli Xramçaylının özü, sözü və zamanı haqqında ürkək baxışların məcmusu. Vəli Xramçaylı indi Gəncədən o yana sayılan "həqiqi Azərbaycan"lıların eloğlusudur. Elə tanıyırlar. Elə mən də onu dostum, rəhmətlik "Rafiq Qurbanovun eloğlusu" (Osman Sarıvəllinin oğlu) kimi tanımışam - hərçənd bu tanışlığa qədər uzun illər "Azərbaycan" nəşriyyatının dəhlizlərində, çayxana-yeməkxanalarında üzüzə gəlsəm də. Kimdənsə onu soruşanda da elə belə də deyirlər: "eloğlumuzdu". Özü də fəxrlə. Özü də lap belə "yandı-qırışdı" verməklə. Haqq eləyirlər də. Niyə də olmasın? Adam Sibirdə - Uralda doğulub. Zaman, dövlət, tale onu hara hərləsə də ailəqarışıq, gəlib çıxıb ruhunun qeydiyyatda olduğu məkana - Azərbaycana. O boyda Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib - qala da bilərdi oyanlarda. Oxuya da bilərdi rüşvətsiz-filansız Sibir ali məktəblərinin birinin hüquq fakültəsində. Vəzifə də, rütbə də alardı. Amma və lakin ruh söhbəti var VƏLİ XRAMÇAYLI isminin. Zatən də təbiət aşiqləri olan saz-söz ocağının övladı gedib hardasa ayrı yerdə də yox, elə "Azərbaycan təbiəti" jurnalında işləyib. Əslində isə… Vəli Xramçaylı Azərbaycanın eloğlusudu - BÜTÖVLÜKDƏ, SÖZ MƏKANINDA!

Əslində… Vəli Xramçaylı zamanı, taleyi, hököməti öz sərhədləri çərçivəsinə salıb da, istədiyini üzünə deyən, istədiyinə mükafat verən, istədiyi cəzanı istədiyinə kəsən hökm-sahibidir, qələm əhlidir, şairdir.

***Əslində… Vəli Xramçaylı görməzlikdən gəlsə də, elə "ən qəşəng şəkildə" görməməzliyə vurulan ruh adamıdı!***

***Vəli Xramçaylı qiyamçı ruhların çox ahəstə səslənən sədasıdı - çığırbağır misraların, başaçıq-ayaqyalın bəndlərin, amanabənd "şeir-evcik"lərin ona dəxli yoxdu və elə buna görə də Vəli Xramçaylı gurultulu, hay-küylü, qara-qışqırıq məclislərin heç birində də yoxdu. Heç bir siyahıda da yoxdu.***

Əslində Vəli Xramçaylı heç siyahı adamı da deyil - ürək-ruh sahibidi.

Vəli Xramçaylının var olduğu yer elə onun Özüdür. Sözüdür! Zamanıdır!

Özündə, Sözündə və Zamanında var olan Vəli Xramçaylını Özünü, Sözünü, Zamanı bilənlər tanıyır - bir dalğanın, eyni koordinatın sakinləri birbirini ruhundan tanıyır. Bütün dalğalarda, koordinatlarda olduğu kimi.

*Və özü özünə*
*Gəldi bic zamana, yoxdu bicliyin,*
*Daha bu zamanda yoxdu dincliyin.*
*Getdi cavanlığın, itdi gəncliyin,*
*Öl indi, öl indi, ay dərviş Vəli, -*
*desə də,*
*Əlindən aldılar yerlə-göyünü,*
*Gör kimlər pisikir, kimlər öyünür,*
*Eşqin yollarında bu can öyünü*
*Sökdülər, sökdülər, ay dərviş Vəli, -*
*bilsə də,*
*Kiminin bəxtinə güldü bu şəhər,*
*Kiminin bəxtinə küldü bu şəhər,*
*Mənim gözlərimdə öldü bu şəhər,*
*Gedək bu şəhərdən mənim ürəyim,*
*Məim bu şəhərdə kimim var axı, -*
*qənaətinə gəlsə də,Dərviş Vəli -*
*Vəli Xramçaylı nə ölür (nə də öləcək!),*
*nə sökülür (nə də söküləcək!),*
*nə də ki köçür (heç köçməyəcək də!) -*

çünki Vəli Xramçaylı əbədi sözlə bələnib, sözə bürünüb! Ruhu tükənməz əbədi sözün ifadəsi üçün həmişəcavan və həm də həzin, abırlı, ahəstə sədası ilə vergilənmiş əngin istedadın



tunc heykəlidi, üstəlik də... ruhlar nə qaçaq düşür, nə köçkün. Yaradıcı ruhların kəbinləndiyi çox az ünvanlardan biri də Gəncədən o yana "həqiqi Azərbaycan" sayılan məkandır. Adına "qazaxşina" deyilsə də, həzm olunmasa da... elmin gələn yeri, musiqinin səsləndiyi ocaqlar bəlli olan kimi. Təkzibolunmazdır. "Saz epoxadır" deyənlər haqlıdır:

saz səslənən ocaqlar Ölməz! Yıxılmaz! Sökülməz! - Yaradanın yaratdığını yaratdığı puç edə bilməz.

Ola bilər BU GÜN Vəli Xramçaylı göründüyü kimi yoxluqdadı, amma sabah və həmişə var olacaq: öz elininyurdunun söz sahibi olaraq!

***Qoy bu sahiblik səmimi sözün ifadəçisi qismində qəbul edilsin.***

***Qoy bu varlıq bir dərvişlik eşqinə sərgilənən çabalarda qəbul edilsin!***

***Qoy bu özgürlük miqyasca hamını heyrətləndirməyəcəkənginlikdə sayılsın!***

***Fəqət... istənilən halda qiyamçı ruhlar qələbə paradı keçirəndə tribunada səf-səf duran, əsgər əllərinin qaş üstünə düzlənən təzimlərini qəbul edənlərdən biri Vəli Xramçaylı olacaq. Vəli Xramçaylını bu gün qəbul etməyənləri sabah Vəli Xramçaylı qəbul edəcək. Bax, bu anı yaşadım Vəli Xramçaylının illərlə oxuduğum şeirlərində.***

***Bax, bu anlarla - qiyamçı ruhların asta-ahəstə etirazları-əndişələri ilə tanış oldum Vəli Xramçaylının illərlə oxuduğum şeirlərində.***

Qorxu, həyəcan, təlaş keçirmədən: dağ oynamadı yerindən, içim tərpənmədi - böyrək bağırsağa, mədə dalağa pərçim olmadı.

Pafos yaşatmadı, həyat yaşatdı, təskinlik və təsəlli oldu Vəli Xramçaylı! Rahatlıq gətirdi - bizim də əvəzimizə üsyanlar qoparan ruhların varlığını, bizim də olmalı olduğumuz yerlərdə boşluğumuzu dolduran qəhrəmanların ayıbımızı örtməsini çatdırdı. Və Vəli Xramçaylının hesabına şeirin-poeziyanın ehtizaz, eyforiya və ləzzət təamını daddıq, dadırıq. Və Vəli Xramçaylı bizləri aldatmadı, sözlə silahı əvəzləməyə provokasiya etmədi. Gopa basmadı - sözlə harda, kimə və necə qalib gəlməyi də, silahla hara, kimin üstünə getməyi də Vəli Xramçaylı gözəl bildiyindən, sözün də, silahın da funksiyasını, anlamını gözəl ifadə etdi!

***Odur ki,Vəli Xramçaylı öz yerindədi - öz sözünün taxt-tacındadı - sözlə əldə edib sözsüzlükdə itirdiyi yerlərdə yox!***

***Söz taxt-tac da gətirib, gətirir, gətirəcək!***

***Söz quruca şöhrət də gətirib, gətirir, gətirəcək!***

***Söz sadəcə və sadəcə, ömür də qazandırıb, qazandırır, qazandıracaq!***

Vəli Xramçaylı sözün ömür gətirdiklərindəndir, həyat yaşatdırdıqlarındandır. Çünki o heç vaxt sözün ömrünü kəsmədi, urvatdan salmadı, sözü satmadı. Baxın yazılanlara - Vəli Xramçaylıda bir giley varmı, alverçi "təfəkkürünə"- deyiminə rast gələ bilərsinizmi?

Əsla!

Vəli Xramçaylı sözlə oynamadı, söz oyununa girmədi, sözü oynatmadı!

Vəli Xramçaylı sözü söz kimi dedi, don geyindirmədi, sözü öz donunda təqdim etdi, sözün rənginə rəng qatmadı, nəfəsini yelçəkərə yönləndirib nəfəsini kəsmədi!

Vəli Xramçaylı tərifə gəlmir!

Vəli Xramçaylı tənqidə də gəlmir!

Vəli Xramçaylı gələndə... eşqlə gəlir! dərd-ələmlə gəlir, qucaq-qucaq sevinclə gəlir! Söz-söz, misra-misra, bənd-bənd gəlir.

Vəli Xramçaylının gəldiyini görən olub, getdiyini yox!

***Və sonda onu da deyim ki:***

***Vəlinin ÖZÜNÜ dostları çox istəyir, amma və lakin... o istəyi ifadə etmək dostlar üçün (elə düşmənlər üçün də) dilə gətirmək bir az ürkəklik gətirir!***

***Bax, bunun niyəsini bilmirəm!***

***Vəlinin SÖZÜNÜ dostları da çox istəyir, amma və lakin... o istəyi ifadə etmək dostlar üçün (elə düşmənlər üçün də) dilə gətirmək bir az ürkəklik gətirir, eymənirlər!***

***Bax, bunun niyəsini bilmirəm!***

***Vəlinin ZAMANINI dostlar da istəmir, düşmənlər də, amma və lakin... hamı dilə gətirir o istə(mədi)klərini!***

Bax, bunun da niyəsini bilmirəm!

Amma bildiyim doğrudandamı düzdür: insanlar istəklərini yox, etirazlarını bildrməyi kiməsə, harasa sevgi ifadəsi sayırlar?

Ürkəklik!? Bu qədərmi?

Onda... Vəli Xramçaylı ən qəhrəman dost, ən qəhrəman şair və ən qəhrəman eloğlu!

Sözüylə Özü bir olanlardan gözəl bir nümunə də bu ki... ürəyi dilindədir.

ƏN AXIRDA: Vəli Xramçaylı... ürəyi dilində (həm də qələmində) olan gözəl bir nümunə.

İstədim. Yazdım.

Vəlini belə istədim və Vəlidən belə yazdım!

***P.S. Şeirləri nümunə üçün deyil deyə, sitat gətirib özümə güvənclik göstərmədim. Həm də qırıq-qırıq yox, Vəli Xramçaylını birnəfəsə oxuyub birdəfəlik ləzzət almaqdan məhrum etmək istəmədim.***

***P.P.S. Vəli Xramçaylını gərək bütöv oxuyasan!***

***Səxavət Məmməd***

## Haqlı tələb: Zəngəzur dəhlizi



*Erməni tərəfini başa düşdük, xislətlərindən əlavə, seçki ərəfəsi çox şey deyəcəklər. Sizə nə olub? Şimaldan bir yerə ordu yetirmişik, cənubdan başqa yerə. Az qalıb bəziləri Zəngəzuru alsın. Arkadaşlar, Zəngəzur Qarabağ deyil. Qarabağın işğalı necə Azərbaycanın ərazi bütövlüyünə təcavüz idisə, Zəngəzur da Ermənistana elə sayılacaq. Azərbaycan dövləti o ərazilərə "tarixi torpaqlarımızdır" ifadəsindən başqa heç bir iddia ilə çıxış etməyib. Təəsüf ki, o əraziləri dünya Ermənistan kimi tanıyır. O ərazilərə silahla girişimiz Ermənistanın üzv olduğu KTMT-ni hərəkətə keçirmək anlamı daşıyacaq.*

*Tovuz hadisələri vaxtı hamı bir ağızdan deyirdi "boru kəmərlərini ələ keçirmək istəyirdilər", yazmaqdan yorulmuşdum ki, bu versiya boş və məntiqsizdir. Tovuz kor nöqtə idi. Sadəcə ermənilər kəşfiyyat məlumatı əldə edib (sızdırəlma ehtimalı da var), vaxt udurdu. 44 günə Qarabağın böyük hissəsini azad edən ordu Tovuz istiqamətindən girə bilməzdi? Sadəcə o addım qarşıya KTMT-ni çıxaracaqdı.*

*Bəli, Ermənistan Naxçıvana dəhliz açmaq üçün öhtəlik götürüb. Rusiya da qarant durub. Azərbaycanın tələbi haqlıdır. Ancaq bu o anlama gəlmir ki, Azərbaycan ora ordu yeridəcək. Mümkün olmayan şey yoxdur, ancaq risk son dərəcə çoxdur.*

*Ortada cəmi bir bəyanat var. O bəyanatın hüquqi qüvvəsi nə qədərdir, deyə bilmərəm. Dəqiq onu deyə bilərəm ki, müqavilə deyil.*

*Seçki bitənə qədər çox qəribə xəbərlər oxuyub, eşidəcəyik.*

*Reallıq odur ki, Rusiya sözünün üstündə durmur, silahlı toqquşma olacaqsa da, iki cəbhə açıb, riskə getməyə gərək yoxdur, öncə işğaldan azad edilməmiş yerlər var...*

## *İsraildən ilk: "Ağıllı ordu" yaradır...*



**İsrail tanklara və robotlara döyüş meydanlarında hərəkət etmək və düşmən hədəflərini tapmağa kömək etmək üçün süni intellekt üzərində işləyir.**

**"Afina" (qədim yunan tanrısı) adlanan süni intellekt "İsrael Aerospace İndustries" şirkəti tərəfindən yaradılacaq. "Afina"nın yaxın 10 il ərzində hazır olacağı bildirilir. Süni intellektin istifadəsini də araşdıran İsrail ordusunun zabitləri texnologiyanın bəzi aspektlərinin gələn ilə kimi istifadəyə hazır ola biləcəyini söyləyiblər.**

**MEHRİBAN**

(əvvəli ötən sayımızda)

# Nitqin yaranmasında insanların Tanrı təsəvvürünün rolu

## (Teolinqvistika-ilahi dilçilik)



*Həsən Əliyev*
*Politoloq, sosioloq*
*aliyevhasan@gmail.com*

**Əslində "for" sözü "Firon" sözündən götürülüb, mənası "işıq" deməkdir və dalğa-kontakt prosesi nəticəsində ümumbəşəri dillərə daxil olmuşdur.(Fara,Faros v.s.) Alimlər Qədim Misirdə olan piramidaların və Kəbənin adlarının həndəsi füqurların adlarından götürüldüyünü göstərirlər.Bu həqiqətən də belədirmi ? "Pir(r)amida" adı Firondan qalmadır."Pir" sözü "fir" sözünün latın variantıdır və bu məfhum hər iki dildə "parlaqlıq","od" mənasını bildirir."Ram" qədim bəşəri "günəş allahı"nın adıdır."İda" sözü isə latın dilində "idol" sözündən olub,"səcdə olunan,səcdəgah" deməkdir.("İdeal" sözü də bu məfhumdandır.) "Piramida" sözünün bütövlükdə mənası "Günəş allahının səcdəgahı" dır.Piramidanın quruluşunun özü də tonqala bənzədilmişdir.Piramidalara ərəb dilində "Ehramlar" deyilir.**

### *"Ehram" sözünə diqqət yetirsək,*

onun tərkibində "hor" və "ram" tanrılarının adlarının olduğunu görərik.Ellinizm dövründə Qədim Misir mifologiyası terminləri yunan və latın dillərinə uyğun şəkildə transkripsiya edilmişdir.Məs: "mövt"-ölüm sözü "mutu";"firr"-işıq sözü "pir","far"; "qəb"-torpaq,yer sözü "geo" kimi formalaşmışdır.

"Kub" sözünə də aydınlıq gətirək.Kəbə Qədim Misirin əyalətində yerləşmişdir.Qədim Misirin "Qibti" adı da buradan götürülmüşdür."Kəbə" Qədim Misirlilərin "Yer allahının evi" hesab olunurdu. Bu gün dəqiq elmlər də "Kəbə"nin yerləşdiyi ərazini yerin quru ərazisinin mərkəzi olduğunu təyin etmişdir."Qiblə" sözü də buradandır.Frazeoloji deyim olan "yerin orta göbəyi də" (göbək-kəbə) bu məfhumdandır."Kə" ən qədim insanların hamısının ibtidai təktanrıçılığının adıdır.Bu gün dilçi alimlər ən "ulu söz"ü - "Ka" olduğunu qəbul edirlər.Bu bir daha onu təsdiq edir ki,ilk sözlər hamısı tanrıların adlarındandır.Tanrının inancı olan inəyin (kəl) adı da, bütün dünya xalqlarının "ulu dil" sözlü olan "ka" məfhumundan yaranmışdır.Məs:kəl,korova,kou,kav,bakara və s.Kəbə sözünü izah edək.Qədim Misirlilərin dilində "kə-qə" (Tanrının adı); "bə" isə "beyt" -"ev" sözündəndir.Bütövlükdə "Allahın evi" mənasını bildirir. Kəbənin dini mənbələrdə adı - Beyti Xudavənd, Beytülətiq, Beytüllah, Beytülhəram və s.kimi getmişdir. Bu dini adlardan məlum olur ki, həqiqətən də Kəbə sözünün ikinci hecası "bə", ərəb dilində "ev" mənasını bildirən "beyt" sözündəndir. Buradan belə nəticəyə gəlmək olur ki, "Piramida" və "Kəbə" məfhumları adlarını həndəsi füqurlardan yox,həndəsi füqurlar öz adlarını formasına görə bu müqəddəs yerlərin adlarından almışlar. Müqəddəs Bibliyada Musa peyğəmbərin yaxın dostu və onun köməkçisi olmuş İisus Navin haqqında bəhs edilir. O, İsrail övladlarını Fironun təqibindən qoruyub, onları Qırmızı dənizdən keçirərək xilas olmalarında Musaya köməklik etmişdir.

"İisus" yunan dilində "kiminsə köməkçisi" mənasını bildirir. "Navin" isə, qədim ivrit dilində "peyğəmbər" mənasındadır. Məfhum bütövlükdə "Peyğəmbərin köməkçisi" kimi tərcümə olunur.Elə qədim qibti dilində də "nəbə"(nəbi) "peyğəmbər" deməkdir.

"İisus Xristos" məfhumu da eyni mahiyyəti daşıyır."İisus" - "köməkçisi", "Xristos" isə "Allah" mənasını bildirir. Bütövlükdə "Allahın köməkçisi" deməkdir.

***Ərəb dilində xristianlara "isəvi" və yaxud da, "nəsrani" deyilir."İsəvi" sözü adından məlumdur."Nəsrani" sözündəki "nəsr","nasir" ərəb dilində "kömək" , "kömək edən" kimi tərcümə olunur."Nəsrani" məfhumu - "xristianlar" mənasını bildirir.Xristian aləmində işlənən "İisus" kəlməsi, ərəb dilində "İsa" kimi səslənir. "İisus" sözünün "köməkçisi" kimi mənalanması, ərəb dilində olan "nəsrani" sözü ilə öz semantikasını tamamlayır.***

### *Azərbaycanın dahi dramaturqu Cəlil Məmməquluzadə*

"Ölülər" komediyasındakı "ölüləri dirildən" personajının adını məhz Şeyx Nəsrullah seçməsi, heç də təsadüfi olmamışdır.Əsərin məzmunundan görünür ki,Şeyx Nəsrullah özünü allahın yerdəki köməkçisi kimi təqdim etmək istəmişdir.Çünki,ruhlara can vermək yalnız allaha məxsusdur.

İndi isə insanlarda nitqin yaranmasında tanrı təsəvvürünün rolunu öyrənək.

***Məhşur sovet dilçisi N.Y.Marr hesab edirdi ki,sürü şəklində yaşayan insanlardan Homo sapiens (ağıllı insan) nitq etibarilə fərqlənməli idi və şübhəsiz,35-40 min ilə yaxın bir müddətdə təşəkkül tapmaqda olan "ulu dil" protodillər üçün lazımi bazaya malik olmalı idi.Həqiqətən də akademik N.Y.Marrın bu fikri çox realdır.Həmin dövrə qədərki insanların nitqini əvəz edən sürü şəklindəki "qışqırtıları" çox geridə qalmışdır.Hər bir tayfanın özünün müstəqil protodilinin söz bazası var idi.Maraqlıdır ki, bu günə qədər dünya ölkələrinin heç bir dilçi alimi nitqin yaranmasını "insanların tanrı təsəvvürü" ilə əlaqələndirə bilməmişdilər. Hələ 1920-30-cu illərdə akademik N.Y.Marr "Dil haqqında yeni nəzəriyyə"(Yafəs nəzəriyyəsi) elmi əsərində bir sıra yeni nəzəriyyələr irəli sürmüşdür. O, bütün dillərin dörd ünsürdən (sal,ber,yon,roş) əsasında yarandığını hesab etmişdir.***

### *Əslində*

N.Y.Marr bu fikri dillərin müqayisəli-tarixi üsulla təhlili əsasında söyləmişdir.Həqiqətən də onun hesab etdiyi bu ünsürlərə bütün dillərdə rast gəlinir.

Əslində alimin qeyd etdiyi hər dörd ünsür tanrıların və inancların adlarından yaranmışdır."Sal" - latındilli xalqların "sol"-"günəş" sözündən,"ber" ünsürü Fironların dövründəki "firr" sözünün latın dilinə"per","ber" şəklində keçməsindən, "yon" ünsürü türklərdəki "günəş tanrısı" sözündən,"roş" ünsürü isə dünyəvi tanrı sayılan "günəş tanrısı" - "Ra"nın adından yaranmışdır.

***Həqiqətən də bu dörd ünsürün hamısı "günəş tanrılarının" adından yaranmışdır. Lakin akademik N.Y.Marr həmin ünsürləri psixoloji cəhətdən Tanrıçılıqla bağlaya bilməmiş və bunların mifoloji leksika olduğunu duymamışdır.Bu səbəbdən də o, özünün nəzəriyyəsini davam etdirən alimlər üçün elmi cığır aça bilməmişdir. Əgər tanrıçılığın yaşı, ən qədim insanların yaranışı ilə eyni vaxta düşürsə və Allah insana heyvanlardan fərqli olaraq, nitq qabiliyyəti veribsə, deməli insanlar biri-biri ilə daima ünsiyyət axtarışında olmuşdular. Qədim sözlərin ibtidası,ən qədim insanların təsəvvür etdikləri tanrılara qoyduqları bir-iki hərfdən ibarət olan adlardan yaranmış və tədricən onlar öz söz bazalarını qəbul etdikləri yeni tanrıların və inancların adları ilə zənginləşdirmiş , insan adlarından tutmuş,onları əhatə edən coğrafi ərazilərə,məişət əşyalarına,ov alətlərinə qədər bu ibtidai sözlərdən istifadə etmişdilər.***

Həmişə dilçilər arasında mübahisə doğuran feilin isimdən, yoxsa ismin feildən əvvəl əmələ gəlməsinin məntiqi cavabını insanın tanrı təsəvvürü əsasında vermək mümkündür.Əgər Tanrının adı isimdirsə və ilkin sözlər tanrının adından yaranıbsa,deməli isim birinci yaranmışdır.

Aparılan araşdırmalar nəticəsində dilçi alimlərin bir qismi dillərin hamısının bir nöqtədən başlandığını iddia edirlər və bunu "Ulu dil" adlandırırlar.Bir qrup alimlər isə, müxtəlif sistemli (genetik cəhətdən qohum hesab olunmayan ) dillərdəki eyni leksik,morfoloji vasitələri dalğa nəzəriyyəsi,kontakt nəticəsi kimi izah edirlər. Azərbaycanın dilçi alimi,professor Qəzənfər Kazımov "Azərbaycan Dilinin Tarixi" əsərində Qırğız yazıçı-alimi Oljas Süleymanovun özünün fantastik saydığı fikri oxuculara belə çatdırır: ***"Fantastik bir fikir söyləyim.Bizə məlum olmayan bir xalq eramızdan 4-5 min il əvvəl qılıncın və dinin köməyi ilə bəzi Avropa və bəzi Asiya xalqlarını fəth edir və yüz illər boyu davam edən əsarət dövründə mənşəcə müxtəlif dillərdə ümumi leksik təbəqə və bununla yanaşı,qeyri müəyyən miqdarda qrammatik göstəricilər yaradır." Oljas Süleymanovun bir qeyri müəyyən substrantın ecazkar gücündən danışması dillərin bir kökdən-"Ulu dil"dən yarandığını qəbul etmir.Onun bu müddəası XIX əsrin ortalarında dilçi alim A.Şleyxerin "Ulu dil" nəzəriyyəsi əsasında yaratdığı "Şleyxer ağacı" modelini təkzib edir.Əslində O.Süleymanovun "fantastik" hesab etdiyi bu fikir həqiqətdir.Əgər alim özünün nəzəriyyəsində olan "fantastik substrantın" yox,özünün də hesab etdiyi 4-5 min il əvvəl mövcud olmuş, dünyaya hökmdarlıq etmiş Fironun sülaləsini konkret olaraq təqdim etsəydi, o, məqsədinə çatmış olardı.***

### *Bütün dillərdə*

hər bir çoxhecalı sinonim sayılan isimlər və feillərin özlərinin ilkin daxili strukturu bir neçə sinonim sözlərdən yaranmışdır. Bir çox dilçi-tədqiqatçı alimlər çoxhecalı isim və feillərin ilkin strukturunu rekonstruksiya edərkən, onların praformalarını tapmadıqda, sadəcə olaraq, söz hissələrinin "daşlaşmasını" əsas gətirirlər.Əslində bu düz fikir deyildir,Hər bir sadə sözün ayrılıqda mənası olduğu kimi, çoxhecalı sözlərin daxilində olan söz vahidlərinin də, ayrı və ya oxşar mənaları vardır.Necə ki,müasir dövrdə yaranan çoxhecalı sözlər kimi. Dilimizdə nəinki çox hecalı sözlər,hətta təkhecalı qədim sözlər diqqətlə tədqiq olunarsa, onların özlərinin də etimoloji cəhətdən iki sinonim sözdən yaranması ortaya çıxar.Bütün dünya dilçiləri ilkin söz köklərinin CV(samit,sait),CVC (samit,sait,samit),V (sait) və VC (sait,samit) quruluşunda olduğunu ehtimal edirlər.Lakin bu günə qədər türk dillərinə keçən CC (samit və samit) kök sözləri haqqında heç bir araşdırılma aparılmamış və bu barədə heç bir fikir irəli sürülməmişdir.Hətta Avropa mənşəli xalqların dilçi alimləri də, öz ana dillərində olan CC (samit,samit) tərkibli sözlərin mənşəyini öyrənə bilməmişdilər.Əslində C+C(samit+samit)-dən yaranan ulu sözlər tanrı və inancların adından sait düşümü ilə yaranan sözlərdirlər. Məs:kral,krest,kredo,kreml və s.sözlər "kor"-"Qor tanrısı"nın adından yaranmışdır.

### *Dünya dilləri arasındakı qohumluq*

əlaqəsini müqayisəli-tarixi üsulla tədqiq edərkən, burada dilçilik hadisəsi olan paralelizmin əsaslı rol oynadığının şahidi oluruq.Biri-biri ilə qohum olmayan,coğrafi ərazicə uzaq məsafədə yaşayan,heç bir müasir texniki vasitələrin mövcud olmadığı bir dövrdə, ayrı-ayrı qohum dil ailəsinə daxil olan xalqların dillərində semantik paralelliklər ortaya çıxır ki, onun da nüvəsində mifoloji terminlər durur.

Mifologiya ilə məşğul olan alimlər dünya mifologiyasının məcmusunu külliyat şəklinə salmış və onun zəngin xəzinəsini yarada bilmişdilər. E.M.Meletinskinin baş redaktorluğu ilə tərtib olunan "Mifoloqiçeskiy slovar.Moskva 1990" mifoloji ensiklopediyasında mifoloji məzmunlar dolğun şəkildə verilsə də, mifoloji leksikaların etimologiyasının təsnifatı verilməmişdir.

***Dünya dillərinin mifoloji leksikasında paralelizm elə bir düzüm almışdır ki,buna ancaq heyrət etmək mümkündür.Bu, Allah tərəfindən yalnız bütün insanlara verilən şüurun, təfəkkürün,idrakın,məntiqin psixoloji cəhətdən bərabər şəkildə paylanmış məhsuludur.***

Hər bir xalqın insanının dili, onun şüuru qədər qədimdir.Onun yaşı qədər dili də, onunla yaşdaşdır.Bütün xalqların dilinin paleontologiyası vardır və onların dili psixologiya,tarix,arxeologiya,folklor,etnoqrafiya,antropologiya, toponimika,teolinqvistika və s. elmlərlə öyrənilir.

Bu gün Azərbaycan dilinə müəyyən tarixi dövrlərdə kontakt dilçilik hadisəsi nəticəsində çoxlu sayda əcnəbi sözlər daxil olmuşdur.Azərbaycan xalqının dilinin türk dillərinin oğuz qrupuna daxil olan dillərlə qohum olması, həmin dil ailəsinin başqa qruplarına daxil olan dillərlə uzaq qohumluğu onun dilinin "qohum ulu dil"dən törəməsinini sübut edir.Bu qədər dil resursu olan xalqın dilində bu gün nəinki hərfləri dəyişməklə yenilik etmək, hətta keçmə sözlərin əksəriyyətini də, öz ulu sözlərimizlə əvəz etmək potensialımız vardır.

Məqaləni optimist ruhla bitirmək istərdim.2013-cü ildə Bakıda "Kitabi -Dədə Qorqud" abidəsinin açılışı mərasimində hörmətli Prezidentimiz cənab İlham Əliyev çıxışında qeyd etmişdir ki, "Bu abidə bütün türk dünyasını birləşdirəcək və XXI əsr türk dünyasının əsri olacaqdır".

**Ədəbiyyat:**

**1. Qəzənfər Kazımov. Azərbaycan Dilinin Tarixi. TEAS Press Nəşriyyat evi, 2017, 680 s. (Türkiyədə çap edilib.)**
**2.Azərbaycan Sovet Ensiklopediyası.(ASE) 10 cilddə**
**3. Ərəb və Fars Sözləri Lüğəti.(Azərbaycan klassik ədəbiyyatını oxumaq üçün) Bakı. Yazıçı 1985**
**4. И.М.Мелетинский, Мифологический словарь.Москва "Советская енсиклопедия" 1990**
**5.Baba Məhərrəmli. Azərbaycan Dilində İsim Kökləri. Bakı-"Elm"-2018**
**6. Постовалова Валентина Ильинична. Теолингвистика в современном гуманитарном познании: истоки, основные идеи и направления 2012**
**7. Александер ЭАДОМСКЫ. Основные направления теолингвистических исследований в современном славянском языкознании 2015**

---

# Q.Nəcəfzadə: "Müharibəni hiss etdiyin kimi yaz..."



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

**Çevrəsində, ətrafında baş verən olaylara, ictimai-siyasi hadisələrə fərqli prizmadan yanaşmaq Qəşəm Nəcəfzadənin şeirlərinin səciyyəvi cəhətlərindəndir. Yaradıcılığının erkən dövründə də belə olub, indi də belədir. Tanınmış şair-publisist, AYB-nin "Azərbaycan" jurnalında poeziya şöbəsinin müdiri Qəşəm Nəcəfzadə çoxsaylı şeir, esse, hekayə və elmi-publisistik kitabların müəllifidir. Əsərləri türk, rus, ingilis, alman, polyak, fars, gürcü və özbək dillərinə tərcümə edilib. Tənqidçilər onun yaradıcılığını realist üsluba aid edirlər. Şairin son dövr yaradıcılığında epik, modern və metafizik şeirlər də üstünlük təşkil edir.**

Onun yaradıcılığı barədə ədəbiyyatşünas alimlər, tənqidçilər müxtəlif vaxtlarda fikirlər söyləmişlər. Tanınmış ədəbi-tənqidçi, professor Vaqif Yusiflinin şərhlərindən birində oxuyuruq: "Q.Nəcəfzadənin bir şair kimi özünəməxsusluğundan söz gedərsə, bunu qeyd etməyi vacib bilirik ki, hər bir şairi başqa bir şairdən ayıran, fərqləndirən, məxsusilik qazandıran cəhətlər olur. Fikrimizcə, Qəşəmin özünəməxsusluğunu onun bu bənzətmələr sərgisini xatırladan və assosiativ təfəkkürdən doğan bəzi şeirləri ilə yanaşı, "Ay Vətən!", "Öləndə, öləsən...", "Adam az qalır...", "Kəndə qayıdanda", "Qorxma" şeirlərini də xatırlatmaq lazım gəlir... Deməli, bənzətmələr müəyyən bir obrazın tam və dolğun təcəssümünə xidmət edirsə, o zaman şeirdə konkret bir fikir də hasil olur."

Əvvəldə qeyd etdiyimiz kimi, müəllifin mövzu və problematikaya münasibəti fərqlidir, şeirləri və yaratdığı obrazlar bir-birinə oxşamır. Şair uğursuzluğa, yol verdiyimiz yanlışlara, qüsurlara bəzən tənqidi münasibət bəsləyir, baş verənlər üçün özümüzdə də günah, suç axtarır. "Ay Vətən!" şeiri bu baxımdan fikrimizə sübutdur:

***Təndir çörəyini kökə elədik,***
***Torpağını seçdik, bölgə elədik.***
***Böldük səni tikə-tikə elədik,***
***Bacın ölsün, anan ölsün, ay Vətən!***

Göründüyü kimi, şair milli-mənəvi dəyərlərimizə, qədim adət-ənənəmizə biganə münasibətlə, məmləkətin yad əllərlə zaman-zaman bölgələrə bölünməsi, hissə-hissə, parça-tikə edilməsi, "Göyçə gölün Sevan gölünə çevrilməsi" ilə heç cür barışa bilmir:

***Mən bilmirəm, axşam nədi, gün nədi?***
***Qız-gəlinin əsir-yesir gündədi.***
***Şuşam getdi, bir balam var, dinmədim,***
***Mənim kimi balan ölsün, ay Vətən!***

Birinci Qarabağ savaşında erməni canilərin ələ keçirdiyi yurd yerlərimizin dağıdılması, viran edilməsi, mülki əhalinin, qız-gəlinin əsir-girov götürülməsi, Qarabağın incisi Şuşanın və digər şəhərlərimizin işğal olunması müəllifin yaralı misraları ilə izhar edilir. Şair Vətən oğullarını ayağa qalxmağa, düşmənə dərsini verməyə, haqsızı öz qanlı əməlinə görə cəzalandırmağa səsləyir:

***Al qılıncı, vur düşməni, böl iki,***
***Bu düşmənlər səni elə bölüb ki...***
***İnnən belə şeir vaxtı deyil ki,***
***Bu şeiri yazan ölsün, ay Vətən!***

"Qarabağ şikəstəsi" şeirində isə müəllif düşmən tapdağında olan, nisgilli qürbət ömrü yaşayan Şuşamızın adının yeri gəldi-gəlmədi, müxtəlif iaşə müəssisələrinə, kafe-restoranlara verilməsi ilə heç cür razılaşmır, bunu bir aşağılama hesab edir. Vaxtilə "şahları diz çökdürən", kafirlərə təslim olmayan məğrur, vüqarlı, havası can dərmanı, büllurtək təmiz, şüşətək şəffaf Şuşamızın indi bu durumda qalması şairin ürəyini didib-parçalayır:

***Mənim Şuşamı hər şeyə bənzətməyin,***
***Mənim Şuşamı bu qədər kiçiltməyin.***
***Qoyun Şuşam qalsın Şuşalığında,***
***Qoyun Şuşam qalsın şüşəliyində.***

Zorla düçar olduğumuz qanlı savaşın həyatımıza gətirdiyi fəlakətlər, üzüntülər, insanların taleyinə vurulan zərbələr, sağlamlığını itirib şikəst olmuş insanların faciəsi şairi daim düşündürüb, bu ağrılı fikirlərini şeirlərində məharətlə poetikləşdirib. "Əlil arabası" şeiri fikrimizə sübutdur:

***Əlil arabası ilə uşaq kolyaskası***
***Yanaşı addımlayır...***
***İndi təkər ayaqlar.***

Qəşəm Nəcəfzadə "Tapşırıq" adlı şeirində isə Vətən oğluna xitabən itkilərimizin əvəzini çıxmaq, yurd yerlərimizi işğaldan azad etmək, müharibənin vurduğu yaraları sağaltmaq üçün məhz bu gün qətiyyətli addım atmağı tövsiyə edir. Şairin qanlı savaşları yenmək, "müharibə" sözünü Yer üzündən silmək üçün oğullarımıza verdiyi nəsihət qürurvericidir:

***Bu döyüşdə Qırat yox,***
***Dürat yox.***
***Tankı sürməyi öyrən, oğlum,***
***Tankı sürməyi öyrən!..***
***Bu döyüşdü, silahına uyuş bir,***
***Düşmən çoxdu, silah birdi, qayış bir.***
***Avtomatın tətiyinə yığış bir,***
***Dərə dilini öyrən, oğlum,***
***Dərə dilini öyrən!***

Şair illərdən bəri həsrət qaldığımız, zəbt edilmiş yurd yerlərimizin xiffətini, yamyaşıl, gül-çiçəkli kövşənində otladığı doğma kəndinə tamarzı qalan, sahibinə vəfalı atın timsalında belə çatdırır:

***Ağbulaqlı Tahirin atı***
***Gecənin birində***
***Dönüb küləyə,***
***Getdi ön cəbhəyə...***
***Kimi dedi***
***At doğulduğu kəndi görübmüş***
***Yuxusunda.***
***At qayıtmadı,***
***Yerinə bir şeir qayıtdı...***

Qəşəm Nəcəfzadə Vətən mövzusunda, müharibə qurbanları haqqında bəsit, cılız, alınma sözlər doldurulmuş əndrəbadi şeirlər yazan şairciklərə üzünü tutub "Vətənimizi belə şeirlərlə kiçiltməyin, ya da qələminizi sındırın" deyir. Ana yurdumuzu belə bəsit şeirlərdən xilas etməyə, ağılla düşünüb yazmağa, uşaqlara həyatımızı zəhərləyən bu qanlı münaqişənin əsl mahiyyətini erkən yaşlardan doğru-dürüst anlatmağa çağırır:



***Ayağınızla yox,***
***Gözlərinizlə yeriyin...***
***Uşaqlara "düşmən" sözünü***
***düşünmək kimi anladın.***

Dünyada gedən bütün münaqişələrə nifrət etdiyini, bu hərb qovğalarının Yer üzündən silinəcəyi, həmişəlik bitəcəyi, insanların ölüm saçan müharibə kabusu ilə bir daha üzləşməyəcəyi günü arzuladığını dilə gətirən misraları da var Q.Nəcəfzadənin:

***Mənə silah verməyin,***
***satıb kitab alacam...***
***Şeir oxuyacam əsgərlərə***
***səhərdən-axşamacan.***
***Məni müharibəyə aparmayın...***
***Müharibəni oyuncağa çevirəcəm...***

Q.Nəcəfzadənin "Bir gecənin işi" adlı şeirini siyasi lirikanın dəyərli nümunəsi saymaq olar. Atəşkəs əldə olunsa belə, buna heç vaxt düzgün riayət edilməyən dövrə, münaqişənin qan-qada, hərbi qovğa mərhələsindən soyuq müharibə müstəvisinə keçdiyi bir zamana həsr edilmiş bu şeirdə Qarabağ dərdimizin çözülməsi ilə bağlı yaşanan çətinliklərdən söz açılır:

***Biz Qarabağı öz əlimizlə aparıb***
***ATƏT-ə nahaq verdik.***
***İndi erməni verər, ATƏT verməz.***
***BMT-yə nahaq dedik "dur bizə gəl",***
***"gey təzə gəl..."***

Bu şeirdə uzun illərdən bəri Dağlıq Qarabağ probleminin həllinə laqeyd yanaşan, birtərəfli mövqe tutan, bizi dolaşığa salan, azdıran yollar göstərməklə otuz il vaxt qazanan ATƏT-in Minsk Qrupunun məlum münaqişənin həlli ilə bağlı qətiyyətli addım atmadığı, BMT-nin dörd mühüm qətnaməsinin yerinə yetirilməsi üçün heç bir səy göstərmədiyi satirik dillə, kəskin sarkazmla nəzərə çatdırılır. Şair onu narahat edən, düşündürən "Avropa bizim üçün nə iş gördü ki?" sualına qeyzlə, rişxəndlə belə cavab verir:

***Nə oldu, Avropa əlimizə güllə verdi, nədi?***
***Yoxsa yaxamızdan medal asdı?!***
***Dünyaya hay-haray saldıq,***
***Qarabağı aparıb dünyanın ovcuna qoyduq...***
***Dünya hələ də düşünür...***
***Deyirəm:***
***Aparıb necə müşkülə çevirdik***
***bir gecənin işini...***

Həmin vaxtlarda Vətən müharibəmizin, 44 günlük möhtəşəm Zəfər savaşımızın dağlar, dəryalar boyda sevinci hələ yaşanmamışdı. Əgər belə olsaydı, Qəşəm Nəcəfzadə bir neçə sətir öncə misal gətirdiyimiz şeirinin son misrasındakı "bir gecənin işi" yerinə, yəqin ki, "44 günün işi" ifadəsini yazardı. Zəfər savaşımızın səsi-sorağı dünyaya yayılan günlərdə, hamının Qarabağ cəbhəsindən gələn xəbərlərə diqqət kəsildiyi bir vaxtda şairin Artkaspi.az saytında "Müharibə ətirli şeirlər" adlı yazısı dərc edilmişdi. Müəllif qeyd edirdi ki, "ordumuzun qazandığı Qələbə, hər şeydən əvvəl, düşmənə bir əxlaq dərsidir. Torpaqlarımızı azad etməyin məramında böyük bir mədəniyyət və əxlaq yaşayır. Döyüş taktikamızın sivil, ən müasir savaş texnologiyaları əsasında aparılması dünyaya nümunə kimi göstərilir. Mülki əhaliyə atəş açmadan irəliləyən döyüşçülərimiz düşmənin yalnız silah-sursat anbarlarını, döyüş texnikasını məhv edir. Döyüş əxlaqımız insanpərvərliyə, minillik mənəvi-əxlaqi dəyərlərimizə, haqq uğrunda mübarizəmizə, gücümüz isə iqtisadiyyatımıza və dünyada apardığımız məqsədyönlü siyasətimizə söykənir."

Q. Nəcəfzadənin fikrincə, bu gün Zəfər şeirləri yazmaq vaxtıdır. Müharibə şeiri kampaniya xarakterli olmamalıdır. Birinci Qarabağ savaşı zamanı bu qəbildən olan şeirlərimizdə kədər notu güclü idisə, ikinci müharibədə Qələbə əzmi üstündür və bu üstünlük müharibə şeirimizin canlı, orjinal yaranmasına xidmət edir. Çünki buradakı paralellik şeirdəki əzmkarlıqla, ordu coşqusu ilə üst-üstə düşür...

Müharibə şeiri yazmaq üçün səngərin barıt qoxusunu udmaq lazımdır, torpağın qoxusu burnuna dəyməlidir və sən səngərdə əsgərlə birgə "olum" və "ölüm" həyəcanını yaşamalısan. Bax, onda şeirlərindən müharibə ətri gələcəkdir.

**Şair söyləyir ki, "bu gün ordumuz nəinki Qarabağı, bütövlükdə Qafqazı müharibədən xilas edir. Hətta ermənini də. Ermənini erməniliyindən xilas etməyin zamanı gəlib. Müharibəni necə hiss edirsənsə, eləcə, heç nə əlavə etmədən, artırmadan, olduğu kimi yaz. İstər pafoslu olsun, istərsə pıçıltılı, fərq etməz. Olduğu kimi, hiss etdiyin kimi yaz. Gözəl alınacaq".**

# “Saxta mafiyadan” saxta təfərrüatlar




*Boş vaxt tapanda kitab dükanlarına göz gəzdirib istədiyim kitabları alıb oxumağa çalışıram. Şakərimə uyğun olaraq bu dəfə "Koroğlu" metrosu yaxınlığında yerləşən kitab dükanında idim. Təzə çıxmış kitablara baxırdım. İki gənc xanım satıcıdan kitiab soruşurdu. Xanım satıcının səsi diqqətimi cəlb etdi. "Hə, təzə gəlib. Turk yazıçısıdır. Abdulkadır Özkan ".*

*Kitabı əlində tutmuşdu. "Oxumuşam, çox yaxşı kitabdır. Oxumaq məsləhətdir"-dedi.*

*Kitaba bu qədər həvəs olduğuna görə çox sevindim. Əvvəlki kitab oxuma ənənəsi qayıdır deyəsən? -fikirləşdim. Qızlar sakitcə hərəsi bir kitab götürüb çıxdılar. Mən də yaxınlaşıb kitabı əlimə alıb, xeyli vərəqlədim Abdulkadır Özkanın "Saxta Mafiya" kitabı. "Qanun" nəşrlər evində dərc olunmuşdu. Yazıçımız Aslan Quliyev Azərbaycan türkcəsinə uyğunlaşdırmışdır.*

*Müəllif yaxın dostumuz idi. Gənc olsa da imzası Azərbaycan ədəbii mühitində çoxdan tanınır. Bir neçə Azərbaycan yazıçısının əsərlərini Türkiyə türkcəsinə uyğunlaşdırmışdır. "Nə əcəb mənim xəbərim olmayıb"? - fikirləşdim.*

*Kitabı həmin gün oxudum və öz təəssüratlarımı oxucularla tanış etmək istəyirəm. Əsərin müəllifi çox istedadlı bir gəncdir. Roman həyata yenicə atılmış gənclərin həyatından bəhs edir. Onların düşüncəsini, həyata baxışını çox ustalıqla qələmə alıb. Maddi sıxıntı keçirən İnstitut tələbələri olan gənclər çətinliklərdən qurtulmaq üçün müəyyən yollar axtarırlar. Çox qəribədir. Hələ hansı yolda olduqları, getdikləri bu yol onları haraya qədər aparacığı onlar üçün hələ maraqlı deyil.*

*Düşüncələri safdır, amma getdikləri yolun ağırlığını başları çəkəndən sonra dərk edirlər. Amma onda gec olur.*

*Əsərin əsas qəhrəmanı Mete adlı bir gəncdir. Bir necə qurp gəncləri ətrafında birləşdirə bilib. Həmin qurpların harda və necə istifafə olunacağından məharətlə istifadə edir. Bir zaman özlərini mafiyanın içində görürlər.*

*İlk səfərləri maşın alveri adı ilə Kəhrəmanmaraşdan Batumiyədir. Xeyli sərgüzəştləri olur. Mete Batumidə Vahid adında azərbaycanlı ilə tanış olur. Söhbətləri yaxşı alınır. Bir-birini yaxından tanıdıqdan sonra Vahid Meteni Bakıya dəvət edir.*

*Mete Türkiyəyə qayıtdıqdan sonra Bakıya getməyi planlaşdırır. Hələ təyəarədə ikən Mete necə qəbul olunacağını düşünsə də, Bakı Hava Limanında Vahid tərəfindən çox mehribanlıqla qarşılanır. İlk olaraq şəhərlə tanış edir. Mete üçün maraqlı olan yerlərə aparır.*

*Sumqayıtda Vahidin ailəsi Meteni doğma adamı kim qarşılıayır, bu Meteni məmun edir. Qonağın şərəfinə yarpaq dolması hazırlanır. Bu xusisi qeyd olunur. Mete qonaqpərvərlikdən çox məmun qalır.*

*Vahidin atası dünya görmüş ağsaqal Mete çıxan ərəfədə, tam açıq deməsə də, üstörtülü olar düzgün yola qayıtmasını məsləhət bilir. Bakıdan Kahramanmaraşa qayıtdıqdn sonra Mete görüləcək işlərinin əhatə dairəsini genişləndirə biliblər.*

*Bir neçə əyləncəli səhnələr, ünsiyyət qurduqları adamlarla münasibətləri bədii cəhətcə çox ustalıqla verilib. Bəzən, gənclər arasında münasibətlər korlanıb münaqişəyə cevrilir. Aralarında dava-dalaşa səbəb olur. Sözün ötkəmliyi yumruğun ötkəmliyindən keçir.*

*Əsərdə maraqlı səhnələr çoxdur. Oxucular oxuyub özləri nəticə çıxarsalar daha yaxşıdır.*

*Mafiyanın adı olsa da özü yoxdu. Əsər reallıqla qeyri rallıq arasında cəriyan edir. Mətin tam bitkindir. Lakonik və yığıcam bir əsərdir. Qarşıya qoyulan məsələlər öz bədii, estetik həllini tapa bilmişdir.*

*Müəllifdən yeni romanını gözləmk ümidi ilə uğurlar diləyirəm.*

**Qalib Şəfahət**

# AZƏRBAYCAN ELMİNİN FENOMENAL ŞƏXSİYYƏTİ

## AKADEMİK HƏTƏM QULİYEVİN ÖMRÜNÜN 75-Cİ BAHARINA REKVİYEM

(əvvəli ötən sayımızda)

**Hətəm müəllim zamanında heç vaxt insanlara öz isti, doğma münasibətini əsirgəməyib, hər zaman onların qeydinə qalıb. Onlara dəyərli və ağıllı məsləhətlər verib. Ona həsr olunan məqalələrdə qeyd olunurdu ki, Hətəm müəllimin ədəbiyyata, yazıya, jurnalistikaya sayğısı çox idi. Onun Musa Yaqubun, Ramiz Rövşənin, Vaqif Bəhmənlinin, Əşrəf Veysəllinin, Seyran Səxavətin, Çingiz Əlioğlunun, Umud Rəhimoğlunun, Zakir Fəxrinin və digərlərinin poeziyasına, İlyas Əfəndiyevin, Elçinin bir-birindən maraqlı əsərlərinə, həmçinin Qarabağ muğamına, Ağabalanın, İslam Rzayevin, Süleyman Abdullayevin səsinə heyranlığını heç vaxt unutmaq olmaz.**

Şair-publisist Əbülfət Mədətoğlunun təbirincə desək Hətəm müəllim kimi insanları Allah doğulduğu elə, obaya, yurda, məmləkətə böyük sevgiylə hədiyyə edir. Onların timsalında həmin el-obaya, məmləkətə, millətə sayğısını bürüzə verir. Hətəm müəllim kimi insanlar dünyanın dayanıqlığını, tarazlığını qorumaq üçün doğulanlar sırasında yer tutmağa haqq ediblər.

Bəli, professor Hətəm Quliyev Qarabağın aydınlarının ən aydınlarından biri, ziyalılarının ən ziyalılarından biri idi. Akademik Hətəm müəllim qeyrətli, qayğıkeş, mərd vətəndaş idi. Qarabağı, Azərbaycanı öz canından da artıq sevirdi. Füzuli ziyalılarının ağsaqqalı kimi 44 günlük ikinci Qarabağ müharibəsinin ilk günlərində Ali Baş Komandana müraciət ünvanladı. 08 oktyabr 2020 ildə President.az saytında dərc olunan Azərbaycan Respublikasının Prezidentinə "Akademik Hətəm Quliyevdən, Füzuli, Azərbaycan" Müraciətdə deyilirdi ki, "Hörmətli cənab Ali Baş Komandan!

İndiki mürəkkəb və şərəfli dövrdə Sizə bildirməyi özümüzə borc bilirik ki, biz Füzuli ziyalıları bütün xalqımız kimi Sizinlə fəxr edir, qürur duyur və Sizin daxili və xarici siyasətinizi tam olaraq dəstəkləyirik. Ali Baş Komandan kimi Sizin əmrinizlə işğalçı Ermənistana qarşı artıq bütün cəbhə boyu genişmiqyaslı əks-hücum əməliyyatına başlanılmışdır. Qəhrəman Azərbaycan Ordusunun əzmi və şücaəti nəticəsində bir çox ərazilərimiz, o cümlədən Füzuli rayonunun işğal altında olan bir çox kəndləri də erməni qəsbkarlarından təmizlənmişdir. Bu parlaq qələbə heç şübhəsiz ki, Sizin yürütdüyünüz qətiyyətli siyasətin və nail olduğunuz yüksək ordu quruculuğunun nəticəsidir.

Azərbaycan Silahlı Qüvvələri həqiqətən də bölgənin ən qüdrətli ordusudur və hərbçilərimiz qısa zamanda ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə, işğalçılara tutarlı cavab verməyə qadirdirlər.

Cənab Prezident, Sizi və xalqımızı əmin edirik ki, Füzuli ziyalıları və rayonun bütün əhalisi hər zaman olduğu kimi bu həyəcanlı, məsuliyyətli və şərəfli anlarda da Sizin və dövlətimizin, ordumuzun apardığı haqlı mübarizəni ürəkdən dəstəkləyir və müdafiə edirik. Erməni təxribatı nəticəsində dünyasını dəyişən vətəndaşlarımıza Allahdan rəhmət, yaralılara şəfa diləyirik, ordumuzdan isə yeni zəfər müjdələri gözləyirik.



Cəbhədən gələn hər növbəti qələbə xəbəri bütün azərbaycanlılar kimi, bizlərdə də böyük qürur hissi oyatmış, vətənpərvərlik duyğularını qüvvətləndirmişdir. Azərbaycan əsgərinin tezliklə qələbə bayrağını Şuşaya, Xankəndiyə sancmaqla tarixi ədaləti bərpa edəcəyinə hər bir Azərbaycan vətəndaşı kimi biz də ürəkdən əminik.

İşğal altındakı torpaqlarımızın düşmən tapdağından azad ediləcəyi günü hamımız səbirsizliklə gözləyir, o günün uzaqda olmadığına bütün varlığımızla inanırıq. Biz həmişə Sizinləyik, cənab Prezident!

Biz Sizinlə qürur duyuruq, cənab Ali Baş Komandan! Biz Sizin arxa cəbhədə əmrinizə hazır olan əsgərlərinizik! Var olsun Azərbaycan, var olsun Qarabağ! Qarabağ Azərbaycandır!"

... Nə gözəl ki, o vaxtdan bircə ay keçdi və Hətəm müəllimin həmin arzularını Cənab Ali Baş Komandan həyata keçirdi. İndi yollar açıqdır.

Biz Onun 75 illik yubileyini həmin torpaqlarda - Şuşada, Füzulidə ONSUZ da olsa belə keçirəcəyik! Akademik Hətəm müəllim həm də gözəl və mehriban bir ailənin başçısı idi. Xeyirxah ata, mehriban baba idi. Hətəm müəllim çox ünsiyyətcil və incə yumora malik şəxs idi. Ətrafdakı insanlara, hadisələrə qarşı obyektiv fikir söylərdi. Əhəmiyyətli hesab etdiyi məsələləri cəsarətlə gündəliyə çıxara, onu müdafiə edə bilirdi. Onun ətrafında öz həmyaşıdları ilə bərabər, həmişə orta və gənc yaşlıları da görmək olardı. O, Azərbaycan elminin fenomenal şəxsiyyətlərindən biri idi.

Biz, bu gün, qürurla deyə bilərik ki, Hətəm müəllim elmin zirvələrinə qalxmış, öz sözünü demiş bir alim idi!

Sevimli müəllimimiz, dostumuz, qardaşımız, əzizimiz Hətəm müəllim! Biz hamımız Sizi sevirdik, Sizi böyük alim və gözəl, xeyirxah insan kimi tanıyırdıq.

Sizin 75-ci ad gününüzü Sizinlə birlikdə qeyd etmək bizə nəsib olmadı. Biz Sizdə həmişə gənclik enerjisi, hərarəti, istəyi duyurduq.

Biz Sizi Azərbaycan və dünya elminin inkişafında böyük nailiyyətlər qazanmış, silinməz izlər buraxmış böyük alim, gözəl insan kimi həmişə xatırlayacağıq!

***...Çox təəssüf ki bizim ...AZƏRBAYCAN ELMININ FENOMENAL ŞƏXSİYYƏTİ - AKADEMIK HƏTƏM QULIYEVIN ÖMRÜNÜN 75-CI BAHARINA XOŞ ARZULAR...ımızı ONUN özü olmadan həyata keçirmək BİZ dostlarının üzərinə düşür. UNUDULMAZ HƏTƏM MÜƏLLİM!***

***Təəssüflə, ancaq qürurla deyirik ki, 21-22 aprel 2021-ci ildə Ölkənin 2-ci FƏXRİ XİYABANINDA - SİZİN ÖMÜR KARVANINIZIN SON DAYANACAĞINI AZƏRBAYCAN PREZİDENTİ ADINDAN QOYULAN ƏKLİL BƏZƏYİR!*** Həmin gün son mənzilinizə yola salınma - VİDA mərasimində akademik Akif Əlizadənin, AMEA müxbir üzvü, professor Akif Musayevin, yazıçı Seyran Səxavətin, şair Zakir Fəxrinin, oğlunuz Ruslanın, qardaşınız Asifin, uşaqlıq dostunuz Novruzun, dostlarınız akademiklər Dilqəm Tağıyevin, Adil Qəribovun, Pərviz Məmmədovun, AMEA müxbir üzvləri, professorlar Əyyub Quliyevin, Qalib Əfəndiyevin,yaxınlarınız Umud Rəhimoğlunun, Əlövsət Qaraca Əliyevin və onlarla digər həmkarlarınızın Sizin elmi-ictimai fəaliyyətinizlə bağlı xoş və həzin xatirələrini illər uzunu xatırlayacağıq.

**Sizin dostlarınız, elmi ictimaiyyət, xalqımız SİZİ HEÇ ZAMAN UNUTMAYACAQ!**

**ƏZİZ DOSTUMUZ HƏTƏM MÜƏLLİM, RAHAT YAT!**

**ALLAH SƏNİN ƏBƏDİ MƏKANINI BEHİŞTLİK ETSİN!**


**Akif Musayev,**
**AMEA-nın müxbir üzvü,**
**professor**
**Əlövsət Qaraca ƏLİYEV,**
**Azərbaycan İnformasiya və Cəmiyyət İctimai Birliyinin rəhbəri**


# Eynək, yoxsa linza? Hansı daha sağlamdır?

**Hər ikisinin də özünə görə mənfi və müsbətləri var. Lazer cərrahiyənin icad edilməsinə rəğmən hələ də günümüzdə görmək üçün eynək istifadə etmək olduqca yayğındır. Acıbadem xəstəxanasının həkimi Prof. Dr. Emrah Altıparmak eynəyin müsbət cəhətlərini belə izah edir.**

**İstifadəsi asanadır və tez öyrəşmək olur.**

**Göz sağlamlığı və təhlükəsizliyi baxımından bir risk əmələ gətirmir.**



**Uşaqlarda da istifadə oluna bilir.**

**Qiymətinin ucuz və baxımının asan olması.**

**Kosmetik vasitə kimi istifadə oluna bilir.**

**Demək olar ki, bütün görmə qüsurları üçün uyğunlaşdırıla bilir.**

**Su idmanları da daxil olmaqla xüssi diyzanlar sayəsində hər yerdə istifadə edilə bilməsi.**

**Filterlər sayəsində gündəlik həyat keyfiyyətini yaxşılaşdırması.**

**Linzaların görmə bucağı isə daha geniş və estetikdir.**

**Linzalara öyrəşmək bir az vaxt alır və motivasiya gərəkdirir. Xüsusilə gigiyenasına olduqca diqqət etmək lazım olur. Bunun qarşılığında da eynəksiz olmağın gətirdiyi estetiklik və daha geniş görmə bucağına sahib olmaq da var.**

**Müsbət cəhətləri:**

**Eynək istifadə etmək istəməyənlər üçün uyğundur;**

**Görmə bucağının geniş olması;**

**Buxarlanmadıqları üçün yağış və qarlı havalarda, idman fəaliyyətlərində daha yaxşı görüş əldə etməsi;**

**Son illərdə inkişaf etdirilən xüsusi linzalar sayəsində astiqmat və presbiop üçün nəzərdə tutulan linzaların olması;**

**Yumşaq linzaların istifadəyə girməsi sayəsində qiymətinin ucuzlaşması;**

**Gündəlik istifadə et-at linzaların olması sayəsində uzun müddətli istifadədən sonra mikrob qapmaq, görmədə bulanıqlıq kimi problemlərin azalması;**

**Kornea itiləşməsi kimi xəstəliklərdə linzaların daha yaxşı görüş ilə təmin etməsi;**

**Rəngli linzalar ilə kosmetik vasitə kimi istifadə edilə bilməsi;**

**Mənfi cəhətlər:**

**Öyrəşmə müddətinin uzun və əziyyətli olması;**

**Baxımı və istifadəsinin diqqət tələb etməsi;**

**Allergik olması;**

**Göz quruluğuna səbəb olması;**

**Aylıq və ya 2 həftəlik linza istifadə edən insanların yanlarında hər zaman linza qabı daşımaq məcburiyyətində olmaqları.**

**Hazırladı: Eminquey**

# ÇİÇƏK AÇMIŞ MƏZAR

*I hissə*

**Biz küll halında olan bəşərin bir zərrəsiyik və bizim mövcudluğumuz bəşərin tamlığını şərtləndirir. Hər bir varlığın qalaktikada öz enerjisi var və o enerji kainatın varoluşunu təmin edir. Həmin enerji itimir, zaman - zaman müxtəlif formada və fərqli məkanda təzahür edir. Eynşteynin nisbilik nəzəriyyəsinə görə zaman və məkan anlayışı müəyyən bir məqamda mövcuddur. Yəni bizm varlıq və yoxluq fəlsəfəmiz zaman və məkanın nisbiyyətinə bağlıdır. Bizi təşkil edən enerji müəyyən məkanda hansısa zaman kəsimində mövcud olduqda biz varıq, enerjimizin duyulmadığı müddətdə isə biz qeyb aləmindəyik.**

İnsan nə üçün yaradıldığını bilmədən doğulur. Amma Allah insanı nə üçün yaratdığını bilir və O, hər bir yaratdığını müəyyən vəzifə ilə müklələfiyyətləndirir.

Yerin öz oxu ətrafında hər 24 saatdan bir dövr etməsi sutkanı - günü yaradır. Günlərin bir - birini 365 dəfə əvəzləməsi Yerin Günəş ətrafında bir dövrə vuraraq ilin əmələ gəlməsi ilə nəticələnir. İllər keçir, keçən il tarixə çevrilir. Tarix ya unudulur, ya da yaddaşlarda qalır. "Tarixin qan yaddaşı" deyilir unudulmayan, milli kimliyimizə xidmət edən, varoluşumuzu təsdiqləyən və tənzimləyən tarixləşmiş illərə.Tarix öz-özünə yaranmır, onu yaradan şəxsiyyətlər var.

*Yaz fəsli çox gözəldir*

***O dünyanın ən al-əlvan, ən ətirli, ən nəğməli, ən həyatla dolu vaxtıdır. Yağlıvəndin yazı bir başqa olur. Sovet dövründə, dünyanın bəxtəvər vaxtlarında, heç bir müharibə, heç bir fəlakət, heç bir nahaq ölüm olmayan zamanlarda yağlıvəndlilər "1 MAY" bayramını təbiətin qoynunda ellikcə qeyd edərdilər. İnsanlar dəstə-dəstə toplaşar, Ağoğlan çayının sahilində, kəhrizin ətrafında təbii "xalı"nın üzərinə salınmış palazın üstünə döşəkçələr atıb oturar, samovar qaynadar, plov dəmləyər, yeyib-içər, şənlik edər, yazın gözəlliyi ilə daha da gözəlləşərdilər.***

Yağlıvənddə doğulmuş, amma adı Yağlıvəndin sərhədlərini aşan, milyonlardan biri kimi yaşamış, amma milyonlardan fərqlənən, evin övladından elin övladına çevrilən Mais də öz dostları ilə kəhrizin üstündə çox şənlənmiş, "1 MAY" bayramları qeyd etmişdi. Çünki həmin gün həm də onun doğum günü idi. Maisin doğulduğu Yağlıvənd sanki Mais doğulduğu fəsildə Cənnətin yerdəki əksini xatırladırdı.

Qanlı-qadalı, ölümlü-itimli, dəhşətli, faciəli Qarabağ savaşı başlayandan ön cərgədə döyüşən Mais döyüş yoldaşları, el-oba arasında "Qəmlo" kimi tanınırdı. Döyüşçü Qəmlo Maisin adi həyat yolundan fərqli bir yol seçmişdi. Bu ona Yaradanın təyin etdiyi müqəddəs yol idi. Bu təyinatın məqsədi məlum, məramı aydın, missiyası gözəl idi. Bu vətəni, eli, obanı, namusu, şərəfi, insanlığı, bəşəriyyəti, kainatı, elə Yaradanın özünü şərdən, şeytan xislətindən, pislikdən, şərəfsizlərdən qorumaq vəzifəsi idi. Bu missiya özündə fərdilikdən ümumiliyə, ümumilikdən aliliyə, alilikdən müqəddəsliyə, müqəddəslikdən ən uca zirvəyə gedən yolu ehtiva edirdi. Artıq bu yol Uca Tanrı tərəfindən yazılmışdı və qanlı döyüşlər davam etdikcə Mais bu yolla ona vəd olunmuş zirvəni fəth etməyə gedirdi.

Yəqinki, əvvəlki illərdəki təmtəraqla olmasa da Qəmlonun dostları onun doğum gününü bu il də qeyd edəcəkdillər. Hələ 1993-cü il aprel ayının 1-i idi. May ayına bir ay vardı...

***1993-cü il aprelin 2-si səhər başqa səhərlərdən fərqli açıldı. Qarabağ müharibəsi başlayandan ermənilərin qarşısında qala kimi dayanan Yağlıvəndə xəbər yayıldı ki, qonşu Divanalılar və Qacar kəndləri ermənilər tərəfindən işğal olunub. Hər tərəf qatı dumana bürünmüşdü, kor dumanda göz-gözü görmürdü.***

İllərdir təcavüzkar düşməndən qoruduqları kəndlərin ermənilər tərəfindən işğal olunması xəbərini eşidən Qəmlo döyüş tapşırığından yenicə qayıtmasına baxmayaraq döyüşçü dostlarını - "Yağlıvənd qartalları"nı toplayıb Divanalılar istiqamətində əks-hücuma keçdi. Qəmlo və döyüş yoldaşları amansız, ölümlü, çətin, qanlı çox döyüşlər görmüşdülər. Amma bu dəfə fərqli idi. Döyüşçülərimizin əks-hücumuna tab gətirməyən ermənilər işğal etdikləri kəndi tərk etdilər. Bu zaman "Qrad" qurğularının yaylım atəşi öz mövqelərimizi mərmi yağışına tutdu. Mais itki verməmək üçün döyüşçülərinə vaxtiylə ad günlərini və "1 MAY" bayramlarını qeyd etdiyi Ağoğlan çayının sağ sahilindəki kəhrizin üstündəki həmin yerə geri çəkilməyi əmr etdi. Mais və yoldaşları yeni mövqedə yerləşdikdən bir qədər sonra təkrar əks-hücuma keçdilər. Sanki Allah Maisi öz dərgahında görməyə tələsirdi. Ona görə də Əzrayıla güllə şəklinə düşərək Maisə yaxınlaşmasını və onun pak ruhunu Dərgaha aparmasını əmr etdi. Bu vaxt qarşıdakı Ağamurad təpəsindən açılan xain snayper atəşi Qəmlonu hər doğum günündə istirahət etmək üçün uzandığı laləli, nərgizli, bənövşəli, tər çəmənli vətən torpağına uzatdı - bu dəfə əbədi.

*Baharın ılıq nəfəsini*

***yenicə duyan tər ləçəklər də, bülbüllərin şən nəğməsini təzəcə eşidən ətirli çiçəklər də, məxmər kimi zərif, incə otlardan yaranan çəmən də, Maisin canından artıq sevdiyi vətən torpağı da, Ağoğlanın layla çalan köpüklü, bulanıq suyu da bir rəngə boyandı - al qan rənginə. Mais üzü üstə düşdüyü torpağa qarışaraq adi torpağı öz qanı ilə müqəddəsləşdirdi. Artıq həmin torpaq öz torpaqlığından çıxıb Ziyarətgaha çevrildi. Dağlardan, dərələrdən keçərək, vətəni, milləti, xalqının ən böyük amalı üçün döyünən bir qəlbi susduran namərd güllə elə bildi ki, Maisin missiyasını sona çatdırdı. Amma yanılmışdı. Çünki o Maisi həlak edərək, fiziki yoxluğuna səbəb oldusa da Mais mənən ucaldı və əbədiyyət qazandı. Qəmlo artıq fərdlikdən şəhidliyə ucalmışdı. Və bu ucalıqla da o Allahın ona yazdığı yolun növbəti hissəsini getməyə başlamışdı-əbədiləşmək.***

1993-cü il aprel ayının 2-də Yağlıvənd işğal olunmasa da Maisin həmin son döyüşündən sonra erməni işğalı davam etdiyi üçün təəssüf ki, biz bir daha məzarı müqəddəs and yerimiz - "Şəhidlər Xiyabanı"nda olan Qəmlonun şəhid olduğu yeri ziyarət edə bilmədik. Bu həsrət 28 il, 30 gün davam etdi.

*II hissə*

**28 il, 30 gün sonra Yağlıvənddə ziyarət.**

Mən Yağlıvəndi sonuncu dəfə 15.06.1993-cü il gecə saat 01:00 radələrində tərk etmişdim. Kəndi tərk edəndə həmin günün səhəri Yağlıvəndin işğal olunacağını bilmirdim. 2500 illik tarixə malik kənddə tək-tək evləri çıxmaq şərtiylə erməni artilleriyasının gündəlik bombardmanına baxmayaraq 1000 evdən heç biri dağılmamışdı. Bağlar, bağatlar, evlər, yollar, hər şey salamat idi. Mənim yaddaşımda kəndim çəpəri, yolu, bağı, bulağı yerində, öz sakinlərini gözləyən, insanlarına xoşbəxtlik gətirən bir yer kimi qalmışdı...

Nəhayət "Zəfər savaşı" nəticəsində erməni işğalından azad olunmuş kəndimə səfər etməyi qərara aldım. Bu anı düz 28 il gözləmişdim. Kəndimdə orada qoyub gəldiyim uşaqlığımla, yeniyetməliyimlə qarşılaşacaqdım. May ayının birində abad, salamat qoyub getdiyim kəndimə gəldim. Amma kəndimi yerində tapa bilmədim... Onun yerində erməni vəhşiliyi öz izini bütün gücü ilə buraxmış viranəlik qalmışdı. Mən qəlbimdə qübar kəndə, kənd də qəmli-qəmli mənə baxırdı. Fikirləşdim, görəsən kəndimin qəlbindən nələr keçir, indi o nə düşünür? Kəndin havasını içimə çəkdim, bu bir körpənin ilk nəfəsi kimi gəldi mənə. Və Yağlıvəndlə mən birləşərək birgə nəfəs almağa, var olmağa, yaşamağa başladıq. Xarabaya qalsa da, dağılsa da, yansa da kəndim yer üzündən silinməmişdi, öz kökündən ayrılmamışdı, tarixin dolanbaclarında itməmişdi. O məndə, mən onda mövcud idik...



*Yağlıvənddə*

***bahar fəsli çox gözəl olur. Bəlkə də dünyanın heç bir yerində təbiət may ayında Yağlıvənddəki kimi olmur. Yağlıvəndə qədəm qoyanda dağıdılmış, viran olmuş kənddə yaz zərifliyini gördüm. Ətrafı seyr etdikcə mənə elə gəldi ki, Allah Qələmə "Yaz!" deyəndə, Qələm də yazmağa Yağlıvənd adı ilə başlamışdı, Allah "Ol!" deyəndə, ilk yaradılan Yağlıvənd olmuşdu. Sanki rəssam dünya boyda olan palitrasını açaraq, orada dünyadakı bütün al-əlvan rənglərdən istifadə edərək Yağlıvəndin şəklini çəkmişdi. Sanki ən mahir bəstəkarlar xalqın iliyindən, damarından, qanından, canından, ruhundan süzülüb gələn səsləri nota alaraq bu gözəl dünyanın eşqinə nəğmə bəstələyib, Yağlıvəndi tərənnüm edirdi. Sanki ən mahir şair ruhunu sevgidən yoğuraraq, söz xəzinəsinin ən qiymətli cəvahiratlarından istifadə edərək, dünyanın balından dadaraq, ləlindən yonaraq, büllur saflığından istifadə edərək Yağlıvəndi mədh edirdi.***

Elə bil adam boyu ucalan təzə-tər yaşıl otların təravəti, bütün çəmənləri bəzəyən yanağı xallı al lalələrin zərifliyi, min bir rəngli çiçəklərin cənnəti xatırladan ətri, kol dibindən boynubükük bənövşənin oğrun-oğrun boylanması, quşların sevgi və sevinc nəğməsi-Yaradana minnətdarlıq sədası, Ağoğlan çayının, durna gözlü bulaqların Tanrıya alqış zümzüməsi, insanın yaşamaq, yaratmaq, var olmaq həvəsi, sevinc nidası, qəlb nəşəsi hamılıqla Yağlıvəndə paylanmışdı.

Sanki sazın zil pərdəsinə köklənmişdi təbiət. Neyin qəlbdağlayan, könlü qubar bağlayan naləsi duyulmaz olmuşdu, onun yerini kamanın incə təranəsi, balabanın həzin zümzüməsi, qavalın cəngi səsi əvəzləmişdi. Hər bulaq, hər yarpaq, hər çiçək, hər ləçək, hər gül, hər sünbül, hər çəmən, hər yasəmən, hər bənövşə, hər ot, hər meh, hər kol, hər ağac, hər cığır, hər yol, hər daş, hər qaya, hər bağ, hər bağat, hər bulud, hər tarla ətrafa məhəbbət yayırdı.

*Kəpənək gül eşqinə uçurdu*

***çəmən boyu, arılar bal dadına qaçırdı çəmən boyu. Hər teldən, hər ləçəkdən. hər güldən, hər çiçəkdən cənnət ətri gəlirdi. Bu möhtəşəmliyin qarşısında şairin də hissləri buxovları qıraraq, ruha azadlıq verərək ilhama gəlirdi. İlham pərisi səmada pərvaz edir, gözəlliyi gördükcə özünü sevgi dənizinə buraxırdı. Axı bahar dünyanın gözəlləşdiyi fəsil idi. Axı bahar sevmək, sevilmək, təbiətin bir parçası olmaq, təbiətlə birləşmək, bütövləşmək, kainatda öz yerini tutmaq, qalaktikada mövcud olmaq vaxtıdır. Bülbüllərin xoş avazını, dillənən könül sazını, çiçəklərin qəmzə, nazını gördükcə düşünürdüm ki, Allah elə bil Cənnəti Yağlıvəndin may ayına baxaraq yaratmışdı. Sanki may ayında olan Yağlıvənd altından çaylar axan, havası müşk-ənbər qoxuyan, mənzərəsi ruha dinclik gətirən İrəm və Firdovs cənnətinin əkiz qardaşı idi.***

Bu bahar bir başqa idi Yağlıvənd. Ətrafı seyr etdikcə İlahi gözəlliyin fonunda bir şeyi anladım ki, o azman, tarix qoxulu kəndimiz çox kiçilib, balacalaşıb, fağırlaşıb - kimsəsizlikdən. Amma hər halı ilə Tanrının yerdəki Cənnətiydi Yağlıvənd. Yağlıvəndin hər yeri ziyarətgah idi. Çünki hər qarışı şəhid qanı ilə boyanmışdı, hər parçasında şəhid ruhu yaşayırdı, hər dağında şəhid izi vardı, hər daşına şəhid dizini qoymuşdu, torpağın bağrı şəhidlərə qucaq açmışdı, hər yeri şəhidlərə məskən olmuşdu, hər məkanı şəhidləşmişdi - müqəddəsləşmişdi.Yağlıvəndin bütün yerlərindən başqa bir yeri də vardı ki, mən oranı mütləq ziyarət etməli idim. Bunun üçün də Ağoğlan çayı boyunca kəhrizə tərəf getdim. Təxminən 4 km yol getdikdən sonra nəhayət kəhrizin yanına çatdım. Yol boyu toxucu təbiətin mahir əli ilə naxışlanmış al-əlvan, göz oxşayan, ruh dincəldən mənzərə məni valeh edir, həyatın gözəlliyini bir daha xatırladırdı.

Kəhrizin üstünə yaxınlaşdıqca ruhumun dincliyini kədər əvəzləyirdi. Çünki indi yaxınlaşacağım yer 28 il, 30 gün idi ki, ziyarət olunmurdu. Bu xalq qəhrəmanı, Qarabağ savaşına canı ilə öz töhfəsini vermiş Qəmlonun həlak olduğu yer idi. İgidimin qanı axmış müqəddəs torpaq ziyarət olunmaq, əzizlənmək, tutya kimi qorunmaq həsrətindəydi. Sanki həmin yer təbərrük kimi öz zəvvarına ərməğan olunacağı anı gözləyirdi. Həmin yerə gəldim. Bu yer Ağoğlan çayının sağ sahilində, sıldırım qayanın üzərində, Divanalılarla üzbəüz, Ağamurad təpəsinin qarşısında idi. Orda böyürtkən kolları ilə əhatələnmiş sağlam gövdəli çinar ağacı bitmişdi. Maisin vurularaq yıxıldığı yer həmin çinar ağacının yanında idi. Qəmlonun yıxıldığı yerdə zolaq şəklində bənövşə, onun ardınca qara xallı lalə, lalələrin ortasında sarı və ağ rəngli nərgizlər, lalənin davamında zümrüd rəngli zərif otlar bitmişdi. Mais başını qoyduğu torpaqda bir dəstə xarıbülbül çiçəkləmişdi. Sanki təbiət güllərdən Azərbaycan bayrağını düzəldərək qəhrəmanımızı mükafatlandırmışdı. Səmaya ucalan çinar ağacı nəhəng gövdəsi ilə ana təbiətin öz övladına qoyduğu təbii abidə kimi Maisin qanı axmış torpağa keşik çəkirdi..

*Mən onda anladım ki,*

Uca Tanrı Maisin qarşısına müqəddəs bir vəzifə qoymuşdur. Mais o vəzifəni Allahın dərgahına ucalmaqla şərəf və ləyaqətlə yerinə yetirdi. Maisin öz vəzifəsini yerinə yetirməsi onu zirvələr fatehinə çevirdi. Adi insanın həyat yolunun başlanğıcı və sonu var. Doğulur, müəyyən funksiya yerinə yetirmək üçün (və yaxudda yetirməmək üçün) yaşayır, ölür, yox olur. Amma Maisin həyatı ümuminin həyatından fərqlənir. Onun həyat yolunda adi insanların həyat yolunda olan mərhələdən biri yoxdur - yox olmaq mərhələsi. Mais doğulub və yaşayır. Əbədi yaşayır. Çünki o ölməzliyə vaqif olmuş, əbədiyyətə yüksəlmiş, şəhidliyə ucalmışdır. O, cismaniliyin fövqünə vararaq mənəviyyatın ən uca zirvəsinə yüksəlmişdi - Tanrı dərgahında ən dəyərli mövqelərdən biri olan ŞƏHİDLİK ZİRVƏSİnə. O ömrünü, ruhunu, varlığını, sevgisini, hər şeyini vətənə verdi və Vətənləşdi.

***Məhəmməd peyğəmbər (s.a.s) Dərgaha ucalmaq üçün uca göylərə Məscidül-Əqsadan merac etmişdi. Tanrı Maisi isə kəhrizin yanından öz Dərgahına qaldırdı.***

Sanki Maisin qanı Xızır peyğəmbərin dirilik suyu idi, ətrafdakı quru torpaq da canlanmışdı, hər tərəfdə çiçək açmışdı. Sanki Maisin uzandığı yerə İsa peyğəmbərin əli toxunmuşdu, hər tərəfdə həyat qaynayırdı. Al-əlvan kəpənəklər uçur, bülbüllər sevinclə nəğmələr qoşur, çiçəklər öz ətrini səxavətlə paylayır, güllər öz gözəlliyini təbiətdən əsirgəmirdilər.

**Mən Könül Heydərovanın Qəmlo haqqında yazdığı hekayədə oxumuşdum ki, Mais vurulan an oradan bir ağ göyərçin uçmuşdur. İndi kəhrizin üstündəki çinar ağacına baxdıqda onun budaqalrında 20-dək ağ göyərçinin qonduğunu və bir-biri ilə səsləşdiklərini gördüm. O an anladım ki, bunlar Yağlıvənd şəhidlərinin ağ göyərçinləşmiş ruhlarıdır və çiçək açmış məzarı ziyarətə gəliblər - axı bu gün xalq qəhrəmanı Qəmlonun, fərdilikdən aliliyə yüksəlmiş Maisin, özü öz adı ilə abidələşmiş əbədiyaşar insanın doğum günüdür.**

**Qalib Yağlıvəndli**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 46 (2227) 29 aprel 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# QURUÇAY VADİSİNİN SABAHI

**Keçmiş Dağlıq Qarabağ Muxtar vilayəti Azərbaycanın ən füsnkar, ən gözəl mənzərəsi, torpağı, havası olan rayonları özündə birləşdirmişdi. Təsəvvür edin ki, Azərbaycanın tacı sayılan Şuşa da vilayətin tərkibindəydi. Bundan başqa Martuni (indiki Xocavənd), Mardaket (indiki Ağdərə), Əsgəran (indiki Xocalı), Hadrut (indiki Xocəvənd) və Şuşa rayonunu əhatə edən Dağlıq Qarabağın qeyri-adi coğrafiyası var. O ərazi həm tarixilik, həm də istirahət, yaşam zolağı kimi də hər zaman diqqət mərkəzində olub. Təsəvvür edin ki, Xocalı kurqanları, Xocalı mədəniyyəti, Quruçay mədəniyyəti, Azıx mağarası, Tağlar mağarası və neçə-neçə qədim insan məskənləri məhz Dağlıq Qarabağın ərazisində yerləşirdi. Bu da həmin ərazinin məskunlaşma tarixinin də nə qədər qədim olduğunu özü-özlüyündə sübut edirdi.**

Bu gün keçmiş Hadrut və Martuni rayonlarının birləşməsindən yaradılmış Xocavənd rayonunun ən qədim insan məskənlərindən biri, Azərbaycan Prezidentinin və Birinci vitse-prezidentin də ziyarət etdiyi Azıx mağarasıdı. Bu mağara Qafqazda ən qədim, dünyada isə yaşına görə ön cərgədə dayanan qədim insan məskənidi. Qeyd etmək lazımdı ki, tarix kitablarımızda 1992-ci ilə qədər bu mağara gah Füzuli rayonunun, gah da Hadrut rayounun ərazisi kimi göstərilmişdi. Təbii ki, bu təqdimatların o qədər də böyük əhəmiyyəti yoxdu. Ən vacibi odur ki, ibtidai insanın vətəni Azərbaycan ərazisi olub.

Deməli, bu gün Regionların İnkişafına dair Dövlət Proqramına nəzər yetirsək, onda görərik ki, Xocavənd rayonunun ərazisində olan Azıx mağarasını mədəni abidə kimi turistlərin üzünə açmaq həm tariximizin təqdimatı olar, həm də coğrafiyamızın, eləcə də turistlərin bu əraziyə səfərlərinin təşkili təbii ki, iqtisadi baxımdan da bölgə üçün önəmli əhəmiyyət kəsb edir.

Bir az da geniş şərh etsək, əgər Mədəniyyət və Turzim Nazirliyi belə bir missiyanı öz üzərinə götürərsə, həmin ərazidə xidmət sahələrinin yaradılması da gündəmə gələcək. Bu da təbii ki, yeni iş yerləri deməkdi. Üstəlik, bu ərazidə infrastrukturun yüksək səviyyədə qurulması, yəni qaz, işıq, su, rabitə, nəqliyyat vasitələrinin normal işləməsi, yolların standartlara uyğun çəkilməsi, ərzaq təminatı... Bax, bütün bunlar artıq bu bölgənin həyat səviyəsinin yüksəldilməsinə verilmiş dəstək, açılmış qapı olar. Bu gün Azıx mağarasının yerləşdiyi Quruçay vadisində digər bir mağara da mövcuddur. Bu da Tağlar mağarasıdı. Hər iki mağara arasında təqribən 2-3 kilometrlik məsafə var, bəlkə də çox. Bax, bu məsafənin yaxınlığını nəzərə alıb həmin Quruçay vadisində istirahət zolağı da yaratmaq mümkündü. Çünki dağ çayının sahilinin yaxınlığında da kifayət qədər içməli, yəni bulaqlar olan bu yaşıllıq içərisində köşk tipli evlərin və yaxud böyük otellərin tikilməsi, burada helikopter meydançası yaratmaq, gəzintilər təşkil etmək zənnimcə, bölgənin həyat səviyyəsində yeni çalarlar qatar.





Düşünürəm ki, regionların inkişafına ayrılan vəsait cənab Prezidentin məsələlərə birbaşa nəzarəti və tələbkarlığı aidiyyəti qurumların hərəkətə keçməsinə təkcə təkan yox, həm də stimul verəcəkdi. Belə bir iqtisadi, mədəni proqramın tətbiqinə başlanması öz növbəsində işğaldan azad olunmuş bu ərazilərə qayıdacaq vətəndaşlarımız, sakinlərimiz üçün də bir çağırış ola bilər. Çünki yenidən qurulan həyatda iş yerləri ən önəmli məsələdir. Bir az da məsələnin dərinliynə ensək, onda yaradılan infrastruktur bu ərazidə səhiyyənin də, təhsilin də yenidən qurulmasını vacib edəcək. Çünki həm ölkə daxilindən, həm də xaricdən gələn turistlər üçün yüksək komfortun mövcudluğu həmişə xüsusi önəm kəsb edibdi. Əgər diqqət yetirsək, görərik ki, ölkəmizin Quba, İsmayıllı, Qəbələ, Lənkəran, Gəncə və digər bölgələrinə üz tutan turistlər həmişə yüksək komfortun mövcud olduğu otellərə üz tuturlar. Xidmətin ürəkaçan olduğu kafe və restoranlardan yararlanırlar. Bax, bu da onu göstərir ki, bizim həmin yüksək səviyyəli şəraiti yaratmaq imkanımız və şəraitimiz var. Deməli, Xocavənd rayonunun ərazisi olan Quruçay vadisində təkcə iki qədim insan məskəninin mövcud olduğu dairədə xeyli işlər görmək mümkündü. O ki, qaldı bütövlükdə həmin vadinin uzanıb Kirs dağına doğru gedən hissəsinə, bu ərazilərdə də üzü Şuşaya doğru hər cür şəraitin qurulmasına imkan verən relyef, coğrafi ərazi mövcuddur. Özü də o ərazilərdəki bol giləmeyvəli bağlar, meşə zolaqları, təbii isti sular, bulaqlar mövcuddur. Hətta qədim Tağlar körpüsünün yaxınlığında, hələ Sovet dönəmində yaradılmış süni göl özünün imkanları ilə də diqqəti çəkir. Belə ki, biz orta məktəb illərimizdən iri daşların uçub qarşısını qismən kəsdiyi həmin çayı göllənib yaratdığı su hövzəsində, özü də dərinliyi təqribən 3 metrdən çox olan bu göldə çimməyimizi, dağ çayından balıqlar tutmağımızı heç vaxt unutmuruq. Göz yaşı kimi dupduru olan bu sudan, yəni Tağlar gölünü bir az da genişləndirməklə balıqçılıq təsərrüfatı da yaratmaq mümkündü.

Quruçay vadisində kifayət qədər təbii sərvətlər var. Onların arasında daş yataqları, qum, çınqıl istehsalı, həmçinin bolluca giləmeyvələrdən təbii şirələrin hazırlanması da mümkün olan bir seçimdi. Əgər ayrı-ayrı sahibkarlar, fermerlər bu ərazidə balıqçılıq, quşçuluq, eləcə də təbii şirə sexləri yaradıb istehsala başlarlarsa, bu da həm onların özəl büdcələrinə, həm də regionun inkişafına, ümumi iqtisadi mənzərəsinə xeyli gəlir gətirmiş olar.

Bu gün Xocavənd rayonunun Quruçay vadisi ətrafında yerləşən kəndlərinin qədimliyini nəzərə alaraq burada aparılacaq tikinti-abadlıq işlərində ən çox diqqəti tarixi abidələrə yönəltmək yerinə düşər. Çünki bölgədə qədim Alban kilsələri, məbədlər, məscidlər mövcuddur ki, bunların da yaşı ən uzaq minilliklərə gedib çıxır. Deməli, tariximizə hörmət və ehtiram əlaməti olaraq bu abidələri bərpa etmək və onları turist səfərlərinin proqramına daxil etməklə, həm də abidələrin gündəmdə olmasına, tariximizin təbliğ edilməsinə və bu abidələrə yenidən həyat verilməsinə nail ola bilərik.

**Düşünürəm ki, təkcə barəsində söhbət açdığım Quruçay vadisi ərazisində biz dövlət proqramına uyğun olaraq inkişafa nail ola bilsək, onda bu ərazidə yeni həyat hər kəsin üzünə gülər. Bu, Qarabağ ərazisinin çiçəklənməsi, varlanması, yeni iş yerlərinin açılması və insanların torpağa bağlılığına yandırılmış yaşıl işıq olar. Axı bizim yaşamımızın əsas şərtlərindən biri iş yerləridi. Etiraf edək ki, Azərbaycan prezidenti cənab İlham Əliyev də xalqımızın qarantı kimi hər zaman digər məsələlərlə yanaşı, yeni iş yerlərinin açılmasını da diqqət mərkəzində saxlayıb. Deməli, vadidə görüləcək işlər Prezidentimizin iş yerləri ilə bağlı qarşıya qoyduğu məsələyə dəstək olar.**

***Əbülfət MƏDƏTOĞLU***


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ


# Vətənpərvərlik hissilə yoğrulmuş dağ vüqarlı, bənövşə ətirli poeziya



***Vəliyulla Novruz***

**Məmməd Aslan orijinal yaradıcılığı ilə seçilən, xüsusi üslub gözəlliyinə malik olan, qələmə aldığı mövzuları dərin ümumiləşdirmələr aparmaq yolu ilə özünəməxsus bir şəkildə poetikləşdirməyi bacaran şairlərimizdəndir.**

Onun poeziyası yüksək vətənpərvərliyi, emosionallığı, təbiiliyi, dərin humanizimilə yanaşı mənəvi - əxlaqi dəyərlərin kamilliyindən xəbər verən poeziyadır.

Biz onun şeirlərini oxuduqca gözlərimiz önündə həssas qəlbli, geniş ürəkli, xeyirxah niyyətli, həmişə öz xalqının, vəteninin gələcəyini düşünən parlaq istedada malik vətəndaş - şairin ürək çırpıntılarını yaxından duyub hiss edirik.

Bu ustad sənətkarın böyüklüyünün sirri ondadır ki, o xeyirxah, təmiz ideallarla təkcə özü yaşamır, oxucunu da bu hislərlə yaşamağa sövq edir, mənəvi cəhətdən onu yüksəldir və ona tərbiyəvi - estetik təsir göstərir. Şair eyni zamanda öz həyat təcrübəsinə arxalanaraq duyub hiss etdiyi hadisələri bədii sözün qüdrətilə müxtəlif poetik formalarda obrazlı şəkildə əyaniləşdirməyi bacarır. Onun poeziyasındakı poetik fikir, obrazlar silsiləsi, həyat həqiqətlərinin real şəkildə bədii təsviri, dilin axıcılığı, səlistliyi, xalq yaradıcılığından səmərəli bəhrələnməsi şairin poeziyasının bütövlüyündən xəbər verir.

Müəllifin qələmə aldığı mövzuların poetik imkanları o qədər genişdir ki, burada Vətənə olan sonsuz məhəbbət hissi, vətənpərvərlik duyğusu, Qarabağ nisgili, təbiətin füsnkar gözəlliklərinin bədii təsviri onun poeziyasının ana xəttini təşkil edir.

Şairin yaradıcılığında Vətən məhəbbəti xüsusi yer tutur. Onun şeirlərində doğma yurdumuzun əfsanəvi gözəlliklərinə, tükənməz təbii sərvətlərinin təsvirinə həsr olunmuş poetik nümunələr həm kəmiyyət, həm də keyfiyyət etibarı ilə daha çox üstünlük təşkil edir.

Bu isə şairin poeziyasının nikbinliyini daha da artırır, onu ülviləşdirir. Müəllifin yaradıcılığında Vətən məhəbbəti o qədər güclüdür ki, şair bu gözəllikləri vəsv etməkdən doymur, onun mənalarla dolu sirli və sehrli aləmini önə çəkməklə oxucunu dərindən heyrətləndirir.

Vətənin müqəddəsliyini poetikləşdirən şair ona ictimai - siyasi məzmun verməklə onu aydın məfkurəyə, ideala çevirməyi bacarır:

***Quş yuvaya möhtac,***
***İnsan da evə,***
***Millətin yuvası,***
***Ocağı Vətən.***
***Evlər birər təpə,***
***Vətən də zirvə!***
***Millətin qazancı,***
***Üz ağı Vətən!..***

Vətənin müqəddəsliyi təkcə bununla ölçülmür, o həm də şair ömrünün davamıdır, onun keçmişi, bu günü və gələcəyidir.

Qəlbi Vətən eşqilə döyünən, onun gözəlliklərini konkret bədii lövhələrdə, həqiqi sənət müstəvisində əks etdirən şair doğma yurdumuzu yadda qalan bədii vasitələrlə poetikləşdirirək ona dərin ictimai - fəlsəfi məna verməyi bacarır:

***Kövrələn biz, "Vətən!" - deyə ötən biz,***
***Vətən mənəm,Vətən sənsən,Vətən biz!***
***Vətənsizlər necə dözür Vətənsiz?!***
***Tənha ağac çökər düzdə, Şəkərim.***

Bütünlüklə Xalq və Vətən anlayışı onun poeziyasının əsas qayəsini təşkil edir.

Onları bir - birindən ayrı təsəvvür etmək belə, mümkün deyildir. Çünki bu poeziya eyni bir vəhdətdən - saflıqdan, təmizlikdən, paklıqdan, nikbinlikdən yoğrulmuş bir poeziyadır. Xalqa və Vətənə olan bağlılıq bu vətənpərvər şairin poeziyasının əzəmətindən, qüdrətindən, bütövlüyündən, ülviyyətindən xəbər verir:

***Səninkidir ömrüm, Vətən,***
***Kimin ömrü özünündür?!***
***Məndən xoş bir söz eşitsən,***
***Öz səsindir, öz ünündür.***

Ustad sənətkarın poeziyasında Vətən həsrəti, vətənpərvərlik hissi demək olar ki, onun bütün şeirlərinin ruhuna hopmuşdur. Qəlbi Vətən eşqilə döyünən, onun duyğu və düşüncələrini tarıma çəkən, işğal olunmuş torpaqlarımızın azad olunacağı günü böyük ümidlərlə gözləyən şair ürəyində qübar bağlamış bu nisgilin ağrı - acılarını, yanan qəlbini ovutmaq üçün odlu göz yaşları ilə qələmə alaraq onu bəşəri səviyyəyə qaldıra bilmişdir:

***Qəbrimə Kəlbəcər torpağı tökün,***
***Dəli dağ gül açsın başımın altda.***
***Onu sürmə kimi gözümə çəkin,***
***Gorum nurla dolsun daşımın altda.***

Şair nədən yazırsa yazsın, düşmən tapdağı altında inləyən əsir düşmüş torpaqlarımızı yaddan çıxarmır. O öz xalqının, millətinin əzmkarlığını daha da artırmaqla onları düşmənə qarşı mübarizəyə və qələbəyə çağırır. Biz bunun bariz nümunəsini "Vətən və biz", "Qalx ayağa, igidim", "Murovun başı dumanlı", "İtirdiyimiz cənnət", "Yurd itirən, bəy olmaz", "Haydı, Qoç Koroğlu", və s. şeirlərində daha aydın şəkildə görə bilirik:

***Əjdaha kamana çəkməmiş səni,***
***Qurtar əsarətdən, qurtar Vətəni!***
***Gətir xəyalına ötüb - keçəni,***
***Haydı Qoç Koroğlum, ər savaşına!***
***Qopart qiyaməti düşmən başına!***

Vətəni bütün varlığı ilə dərin məhəbbətlə sevən bu vətənpərvər şair özünü vətəndən ayrı təsəvvür etmir, onun kədərini, qəmini və qüssəsini öz dərdləri hesab edir. Düşməni qəzb və nifrət hissilə qamçılayan şair "Vətən və biz" şeirində "Uyusan, qürbətəm, qalsan Vətənəm" desə də, o öz xalqını "düşməndən haqq - hesab sormağı" tələb edir, igid oğullarımızı "qızmış pələng kim döyüşlərə atıl"mağa səsləyir:

***Axan qanıma bax, kəsilən başa...***
***Qızmış pələng kimi atıl savaşa!***
***Ölsən, şərəflə öl, qalsan, ər yaşa!***
***Göstər sərtliyini polad qatından!***
***Sıyır qeyrətini qılınctək qından!***

İndi Vətən elə igid oğullar istəyir ki, onlar "dünya üzərinə sancılan bayrağa çevrilib", "Koroğlunun şimşək atından enməsinlər", əsir düşmüş torpaqlarımızı düşməndən azad edib geri qayıtsınlar:

***Sən belə deyildin, bir dön özünə!***
***Sancıl bayraq kimi dünya üzünə!***
***Səpilsin çiçəklər, güllər izinə!***
***Enmə Koroğlunun Şimşək atından!***
***Sıyır qeyrətini qılınctək qından!***

Vətən təəssüfkeşliyi, Vətən qeyrəti, doğma yurda bağlılıq bütün varlığı ilə bu vətənpərvər şairin qanına, canına, iliyinə hoparaq ərənləri "ağrını, acını bir tərəfə atıb", "Vətən qovğasına alnıaçıq get" məyə, "düşmənin başında ildırım kimi çaxmağa" çağırır:

***Vətən qovğasına alnıaçıq get!***
***Dağ demə, daş demə, çığnala çıx get!***
***Düşmənin başına ildırım çax get!***
***Qoy çıxsın oğullar papaq altından!***
***Sıyır qeyrətini qılınctək qından!..***

Əsl vətəndaşlıq yanğısıyla qələmə alınmış bu çılğın, çağırış və haray nidası kimi səslənən bu poetik nümunədə böyük sənətkarın mənəvi iztirabları,dərin sarsıntıları, könül dünyası bütün təfərrüatı ilə əks olunmuşdur. Öz varlığı, torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparan, ölüm - qalım savaşına girişmiş bir xalq üçün azadlıqdan müqəddəs nə ola bilər? Belə bir xalqın azadlığını əlindən alsalar belə, onun Vətən eşqilə döyünən ürəyini kimsə köksündən qoparıb ata bilməz:

***İnsan hürriyyətə bürünə keşkə!***
***Yol tapa bu yoxun yerinə keşkə!***
***Bizə də bir dəfə görünə keşkə -***
***Qismət olan quşa, qurda Azadlıq...***
***Harda ədalət var - orda Azadlıq!..***

Məmməd Aslan tufanlara sinə gərən, başı buludlara dəyən dağların əzəmətini, zirvələrin vüqarını mücərrəd şəkildə deyil, insanın mənəvi gözəlliyi mövqeyindən çıxış edərək onu ülviləşdirməyi bacarır və onun insanla vəhdətdə bədii təsvirini verir. Çünki təbiəti insandan ayrı təsəvvür etmək mümkün deyildir. Təbiəti dərindən duyub dərk edən şairin daxili aləmi, mənəviyyatı həmişə rəngarəng və zəngindir.

Şairin poeziyası hər zaman ictimai məna və düşüncələrdən xəbər verməklə yanaşı onun daxili aləmini də önə çəkmiş olur:

***Xilqətin əlindən bərli - bəzəkli***
***Nə gözəl görünür o sıra dağlar!***
***Alçaq sinələri əlvan çiçəkli,***
***Hündür zirvələri sırsıra dağlar.***
***Gün vurduqca çalmasını əridir,***
***Şeh deyil, üzündə həya təridir!***
***Buludlar dolanan kəmər yeridir,***
***Qüdrətdən dikəlib gör hara dağlar!..***

Dağlar mövzusu şairin poeziyasında hər zaman qırmızı bir xətlə keçir. Çünki dağlar hər zaman öz vüqarıyla könülləri fəth edə bilmişdi. Əgər şair "O dağların nəfəsi gül" şeirində doğma yurdumuzun bir parçası olan Zaqatala "dağlarının tülə bürünmüş sıx ormanlarını", onun "yeri, yurdu, havası gül" olan "torpağın"ı yaddan qalan yığcam misralarla önə çəkirsə, "Dəlidağın qış yuxusu" şeirində isə bu dağın "ağ qumaşa büründüyündən" söhbət açır:

***Yumub tökür göydən yerə ağ qumaş,***
***Dəlidağın qışına bax, qışına.***
***Bəyaz əba qurşanıbdı başbaşa,***
***Buz bağlamış başına bax, başına***

M.Aslanın poeziyasında torpaq, bulud, qərənfil, bənövşə, duman, zirvə kimi təbii peyzajlarla zəngindir. Onlar mənəviyyatı cilalamaqla yanaşı, həm də ucalıq və məğrurluq ifadə edən rəmzi çalarlar kəsb edir. Onun lirikasında ilk dəfə olaraq dağlar dil açıb danışır:

***Yamacı çağırdım, dağı səslədim,***
***Cavab gələr deyə ümid bəslədim.***
***Bir coşub - çağlayan nəğmə istədim,***
***Kəkliklər çıxmadı sözümdən mənim.***

Şair dağların gözəlliyini poetik rəsm etməkdən doymur. O, "Kəpəz" şeirində dağların "zirvəsində qıy vuran qızılquş, laçın" kimi quşlardan söhbət açırsa, "Göygölü Kəpəzin tacı" adlandırmaqla "Kəpəzin möhtəşəm görünən heykəli" ilə fəxr edir:

***Maralgölün sənin, Göygölün sənin***
***Bir cüt tər çiçəyin, tərgülün sənin!***
***Sənin göz bəbəyin, sevgilin sənin,***
***Hər biri sevdalı, bir gəlin Kəpəz!..***

"Ağrı dağı ilə görüş" şeirində isə şair Dəli dağı kədərli görmək istəmir, onun "nədən bu ağrılara" düçar olduğunu soruşur. Əgər bu, dağın zirvəsi "sisdən", dumandan ayrılsa, şair onu "bağrına basmağa" hazır olduğunu söyləyir. Ancaq yay gününün qızmar çağında belə onun əlçatmaz ucalığı hələ də "boranlı qışı" xatırladır. Dərin həyəcan hissi keçirən şair bu dağı "ömrü boyu sinəsi dağlı, bağrı qan görüb":

***Bu yay günü nə borandı başında?!***
***Yayda busan...aləm donar qışında.***
***Bir xoş günün heç olubmu yaşında?!***
***Ömrün boyu sinə dağlı, bağrı qan.***

**Müəllifi daha çox Ağrı dağının çəkdiyi dözülməz əzablar dərindən düşündürüb narahat edir. Dağların sinəsində qar suyunun açdığı dərin "yarğanlar" bəlkə onun "göz yaşının izidir?" Əgər bu, doğrudan da, "göz yaşının izidir"sə, "dağ olanın dözümü dağ olmalıdır".**


**(ardı var)**

# Ramin Musayevlə futbol mübahisələri...

Futboldan danışanda aramızda həmişə mübahisə düşür. Ya etiraz edir, ya da inciyən kimi olur.

**- Nə fikirləşirsən çempionat haqda?**

- Heç nə! Gündən-günə geri gedir.

Onda təəssüflə başını bulayır.

**- Səni qınamıram. Sən də jurnalistsən. Nə vaxt nədən razı olmusuz ki?**

Sonra guya bu sözləri zarafatla dediyini nümayiş etdirmək üçün gülməyə başlayır.

Və bu vaxt stent qoyulan ürəyinə hər nə qədər ziyanlı olsa da, stolunun üstündəki "Marlboro" qutusundan bir siqaret götürüb damağına qoyur. Alışqanla yandırıb bir tüstü içəri atdıqdan sonra elə bil qəfil yaddaşı təzələnir, aramızdakı dostyana səmimi münasibətlərdən də istifadə edib ərklə deyir:



**- Ay əclaf, bəs niyə demirsən ki, çempionatımız UEFA-da 42-dən 24-ə yüksəlib?**

Siqaret iki barmağının arasında qalıb tüstüləməyə başlayır, kinayəli baxışlarla sanki "söz savaşı"nda qalib gəldiyini düşünüb, məmnun bir hal alır. Amma söhbətin axarını dəyişib məni indi üçün ən çox maraqlandıran başqa bir suala cavab tapmaq istəyirəm:

**- Siqareti niyə tərgitmirsiniz? Olmaz axı, sizə...**

*Səhhətinə laqeyd insanlar kimi cavab verir:*

**- Əşiiiiii...**

Futbol fikirlərimi ona görə qəbul etmir ki, həm yazılarımda, həm də özüylə söhbətdə çempionatı, futbolumuzu tənqid edirəm.

**- 24-ə yüksəlməklə deyil ki. Görmürsüz, futbol, çempionat nə günə düşüb. Bölgələrdə futbol, klub qalmayıb.**

- Biz neyniyək? Sponsor yoxdu da. Sponsor futbola pul qoymaq istəmir.

**- AFFA Bakıdakı perspektivsiz komandalara pul buraxmaqdansa, bölgələrdə futbolu düzəldə bilməz?**

*Onda özündən çıxır, başlayır federasiyanı müdafiə etməyə.*

- Ay müsəlman, bəs, bu qədər komandanı saxlayan kimdi? AFFA deyil? Vallah, haqsız yerə tənqid edirsiniz Rövnəq Abdullayevi, Elxan Məmmədovu...

Ofisiantın masaya yemək gətirməsi söhbətimizi bölür, üzünü ona çevirib soruşur:

**- Haralısan ayə?**

- Kürdəmirdənəm.

**- Kürdəmirin harasından?**

Və beləcə gürcüstanlı Ramin Musayevlə kürdəmirli ofisiantın şirin söhbəti başlayır. Onda mənə bir anlıq elə gəlir ki, Ramin Musayev Bolinisidə deyil, elə Kürdəmirdə doğulub. Həmin ofisiantla eyni kənddə və möhkəm də qohumdular.

Ofisiant yeni sifariş qəbul edib gedəndən sonra futbol söhbətimiz davam edir:

**- Yaxşı, maa de görüm, mən necə işləyirəm? Amma kişi kimi düzünü de.**

- Razı deyiləm...

Mənə elə gəlir ki, bu sözüm onun qəlbinə dəyir, yenə başını bulayır, amma fikrimi tamamlamağa imkan verir:

- Tək sizdən yox. Sizin də daxil olduğunuz futbol sistemindən. Onlardan tək mən deyil, çox adam razı deyil.

Sonra... Sonra futboldan danışmırıq daha. Heç onun özündən də. O, özündən danışmağa imkan vermir nəyə görəsə. Özünə münasibətdə hardasa xəsislik edir.

**Bəs, əslində kimdi Ramin Musayev?**

Təkcə bizim gördüyümüz futbol rəhbərimi? Elə deyil axı! Bizdən biridi - sıravi, qara camaatdan biri, həmişə onların içində olan biri. Heç vaxt məmurlaşmayan, məmurlaşmayacaq - bir kənd adamı kimi biri. İnsan kimi saf, yeri gələndə kübar, yeri gələndə alicənab, çox vaxt baməzə, sadə biri, ən əsası mərd biri.

Amma o bunları özünə deməyə qoymur.

Başlayır həyatdan danışmağa. Danışa-danışa doğulduğu kəndə getməyə. Sonra ordan yenə bura, Bakıya qayıtmağa. Oturduğumuz bu masada şeir oxumağa. Şeir oxuduqca ağlamağa. Ağladıqca cənnətlik anasını xatırlamağa...

Və o ana, onun ruhu bu gün səhər o başdandan Ramin Musayevi yuxudan oyadıb. Yuxudan oyananda da Ramin Musayevin yadına düşüb ki, düz 55 il əvvəl bu vaxt dünyaya gəlib!

***Redaksiyadan: Ramin Musayevin 55 illiyinə həsr olunan bu yazı ilk dəfə 2018-ci ilin aprelin 26-da Qol.az saytında işıq üzü görüb və bu gün onun 58 yaşının tamamında təkrar yayımlanır.***

**Aydın BAĞIROV**
**qol.az**

# "Barselona" De Liqti almaq istəyir




**"Yuventus"un futbolçusu Matteyis De Liqt karyerasını İspaniyada davam etdirə bilər.**

**Qol.az xəbər verir ki, niderlandlı müdafiəçini "Barselona" heyətinə cəlb etmək istəyir. Kataloniya klubunun baş məşqçisi Ronald Kumanın Niderland millisində birgə çalışdığı futbolçunu yola gətirəcəyi bildirilib.**

**Qeyd edək ki, bu mövsüm "Yuventus"un heyətində 30 oyuna çıxan 21 yaşlı futbolçunun transfer qiyməti 70 milyon avro dəyərindədir.**

# Azərbaycanda yeni və ilk dəfə olacaq bir layihə - Mototaksi

*Moto sürücü, layihənin müəllifi Rövşən Əliyev Adalet.az-a müsahibə verib.*

**- Rövşən bəy, "Motosikletlərə" , "Moped"-lərə xüsusi ilə son dövrlər daha çox maraq artdı. Artıq şəhərdə hər addım başı rast gəlmək olur. Bunun birinci səbəbi kimi pandemiya vaxtı işsizliyi göstərdilər ki, hər kəs alıb, "kuryer" işləyir. Sizcə də belədir? Yoxsa, başqa səbəbləri də var?**

- Məncə motosikletlərə xüsusi maraq tıxaclarda yubanmamaq, istədiyin yerə vaxtından tez çatmaq, daha az benzin və digər sərfiyyatlara görə maraq artdı. Kuryer işləyənlərdən çox son zamanlar həvəskar moped və motosiklet sürənlərdə artıb. Həm də elə pandemiya buna səbəb oldu.

**- Rahat olmağına baxmayaraq bir o qədər də təhlükəlidir. Elə son dövrlər ölüm halları da artdı moto sürücülər arasında. Bu, sizi yaxud başqalarını qorxutmurmu? Əksinə, daha da artım görünür indi sürənlər arasında. Səbəb motoda xüsusi bir sevginin olmasıdır? Adətən, sürücülər bu cür deyir..**

- Ölüm hallarının artması bir başa bəzi moped satan şirkətlər ilə əlaqədardır. Fikir versəniz, həvəskar motosiklet sürənlər arasında qəza halları çox nadir hallarda yaşanır, amma moped sürücüləri arasında demək olar ki, tez-tez baş verir.

Bunun səbəbi 300 manat ilkin ödəniş ilə heç bir təcrübə tələb etmədən moped satan şirkətlərdir. Gənclər maraq göstərir, təlimə getmədən birbaşa 300 manat tapıb belə mopedləri alırlar və qəza halları qaçılmaz olur...

**- Təlim demiş, yeni bir işə başlamısınız. Deyəsən, bu Azərbaycanda ilkdir. "Mototaksi..."**

- Bəli. Bir çox ölkələrə baxdıq, "bizdə niyə olmasın?" dedik və yavaş-yavaş irəliləməyə çalışırıq.. Azərbaycan ilk edən mənəm. Ümid edirəm, yaxşı olacaq.

**- Şirkət kimi fəaliyyət göstərirsiniz, yoxsa necə? Ümumiyyətlə, fəaliyyətiniz, etmək istədikləriniz haqqında danışaq. Niyə belə bir şey və məhz niyə insanlar buna həvəs göstərməlidir? Təhlükəni də nəzərə alaraq..**

- Hal-hazırda fəaliyyətimizi sosial şəbəkə üzərindən davam etdiririk. Güvəndiyim, təhlükəsiz sürdüyündən əmin olduğum, motosikletinin mühərrik həcmi 150 cc-dən çox olan moto sürücüləri WhatsApp qrupumuza add edirik. İnsanların bir yerdən başqa bir yerə çatmasına köməklik göstəririk. İstədiyim əsas şey motosikleti insanların ciddi nəqliyyat vasitəsi kimi görmələridir. Biz müştəriləri heç bir təhlükəyə atmırıq qeyd etdiyim kimi. Təhlükəsiz sürəcəyindən əmin olduğumuz moto sürücülər ilə işləyirik.



**- Amma yenə də burda bir qayda-qanun, rəsmi məsələlər olmalıdı. Sabah hansısa xoşa gəlməz hadisə ilə üzləşəndə daha da böyük problem olmaması üçün. Bununla bağlı nəsə planlarınız yoxdu? Axıra qədər bu cür pərakəndə olacaqmı?**

- Yaxın müddət ərzində rəsmi olacaq hər şey və application üzərindən işləyəcəyik. Necə ki, digər ölkələrdə işləyirlər o cür.

**- Sizcə alınacaq? İndidən maraq hiss edirsinizmi? Məhz taksiləri yox, sizi seçəcəklər?**

- İnsan üçün ən dəyərli olan vaxtdır fikrimcə, ortalama hesablasaq ömrümüzün bir neçə ilini tıxaclarda keçiririk. Moto taksi ilə bunu bir neçə ay etmək olar.Etməyib peşmançılıq çəkməkdənsə, edib təcrübə qazanmaq daha yaxşıdır. Ən azından daha təcrübəli olacam.

**- Mototaksiyə müraciət edən xanımlar olurmu? Adətən, burda problem yaranır, sosial şəbəkədə də rəy olaraq bir neçə dəfə yazdılar ki, qadınların istifadə etməsi ayıbdır.**

- Elə hazırda ən çox xanımlardır. Seçdiyim moto sürücülərin demək olar ki, hamısı evlidir. İş ilə dostluğu qarışdıracaq insanlar deyil. Bizim üçün müştərinin cinsiyyətinin heç bir önəmi yoxdur. Əsas işimizi görüb, insanları xidmətimizdən məmnun edirik. Hərkəsin düşüncəsinə hörmət ilə yanaşıram, insanlardan da eynisini gözləyirəm.

**- Bəs, bu xəbərə taksi sürücüləri nə deyir? Ünsiyyətdə olmusunuz heç? Reaksiyaları mənfi olar yəqin ki...**

- Keçən dəfə bir taksi sürücüsü yaxşı söz dedi ki, "hərkəsin öz ruzisi var, sizin ruzinizi mən yeyə bilmərəm.." Bizim fikrimiz taksi sürücülərinin bazarını öldürmək deyil, vaxt itkisi və tıxac yaratmadan insanların daha tez çatmasına kömək etməkdir.. Amma hə, narazılıqlar da var onlardan.

**- Yəqin ki, moto sürmək daha çox fəsillə əlaqəlidir. Məsələn, sizlər qışda, yağışlı havalarda işləyə bilməyəcəksiniz. Bununla bağlı düşündüyünüz nələrsə var? Yoxsa, təbiət bilən məsləhətdir?**

- Motosiklet sevgin oldusa, bu, fəsilə baxmır, bunun üçün xüsusi geyimlərimiz də var. Mototaksi layihəmiz uğurla inkişaf etsə, xüsusi motosiklet geyimlərimizi müştərilərimiz üçün də təmin edəcəyik..

**- Müsahibə üçün təşəkkür edirik.**

- Buyurun, çox sağ olun.

**Söhbətləşdi;**
**Orxan Saffari**

# "Uşaqlığım 11 yaşında öldü"

*Həmsöhbətimiz şair Elməddin Nicatdır.*

**-Kəlbəcər də azad olundu...**

-Salam Emin! Xoş gördük. İlk öncə istərdim səni bu qələbədə zəhməti olan Azərbaycanın müzəffər ordusunun zabiti kimi təbrik edim.

Kəlbəcərin azad olunacağı əslində hər il ildönümlərlə bir az öləziyən kimi görünsə də, ildönümlər intihardır, Ağlayırıq avaz ölür...

Kəlbəcərin işğal ildönümlərindən birində yazmışdım. Dövlətin bu sahədəki siyasəti, beynəlxalq hüququn bizim tərəfimizdə olması bir gün o torpaqlara dönəcəyimizə inamı öldürməmişdir. Kəlbəcərin azadlığını bizlərə nəsib edən Azərbaycan əsgərinə və Cənab Ali Baş Komandana təşəkkür edirəm.

### *Kəlbəcər yaddaşımda elə uşaqlığım kimi qaldı*

**-Neçə yaşında ordan çıxmışdın? Uşaqlıq xatirələrini orda tapa biləcəyinə inanırsan?**

- On bir yaşım var idi... Uşaq yaddaşı möhkəmdir. Elə uşaq yaddaşıma yığdığım Kəlbəcəri yaşayırdım bu illər ərzində. Kəlbəcər mənim yaddaşımda elə uşaqlığım kimi qaldı. Yəni ondan sonra uşaqlıq deyə bir yaşam olmadı. Deməli Emin, kəndimizdən çıxmamışdan bir gün öncə yaddaşımı bu 27 ildə elə qurşamışdı ki, bir gün olsun yadımdan çıxmadı. Yazın ilk günləri olduğundan günəş qarı əridir və çaylar o tay-bu tay gedərdi. Qəribədir heç ondan sonra daşan çay da görmədim. Sinif yoldaşlarımızla nərgiz, bənövşə yığmağa getmişdik. Evə qayıdanda saat hardasa 3-4 arası olardı anam evimizin həyətində nəsə iş görürdü birdən atam gəldi anama nəsə deyib bir xeyli danışdılar. Səhəri gün kəndimizdən çıxan kamaz maşınlarla uşaqlığımı elə o kənd qapımızda qoyub gəldim... Mənim uşaqlığım 11 yaşında öldü... Viran olmuş həyətimizin uçuq divarlarının arasından nələri tapacağamsa sevincə brünmüş yaddaş ağrısına çevrilmiş xatirələr olcaq. Qəribəsi odur ki, 11 yaşımda çıxdığım evimizə 11 yaşlı oğlumla dönürəm. İnşallah mənim 11 yaşında yarımçıq qalan uşaqlığımı 11 yaşlı oğlum Ayxan doya-doya yaşayar.

**-Məktəb direktorusan. Bəs, Kəlbəcərə köçmək fikrin var? Ya da belə deyək, direktorluğu sıravi kəlbəcərli olmağa dəyişərsən?**

-Bəli, bir neçə illərdir ki, bu şərəfli və məsuliyyətli vəzifəni elə Kəlbəcərli müəllimlər və şagirdlərlə birgə görürəm. Kəlbəcərə dönmək ən böyük arzumuz idi. Bu gün o arzumuz çin olub. Böyük səbrsizliklə dönəcəyimiz günü gözləyirəm. Mənim üçün Kəlbəcərli olmaqdan, Kəlbəcərdə olmaqdan böyük vəzifə yoxdur.

Bu arada bir söz də deyim ki, Kəlbəcərin azad olunmasında zəhməti sən çəkməyinə baxmayaraq məhləmizdən İntiqam Yaşara ev yeri söz vermişəm. Nə də olsa indi orda sənin iki evin olacaq.

**-Qaçqın düşərgələri sənə nəyi öyrətdi? Gələcəkdə bunun həyatında hansısa önəmi var?**

-Nəyi öyrətmədi ki?! Bütün mənəvi və psixoloji travmaları yaşamaq. Olmayacaq bir şeylərin canlı-canlı yaşanılması. Çoxlarının flimlərdə izlədiklərini yaşamaq çadır şəhərciklərində böyüyən uşaqların alın yazısı oldu. Ağrılara sarılaraq yaşamaq... Çadır şəhərciklərindən yataqxana köşələrinə kimi uzanan ömrümün təsəlli tapacağı yeganə ünvandır şeir!

**-Şair və vəzifə. Düzdü, məktəb direktoru olmaq müqayisə ilə elə də böyük vəzifə deyil. Amma el dilində yenə də "kreslo"dur. Şairliyinə mane olmağını heç hiss etmisən?**



-Məktəb direktoru olmaq böyük vəzifə sayılmsa da məsuliyyəti və adı çox diqqətli olmağı tələb edir. İşlədiyin böyük bir kollektivin etimadını sizə verirlər. Çalışıb layiqincə idarə etməlisən. Deməzdim şairliyimə mane oldu, amma davamlı ədəbi tədbirlərdə iştirakımı azaltdı. -

**-Son kitabın 9 il öncə çıxıb. Elə dediyim kimi, deyəsən direktorluq şeir yazmağına mane olub. Tükənmişlikdir bu, ya?**

-Hə, 2012-ci ildə çıxıb kitabım. Kitab çıxarmağımın işimlə əlaqəsi yoxdur. Deyərdim ki, sadəcə böyük bir axın başladı, kitab çapı axını. Demək olar ki, yaradıcılıq davam edir vaxtaşırı sayt və qəzetlərdə çap olunuram.

### *Cavabdehlik insanı şəxsi arzu və istəklərdən bir az kənar saxlayır*

**-Əvvələr Bakıda, Sumqayıtda tez-tez görərdik səni. Deyəsən indi ya heç gəlmirsən, ya gizli gəlirsən, ya da küsüb əyalətə çəkilmisən...**

-Bax bu dediyiniz sırf işimin yaratdığı vaxt məhdudiyyətidir. Əvvəllər ədəbi tədbirlərə sıx qatılırdım. İstər Bakıda, istərsə də Sumqayıtda tez-tez görüşürdük. Amma indi görüşlərin iş günlərində təşkil olunması yaxın dostların belə tədbirlərinə qatılmağa imkan yaratmır. Birdən vaxt olanda dostlarla görüşə bilirik. Gizli gəlişlər də olur. Küsüb əyəalətə çəkiləcək kimi bir iddiam yoxdur ki. Ən dəqiqi rəsmi öhdəçilik, cavabdehlik insanı şəxsi arzu və istəklərdən bir az kənar saxlayır.

**-Bir dəfə kitab təqimatında olmuşdum. Səhv etmirəmsə, Metropolitenin keçmiş rəisi Tağı Əhmədovun sayəsində dərc olunmuşdu. Balaca bir otaqda imza günü. Açığı indiyə kimi gördüyüm ən kiçik məkanda imza günü idi.**

-Mənim ilk kitabım Tağı müəllimin dəstəyi ilə çap olundu. Burdan da Tağı müəllimə, Salatın xanıma təşəkkürümü bildirirəm. Elə həmin kitabın təqdimatı idi dediyin o təqdimat. Ön sözün Rüstəm Kamal yazmışdı, redaktoru İbrahim İlyaslı, rəssamı Nəvai Metin olan "Dağlar yuxunuz çin olsun"adlı kitabın. "Məhsəti" şairlər məclisinin iş otağıdan. Mən ümumiyyətlə böyük təmtəraqlı təqdimatları sevmirəm. Son zamanlar bu kitab təqdimatları lap toy dəvətnamələrinin gününə dönmüşdü. Yaxşı ki, bu pandemiya o işləri səhmana saldı. O kiçik məkanda nə qədər istiliyin və səmimiyyətin olduğunu özün gördün. O imza gününə gələn hər kəsi ürəyi çəkib gətirmişdir. Yadımdadır səni də yetərincə yordum, hətta oturmağa yer də olmadı ayaqüstə qaldın. Sona kimi də yanımda oldun. Əminəm ki, indi imza günlərində Emin Piri o qədər ayaq üstə gözləməz.

**-Şəkilləri qar içində saxlamaq istəyi nə ilə bağlıdır? Çirkinliyi təmizlik içində qorumaq, ya?**

Bəlkə elə bu sualına bu şeirlə cavab verim?- həm yerinə düşər, həm də sualının cavabı olar.

### *ŞƏKİLLƏR SAĞ QALIR...*

*Sən məni yaşayan xatirələrdə,*
*Sən məni sağ qalan şəkillərdə sev...*
*Boylan ürəyimin pəncərəsindən,*
*Ömrü küçə-küçə çək illərdən...sev !*

*Saxla qar içində şəkillərimi,*
*Adını "darıxmaq" sərgisi elə.*
*Adımı dilinin ucunda unut,*
*Qəfil unudulanlar cərgəsi ilə...*

*Hardasan, gecikdin, ömür tələsir,*
*Axşamdan sabaha ümid bir udum.*
*Səni doya -doya içimə çəkdim,*
*Səni şəkillərlə necə unudum?!!!*
*-Elə dəlisiyəm, gözləri yaşıl*

**- Ürəyi ağappaq, sarışın qızın! Nədir bu sarışın sevgisi?**

**Bizim olmayanlar bizə gözəl görünür bəlkə? Beləcə, əsmərlərin haqqını yemiş oluruq.**

-Şair, deyəsən həssas nöqtələrdən ürəyə doğru addımlayırsız ha... Bu qeyd etdiyiniz beyt də bir şeirimdəndir. Hər kəsin bir dəli sevdası, bir könül tutqunluğu olur. Mənimki də YAŞILGÖZ, SARI SAÇ oldu. Bir neçə il öncə yazdım amma elə bir bənd də qaldı davamını yaza bilmədim...

*Bəxtəvər başına sənin sevənin*
*Dünya nə vecinə evindəkinin.*
*Bilməyir qədrini sənin bəlkə də*
*Kim bilib qədrini əlindəkinin?!...*

**Söhbətləşdi:**
**Emin Piri**

# 750 milyon geni dəyişdirilmiş ağcaqanad təbiətə buraxılacaq

**ABŞ-da uçan həşəratlardan insanlara keçən xəstəliklərin ən birinci səbəbkarlarından olan Aedes növündən olan ağcaqanad populyasiyasına nəzarəti ələ almaq üçün bir proyektə start verildi. İlk addımı bu həftə atılacaq çalışmada 750 milyon geni dəyişdirilmiş ağcaqanad Florida Keysdə təbiətə buraxılacaq. Adalet.az-ın məlumatına görə, bu proyekti biotexnologiya şirkəti Oxitec həyata keçirəcək.**

Proyekt zika, sarıhummaa və danq humması kimi xəstəlikləri məhv etmək üçün həyata keçirilir.

Dişi Aedes ağcaqanadları yumurta qoymaq üçün ehtiyacı olan qanı canlıları dişləməklə əldə edir. Erkək geni dəyişdirilmiş ağcaqanadların dişi ağcaqanadları yumurta qoymaq dövrünə çatmamış öldürməsi gözlənilir. Bunun sayəsində dişoi Aedes ağcaqanadlarının populyasiyası azalmalıdır.



Qeyd edək ki, Florida Keysdəki ağcaqanadların 80 faizi Aedes ağcaqanadları təşkil edir.

**Eminquey**

# PSJ Messiyə müqavilə təklif etdi




**PSJ "Barselona"nın kapitanı Lionel Messini transfer etmək istəyir. Qol.az xəbər verir ki, Paris təmsilçisi argentinalı hücumçuya "2+1" sxemi ilə müqavilə təklif edib.**

PSJ 33 yaşlı futbolçuya təklif etməyə hazır olduğu maliyyə şərtlərinin "Barselona"da daxil olmaqla, başqa klubların etməyəcəyinə əmindir.

**Messi özü hələ gələcəyi ilə bağlı qərar verməyib. Onun Kataloniya klubu ilə müqaviləsi bu yay başa çatır.**

"TİKMAT" təchizat şirkəti tərəfindən Əhmədov Şamxal Hümbət oğlunun adına verilmiş M.Hadi və X.Məmmədov küçələrinin kəsişməsi 2944a ünvanında inşa edilmiş 5 saylı binanın "A" blokunun 12-ci mərtəbəsində yerləşən 52 saylı mənzilə aid Müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

***

Astara rayonu Giləkəran kənd sakini Həsənov Rahil Cəlil oğluna 2 iyuıl 1999-cu il 18 saylı qərarı ilə Astara rayonu Aqrar İslahat Komissiyasının tərəfindən verilmiş torpaq sahəsinin plan və ölçüsü AN 229346 itdiyi üçün etibarsız sayılsın.

***

Astara rayonu Ərçivan kənd sakini Novruzov Məmmədağa Mirzağa oğluna 24 noyabr 2003-cu il 06 saylı qərarı ilə Astara rayonu Aqrar İslahat Komisiyyasının verdiyi torpaq sahəsinin plan və ölçüsü AN 493588 itdiyi üçün etibarsız sayılsın.

Faiq Qismətoğlu Əməkdar artist
**BALOĞLAN ƏŞRƏFOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Qərib Mehdi və Oqtay Abdulla
**AZƏR ABDULLANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Ağacəfər Həsənli ailəsi ilə birlikdə Şəfaəddin İlkinə bacısı
**GÜLCAHANIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi:
**Aqil ABBAS**

Baş redaktor:
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 90**
Çapa imzalanmışdır:
28.04.2021